Published by Lulu Enterprises Inc.
3101 Hillsborough Street
Suite 210
Raleigh, NC 27607-5436
United States of America

Published in paperback 2016
Copyright Asgar Zeynalov © 2016
ISBN: 978-1-329-95408-3

All rights reserved, Copyright under Berne Copyright Convention and Pan American Convention. No part of this book may be reproduced, stored in a retrieval system, or transmitted in any form or by any means, electronic, mechanical, photocopying, recording or otherwise, without prior permission of the author. The author's moral rights have been asserted.

*İrəvan xanlığı, Zəngəzur mahalı, digər bölgələr bizim tarixi torpaqlarımızdır.*

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

**ƏSGƏR ZEYNALOV**

# İRƏVAN XANLIĞI...
## GERÇƏKLİYİN AYDINLIĞI

**Redaktor və ön sözün müəllifi:**

*filologiya elmləri doktoru, professor*
***Teymur ƏHMƏDOV***

**Rəyçi:**

*AMEA-nın müxbir üzvü, professor*
***Nizami CƏFƏROV***

**Əsgər Zeynalov. İrəvan xanlığı... Gerçəkliyin aydınlığı.**

*Kitabda XIX və XX əsrlərdə İrəvan xanlığı – Körpübasar, Zəngibasar, Göyçə, Dərəçiçək, Gərnibasar, Sərdarabad, Vedibasar və digər mahallardan, eləcə də mərkəz İrəvandan olan ziyalı nəsillərin, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətindən, onların Azərbaycanın elm, mədəniyyətinin inkişafında oynadığı roldan bəhs olunur.Əsərdə tipik müsəlman torpağı kimi təqdim edilən bu xanlığın keçmişinə ekskurs edilmiş və XIX, XX əsrlərdə burada fəaliyyət göstərmiş ədəbi mühit də öz əksini tapmışdır.*

***Kitab dünya azərbaycanlıları üçün nəzərdə tutulmuşdur***.

© Ə.Zeynalov, 2016.

## 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən bu cür qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin də öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq qərara alıram:

1. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət

verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə aşağıdakı tərkibdə dövlət Komissiyası yaradılsın:

*Dövlət Komissiyasının sədri:*
**Heydər Əliyev** - Azərbaycan Respublikasının Prezidenti

*Dövlət Komissiyası sədrinin müavini:*
**Artur Rasizadə** - Azərbaycan Respublikasının baş naziri

*Dövlət Komissiyasının üzvləri:*
**Ramiz Mehdiyev** - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri
**Vasif Talıbov** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri
**İzzət Rüstəmov** - Azərbaycan Respublikası baş nazirinin müavini
**Elçin Əfəndiyev** - Azərbaycan Respublikası baş nazirinin müavini
**Həsən Həsənov** - Azərbaycan Respublikasının xarici işlər naziri
**Namiq Abbasov** - Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri
**Ramil Usubov** - Azərbaycan Respublikasının daxili işlər naziri
**Eldar Həsənov** - Azərbaycan Respublikasının baş prokuroru
**Südabə Həsənova** - Azərbaycan Respublikası ədliyyə nazirinin birinci müavini
**Xanlar Hacıyev** - Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri
**Sirus Təbrizli** - Azərbaycan Respublikasının mətbuat və informasiya naziri
**Vəfa Quluzadə** - Azərbaycan Respublikasının xarici siyasət məsələləri üzrə dövlət müşaviri
**Hidayət Orucov** - Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə dövlət müşaviri
**Fatma Abdullazadə** - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri
**Şahin Əliyev** - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri
**Fuad Ələsgərov** - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının dövlət-hüquq şöbəsinin müdiri

**Yusif Hümbətov** - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

**Əli Həsənov** - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri

**Rəfael Allahverdiyev** - Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı

**Nizami Xudiyev** - Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri şirkətinin sədri

**Fəraməz Maqsudov** - Azərbaycan Elmlər Akademiyasının prezidenti

**Anar Rzayev** - Azərbaycan Yazıçılar Birliyinin sədri

**Cəmil Quliyev** - Azərbaycan Elmlər Akademiyası ictimai elmlər bölməsinin akademik-katibi əvəzi

**İqrar Əliyev** - Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru

**Budaq Budaqov** - Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru

**Ataxan Paşayev** - Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin rəisi

**Yusif Yusifov** - N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi tarix kafedrasının müdiri

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 18 dekabr 1997-ci il*

## “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında “Erməni vilayəti” adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. “Böyük Ermənistan” ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına “bəraət qazandırmaq məqsədilə” erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

“Böyük Ermənistan” yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik

törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cumhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar.

Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kompaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalq"ının surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırıldı.

Ermənilərin Sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-cı illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusiyon qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cumhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə qərara alıram:

*1. 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilsin.*

*2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, Azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.*

**Heydər Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 26 mart 1998-ci il*

***Biz hamımız yaxşı bilirik ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı, digər bölgələr bizim tarixi torpaqlarımızdır. İkinci erməni dövlətinin Azərbaycan torpağında yaradılmasına Azərbaycan dövləti və Azərbaycan xalqı heç vaxt icazə verməyəcəkdir.***

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 31 mart 2010-cu il*

## YURD YANĞISINDAN YARANMIŞ KİTAB

Əsgər Zeynalov bu gün həsrətlə xatırladığı öz doğma yurdu ilə bağlı bir sıra kitablar, 200-dən artıq məqalə nəşr etdirmişdir. “İrəvan xanlığı... gerçəkliyin aydınlığı” kitabı bu zəhmətkeş tədqiqatçının Vətən yanğısıyla bağlı yazdığı əsərlərin davamı sayıla bilər. Mən professor M.Seyidovla bərabər Ə.Zeynalovun elmi rəhbəri olmuş və onun Azərbaycan dilində nəşr edilmiş müstəsnasız olaraq bütün kitabları mənim redaktorluğumla işıq üzü görmüşdür. Ona görə Azərbaycan dilində deyirəm ki, onun əsərləri öz ana dili ilə yanaşı rus, ingilis və fransız dilində də nəşr olunmuşdu.

Ə.Zeynalov nədən yazıbsa, onun bütün əsərlərində, hətta dünya ədəbiyyatı ilə bağlı əsərlərində də bir azərbaycanlı, bir türk, bir şərq təəssübkeşliyi güclü surətdə hiss olunur. “İrəvan xanlığı...gerçəkliyin aydınlığı” da belə bir təəssübkeşlikdən yaranmış, ərsəyə gəlmişdi.

Tədqiqatçı əsərində İrəvan xanlığını əhatə edən mahallara münasibət bildirmiş, onları oxuculara təqdim etmişdi. Araşdırıcı qaynaqlara əsaslanaraq göstərir ki, İrəvan xanlığı on beş mahaldan ibarət olmuşdu:

1.Qırxbulaq mahalı
2. Zəngibasar mahalı
3. Gərnibasar mahalı
4. Vedibasar mahalı
5. Şərur mahalı
6. Sürməli mahalı
7. Dərəkənd mahalı
8. Saatlı mahalı
9. Talin mahalı
10. Seyidli-axsaxlı mahalı
11. Sərdarabad mahalı
12. Körpübasar mahalı
13. Abaran mahalı
14. Dərəçiçək mahalı
15. Göyçə mahalı.

“İrəvan xanlığı... gerçəkliyin aydınlığı” kitabında eyni zamanda İrəvan xanlığının öz müstəqilliyini qorumaq üçün fədakar, inadlı mübarizəsi də öz əksini tapmışdı. Neçə-neçə xanlığı asanlıqla işğal

edən general Sisianov, feldmarşal Qudoviç bu xanlığın ərazisində məğlub olmuşlar.

Əsərdə erməni qaynaqları əsasında o da diqqətlə çatdırılır ki, XIV əsrin sonlarında rus ordusu İrəvan xanlığını işğal edənə - yəni 1828-ci ilə qədər bu ərazini azərbaycanlılar idarə etmişlər.

Oxuculara təqdim edilən kitabın adı şərti olaraq "İrəvan xanlığı... gerçəkliyin aydınlığı" adlandırılmışdır. Dumanlı keçmişlərdən üzü bəri İrəvan xanlığının ərazisində dünyaya göz açan, boya-başa çatan görkəmli adamları arayıb axtarsaydılar, ehtimal ki, cild-cild kitab yazılardı. Ədəbiyyatşünas alim Əsgər Zeynalov öz oçerklər toplusunda İrəvan xanlığı torpağında doğulmuş, boya-başa çatmış, əsli-nəsəbi o yerlə sıx bağlı olmuş müasirlərinin həyatını və icmai fəaliyyətini araşdırmağı, onların bir növ ədəbi-tarixi portretini yaratmağı qarşısına məqsəd qoymuşdur. Oçerklərdən göründüyü kimi İrəvan ziyalılarının əksəriyyətinin ali təhsil alması, ictimai fəaliyyəti Azərbaycanın mərkəzi Bakı şəhəri ilə sıx bağlı olmuşdur. İrəvan doğma ata-baba yurdu, Bakı isə onları ərsəyə çatdıran, ictimai həyata pərvazlandıran, qayğısına qalan, qədr-qiymətini əziz tutan vətən olmuşdur. Başqa sözlə, ömrünün çoxunu Bakıda keçirən, dünyasını burada dəyişən, ana torpağa qovuşan İrəvan ziyalıları əslində, bütöv Azərbaycanı təmsil edən ziyalılardır. Bununla belə, onların qəlbində ata-baba yurdunun yanğısı daim közərmiş, nisgilli vətən həsrəti həmişə yaşamışdır. Onlar o doğma yerlərə qovuşmaq üçün gənc nəslin qəlbində ümid qığılcımı yandırmışlar. Bəli, o yerlər Azərbaycan torpağıdır. Gec-tez bizim olacaqdır.

Kitabda İrəvan ziyalılarına xüsusi yer ayrılması təsadüfi deyildir. İrəvan Qərbi Azərbaycanın nəinki bütün Qafqazda, hətta Şərq ölkələrində belə ən iri ticarət, elm və mədəniyyət mərkəzi, tipik müsəlman şəhəri olmuşdur. Burada bir-birindən yaraşıqlı 8 məscid tikilmişdi. Əzəmətli Göy məscid və Günlüklü məscid son dövrlərə qədər qalırdı. Şəhərin bir tərəfi mənbəyi Göyçə gölündən olan Zəngi çayının sıldırım təpəsi üstündə, o biri tərəfi isə çuxurda yerləşirdi. Ağrı dağı vadisi bura qədər uzanırdı. İrəvanın ətrafı sıx meşə və bağlarla əhatə olunurdu.

Dəlmə, Dərə bağları ilə bölgədə məşhur olan şəhərdə təcrübəli bağbanlar yaşayırdı; onlar növ-növ meyvə ağacları, dürlü-dürlü üzüm meynələri əkib becərirdilər. Bu şəhərdə ağır tayfaların nəsli yaşayırdı.

İrəvan qədim yaşayış məskəni olsa da, onun şəhər həyatı haqqında XIV-XV əsrlərdə məlumat verilir. Qaraqoyunlu və Ağ-

qoyunluların hökmranlıgı dövründə İrəvan Çuxur Səd vilayətinin inzibati mərkəzi olmuş, Əmir Səd (1410), onun övladları, sonra Həsən Əli Qaraqoyunlu (1460) onun abadlaşdırılması qayğısına qalmışlar. Məhəmmədqulu xanın hakimiyyəti dövründə İrəvanda olmuş fransız səyyahları Jan Batist Taverniyen (1655), ondan on il sonra Jan Şarden, eləcə də digər Avropa səyyahları öz yol qeydlərində İrəvan qalasından, orada yaşayan əhalinin milli mənsubiyyətindən söhbət açmışlar. Şəhər qalasında 800 evin olmasını, orada yalnız müsəlmanların yaşamasını bildirən səyyahlardan biri yazmışdır: "Şəhər torpaqlarını cənub-qərbdən axan Qırxbulaq və şimal-qərbdən axan Zəngi çayları suvarır. Sərdarın sarayı çox gözəl, möhtəşəm bir imarətdir..." Xan sarayının Şüşəbəndi-güzgülü salonu, qalada ucaldılmış qoşa-qoşa əzəmətli məscidlər, iki-üç mərtəbəli imarətlər, karvansaralar, meydanlar, mərmər hovuzlar, fəvvarələr, möhtəşəm abidələr, bağ-bağçalar, İrəvanın həyat-tərzi, onun sakinləri haqqında səyyahlar heyranlıqla məlumat vermişlər.

"Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" (Bakı, 1995, s.13) kitabında yazılır: "1679-cu il iyunun 4-də zəlzələ İrəvanı yerlə-yeksan etmişdi. İrəvanın yeni hökmdarı təyin olunmuş Zal xanı təbrik etmək üçün zəlzələdən bir qədər əvvəl buraya gəlmiş Əylisli Zəkəriyyə həmin hadisəni belə qələmə almışdır: daşı-daş üstə qalmadı, məscidlər, karvansaralar, kilsələr dağıdıldı, qala yerlə-yeksan oldu, körpülər yatdı, sular batdı, ölən qalandan çox oldu. Ətrafda it-pişik də gözə dəymirdi. Abbasqulu xanın kürəkəni Zal xan çapar göndərib bu sitəm haqqında dörd yana xəbər yaydı. Gəncədən 800 adam gəldi. Məhəmməd xan Naxçıvandan böyük bir dəstə gətirdi. Bərdədən, Zəyəmdən, Makudan, Təbrizdən, qonşu xanlıqlar və sultanlıqlardan o qədər adam gəlmişdi ki, qala ətrafında tərpənməyə yer yox idi. Azərbaycan vəziri Mirzə İbrahim iyulun 1-də Təbrizdən gəlib İrəvanda əyləşdi. Qala yenidən ucaldı, daha möhkəm oldu, arxlar çəkildi, körpülər salındı, məscidlər, karvansaralar, kilsələri yenidən tikdilər. Şəhər dirçəldi, əhali bərpa olunmuş evlərə qayıtmağa başladı".

İrəvanın başı üzərindən fəlakət qasırğası zaman-zaman ötüb keçmişdir. İran, Osmanlı imperiyası arasında ara-sıra qanlı müharibələr, vilayətin dönə-dönə əldən-ələ keçməsi, talana, soyğunçuluğa, dağıntılara məruz qalması İrəvan şəhərinə ağır zərbələr vurmuşdur. Bu ağrılı-acılı günlərdə Şimali və Cənubi Azərbaycanın İrəvana köməyi sayəsində əhalinin şəhəri bərpa etməsi, viranəlik-xərabəlik

üzərində yenidən dirçəltməsi bir daha sübut edir ki, qondarma Ermənistan ərazisi Azərbaycanın ayrılmaz bir parçası olmuşdur. Bütöv Azərbaycanla iqtisadi və mənəvi əlaqələrlə sıx bağlı olan İrəvan şəhəri sözün həqiqi mənasında azərbaycanlıların əzəli, doğma məskəni olmuşdur.

Toponimlər, yer adları, tarixi sənədlər, abidələr də qəti sübut edir ki, sonradan yaradılan qondarma Ermənistan ərazisində azərbaycanlılar çoxluq təşkil etmişlər.

1880-cı ildə İrəvana səfərdə olan arxeoloq Uvarov məşhur Göy məscidin uzaqdan cəlb edən günbəzinə və bir cüt uca minarəsinə baxıb heyranlıqla yazırdı: "Məscidin üstündən boylanan çətir sanki müsəlman aləmində tutduğu mövqeyinin nə qədər mühüm olduğunu bütün dünyaya sübut etmək istəyir" (Bax: orada, səh.16).

1827-ci il oktyabrın 1-də rus qoşunları İrəvanı çətinliklə zəbt etdikdən sonra bədnam Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığı Rusiyaya birləşdiriləndə İrəvanda 12 min nəfərlik 2400 ailə yaşamışdır. Bundan yalnız şəhər ətrafında məskun olan min beş yüz - iki min nəfər erməni azərbaycanlılarla dinc əməkdaşlıq şəraitində yaşamışlar. İrəvan xanlığının süqutundan sonra yerli kübar azərbaycanlı ailələrinin bir hissəsi doğma yerlərini tərk etməli olmuşlar. İranda Rusiyanın səlahiyyətli səfiri olan yazıçı A.S.Qriboyedovun köməyi ilə ermənilərin Ermənistana köçürülməsi nəticəsində milli tərkib dəyişilmişdir. 1828-ci ildə İrəvanda azərbaycanlılar - 1807 ailə, 7331 nəfər; ermənilər - 567 ailə, 2379 nəfərdən artıb 4132 nəfər olmuşdur. Burada 4 xan, 41 bəy və sultan-azərbaycanlı ailəsi, 8 məlik və ağa-erməni ailəsi, 50 axund və molla, 13 keşiş yaşamışdır.

1828-1840-cı illərdə Ermənistan vilayətinin mərkəzi, sonra qəza şəhəri, 1849-cu ildən isə quberniya mərkəzi olan İrəvanın ictimai-siyasi həyatında yeni mərhələ, rus şovinizminin əsarəti mərhələsi başlasa da, dini fanatizm feodal dünyagörüşlü əhalinin mənəvi aləminə güclü təsirini saxlayırdı. Buna baxmayaraq Azərbaycanın ümumi inkişaf aləmi ilə həmahəng öz kökünə sıx bağlı olan İrəvan əhalisi arasında "zülmət aləmində işıq" olan ziyalılar yetişirdi. Onların üzərinə məsuliyyətli və son dərəcə böyük cəsarət tələb edən vəzifə düşürdü: xalqı cəhalət və dini fanatizm girdabından xilas etmək üçün maarifi, mədəniyyəti yaymaq, xalqın gözünü açmaq. Bu, dövrün, zamanın tələbi idi.

Mirzə Qədim İrəvani, İsa Sultan, Əbülfət və Məhəmməd Şahtaxtinski, Fazil İrəvani, Firudin bəy Köçərli, Əliqulu xan İrəvanski, Cəlil Məmmədquluzadə, Eynəlibəy Sultanov, Mirzə Qəmərlinski, Haşım bəy Nərimanbəyov, Mirzə Ələkbər Mirzəzadə, Cabbar Əsgərzadə, Mir Məhəmməd Fətullayev kimi onlarla fədailər İrəvanda maarif və mədəniyyətin yayılması yolunda hər cür təkfir və təhqirlərə, məşəqqətlərə dözərək var qüvvələri ilə çalışırdılar.

XIX əsrin sonları XX əsrin əvvəllərində İrəvanda yeni məktəblərin açılması, dərslik və bədii əsərlərin nəşri, teatr həvəskarlarının tamaşaları, mətbuat milli mədəniyyətin və maarifin dirçəlməsinə zəmin yaratmışdı. İrəvanda mətbəə olmamasına görə maarifpərvər ziyalılar 1871-1898-ci illərdə yazdıqları dərslikləri, bədii əsərləri və xarici ölkə ədəbiyyatından etdikləri tərcümələri Təbriz, Tiflis, Baxçasaray şəhərlərində nəşr etdirirdilər. İrəvanda Azərbaycan dilində kitab nəşri XIX əsrin son illərinə təsadüf olunur. 1899-cu ildə müəllim Məhəmməd Vəli Qəmərli “Atalar sözü” kitabını, 1904-cü ildə yazıçı Eynəlibəy Sultanov “Tatarka” (iki pərdə, on gəlişdən ibarət kiçik pyes) kitabçasını İrəvanda doğma dildə nəşr etdirmişdir.

Təəssüf hissi ilə demək lazımdır ki, qədim tarixə malik olan Ermənistan azərbaycanlılarının zəngin mübarizə tarixi, maddi mədəniyyət abidələri, incəsənəti, bədii yaradıcılığı, qayaüstü yazı və rəsmləri, etnoqrafiyası və s. öyrənilməmişdir. Ona görə də ayrı-ayrı sahələrdə çalışan ömrünü məşələ çevirib doğma xalqın gələcəyi uğrunda mübarizə aparan fədailərin ictimai fəaliyyəti unudulmuşdur. İrəvan ziyalıları tarixən zamanın sərt üzü ilə dönə-dönə qarşılaşmış, müsibətlərə düçar olmuşlar. İrəvanda, eləcə də Ermənistanda öz doğma ata-baba yurdlarında azərbaycanlılar uzun müddət məsud, firavan yaşamamışlar. Erməni millətçiləri əsrin əvvəllərindən azərbaycanlıları Ermənistan ərazisindən çıxarmağa, soyqırım siyasətini ardıcıl surətdə həyata keçirməyə can atmışlar: 1905-ci il; 1918-1920-ci illər; 1948-1953-cü illər azərbaycanlıların taleyində faciəli illər olmuşdur. Ağır itkilərə, talanlara, soyqırıma məruz qalan azərbaycanlılar ata-baba ocaqlarını tərk etməli olmuş, bir müddətdən sonra yenə Ermənistana tarixi torpaqlarına qayıtmışlar. Lakin 1988-ci il daha ağır, faciəli, dözülməz olmuşdur. 70 il ölkə xalqlarını qardaşlıq və dostluq nağılı ilə bihuş edən, sehrləyən, dünyada sülh və əmin-amanlıq libasına bürüniüş rus imperiyasının, erməni lobbisinin muzdlu nökəri M.Qorbaçovun qayğısına arxalanan erməni millətçiləri ictimai-siyasi şəraitdən sui-istifadə edərək “türksüz Ermənistan”

bədnam siyasətini həyata keçirdilər. Eyni zamanda Dağlıq Qarabağ problemini ortaya atmaqla, rus silahlı qüvvələrinin köməyi ilə Azərbaycan ərazisinin iyirmi faizini işğal etdilər, şəhidlərimiz oldu, kəndlər, qəsəbələr yerlə-yeksan edildi, bir milyondan çox insan yurdsuz-yuvasız qaldı, doğma ocaqlarından qaçqın düşdü. Çox çəkməz ki, bu ümumxalq müsibətinə son qoyulacaq, çox çəkməz ki, qaçqın soydaşlarımız öz doğma yurdlarına qayıdacaqlar.

Görkəmli alim Əsgər Zeynalovun "İrəvan xanlığı... gerçəkliyin aydınlığı" kitabı sələflərinin işni öz əməllərində şərəflə yaşadan ziyalılar pleyadasının salnaməsidir. Bu kitab ürəyində vətən nisgili, sönməz vətən məhəbbəti olan hər bir kəsin stolüstü kitabı olacaqdır. Əsgər Zeynalov qələm sahiblərinin həsəd aparacaqları bir işi - öz həmvətənləri olan ən görkəmli xadimlərin həyat tarixçəsinin oçerklər toplusunu yaratmışdır. Onun 15 illik əzab-əziyyət, çətinlik və axtarış dolu zəhməti bəhrə vermişdir. Əsgər Zeynalov onu bu şərəfli işə sövq edən səbəbi belə izah edir: "Qəlbimdə olan yurd yanğısı 1988-ci il hadisələrindən sonra sürətlə cücərməyə başladı və uzun axtarışların nəticəsi olaraq "İrəvan xanlığı... gerçəkliyin aydınlığı" kitabı yarandı".

Bəli, yurd yanğısı böyük güc mənbəyidir. Bu gün doğma ocaqlarından didərgin düşən yüz minlərlə insanların qəlbində baş qaldıran yurd yanğısı yaxın gələcəkdə qarşısıalınmaz bir qüvvəyə çevriləcək, həsrətini çəkdiyimiz doğma ata-baba yurdundan millətçi erməni törəmələrinin qovulmasında həlledici amil olacaqdır.

**Teymur Əhmədov**
*filologiya elmləri doktoru, professor*

## BİR NEÇƏ SÖZ

Təxminən 1983-cü il idi... Bir dəfə mərhum professor Mirəli Seyidovdan soruşdum:“Nə üçün İrəvan xanlığının tarixi öyrənilmir? Axı heç olmasa, burada bir namizədlik və bir doktorluq dissertasiyası var”.

Mirəli müəllim adəti üzrə əlini başına çəkib ağır-ağır çavab verdi: “Birincisi, şübhəsiz, yuxarılar buna icazə verməz. İkincisi, İrəvan xanlığının tarixini yazmaq üçün bir neçə dili öyrənəndən sonra qolu çırmalayıb işə başlamaq olar”. Sonralar İrəvan xanlığının tarixi ilə az-çox yaxından bələd olandan sonra burada bir neçə namizədlik və doktorluq mövzusunun “xammal” kimi qaldığı bəlli oldu.Qəlbimdə olan yurd yanğısı 1988-ci il hadisələrindən sonra sürətlə cücərməyə başladı və uzun axtarışların nəticəsi olaraq “İrəvan xanlığı... gerçəkliyin aydınlığı” kitabı yarandı.

Təxminən 200 il müddətində ayrı-ayrı mərhələlərlə azərbaycanlılar o yerlərdən hissə-hissə çıxarıldı, qovuldu. Bu kitabı iki dəfə - 1950 və 1988-ci illərdə öz hənirtili, isti, dədə-baba ocaqlarını məcburi surətdə tərk etmiş atam Məhəmmədin, anam Siddiqənin və onların simasında zaman-zaman İrəvan, Zəngibasar (Uluxanlı), Vedibasar, Göyçə, Zəngəzur, Dərələyəz mahallarından köçkün, qaçqın düşmüş yüz minlərlə yurddaşlarımın - hazırda torpaq həsrətilə müxtəlif yerlərdə yaşayan, habelə, istər o yerlərdə, istərsə sonradan məskunlaşdığı ərazilərdə dünyasını dəyişmiş insanların əziz xatirəsinə ithaf etmişəm.

Atam İrəvan yaxınlığındakı Zəngibasar mahalının Yuxarı Necili kəndindən, anam isə Aşağı Necili kəndindən idi. Soykökü ilə o torpaqlardan idilər. İndi bir-biri ilə üzbəüz qonşu olan nə Yuxarı Necili, nə də Aşağı Necili kəndləri bizimdir. Qəlbimizdə bir həsrət, bir inam var - yurd həsrəti, yurda qayıtmaq inamı.

Biz yenidən bu mövzuya qayıtmaq niyyətindəyik - bu kitaba düşməyən Makinskilərə, Təkinskilərə, Qəmərlinskilərə, Şeyxülislamovlara, Sultanovlara və adlarını bilib-bilmədiyimiz digər ziyalı nəsillərə. Evlərində o torpaqlara aid tarixi sənədlər, materiallar, öz nəsilləri ilə bağlı, İrəvan gimnaziyası, müəllimlər seminariyası, pansionatı ilə bağlı şəkillər, məlumatlar olan yurddaşlardan onları bizə təqdim etməyi (əlbəttə, surətini çıxarıb geri qaytarmaq şərtilə)

xahiş edirik. Belə bir arzu, istək, fikirdə olanlar aşağıdakı ünvanlara müraciət edə bilərlər: **Azərbaycan Dillər Universiteti, Tələbə Elmi Cəmiyyəti.**

# MƏNƏVİ BORC

1988-ci ilin sentyabr ayının biri idi. Zəngibasarın geniş küçəsi ilə gedirdim. Təhsil aldığım, ulu Mirzə Cəlilin dərs dediyi Uluxanlı kənd orta məktəbinin qapılarını bağlı görəndə, içimdə bir yanğılı narahatçılıq başladı. 1881-ci ildən fəaliyyət göstərən, nə qədər tanınmış ziyalı yetirən, ətraf kəndlərin maariflənməsində, ziyalı potensialının inkişafında müstəsna rol oynamış Uluxanlı (Zəngibasar) məktəbi indi bağlı qalmışdı. Hanı o gördüyüm səs-küylü, şən qəhqəhəli məktəb?

Doğrudanmı ata-babalarımızın yurd-yuvasını tərk edirik? O yerləri tərk etməmişdən bir az əvvəl Uluxanlı məktəbi ilə bağlı bir məqalə yazmağa başladım və Bakıda onu tamamladım. Sonralar “Bir məktəbin ölümü” adı altında məqaləni dərc etdirdim. Bu, dədə-baba yurdlarımızla bağlı ilk yazım idi...

Doğma Yuxarı Necili kənd orta məktəbində işləyərkən yaşlı müəllimlərin dilindən tez-tez bu sözləri eşidərdim: “İrəvanda Mirzə Hüseyn Ağa adında bir alim yaşayırdı. Çox təəssüflər ki, onun bir səhifə də olsun əsəri qalmamışdı”.

1989-cu ildə bir məclisdə mərhum Mirəli Seyidov ədəbiyyat müəllimim olmuş Qadir müəllimlə Mirzə Hüseyn Ağa haqqında söhbət edərkən məlum oldu ki, şərqşünas alimin qızı Mərziyyə müəllimə Zəhmət kəndində yaşayırdı. Bu söhbətdən sonra gərgin axtarışlara başlayıb, Mirzə Hüseyn Ağa haqqında məqalə yazıb, “Vətən səsi” qəzetinin 1991-ci il 4 iyul tarixli nömrəsində dərc etdirdim. Bu məqalə İrəvan ziyalıları axtarışlarına gedən yolun başlanğıcı idi. Xatırlatmaq lazım gəlir ki, professor Mirəli Seyidovla bərabər elmi rəhbərim olmuş professor Teymur Əhmədov o zaman “Vətən səsi” qəzetinin baş redaktoru idi. “Mirzə Hüseyn Ağa” məqaləsinin yuxarısından Teymur müəllim “İrəvan ziyalıları” adlı rubrika qoymuşdu. Bundan sonra onun göstərdiyi istiqamətlə bir sıra ziyalılarla görüşüb, materiallar toplayıb məqalələr yazdım. Bir sözlə, bu kitabının ərsəyə gəlməsində professor Teymur Əhmədovun xidməti danılmazdır. Bu kitab məhz onun təşəbbüsü ilə işıq özü görmüşdür.

“Mirzə Hüseyn Ağa” məqaləsindən sonra İrəvan ziyalıları silsilə məqalələrim müntəzəm olaraq “Novruz”, “Yeni fikir”, “Vətən

həsrəti”, “Sərbəst düşüncə”, “Yeni səda”, “Respublika”, “Ağrıdağ”, “Xalq”, “Avrasiya” və “Panorama” sonralar “Vedibasar” qəzetlərində nəşr olundu. “İrəvan xanlığı... gerçəkliyin aydınlığı” mənim mənəvi borcumdur.

O torpaq ki, orada bizim dədə-babalarımız yaşamış, özüm də orada dünyaya göz açıb böyümüşəm.

Bir də “vaxtilə azərbaycanlıların nökərləri” kimi bu ərazilərə gəlib məskunlaşmış indiki “qondarma yerli məxluqa” demək istəmişəm: Bura bizim uluların-türklərin əski torpaqlarıdır. Nə vaxtsa siz bu ərazini tərk edəcəksiniz.

Öz soydaşlarıma isə: “O torpaqları unutmaq olmaz, biz o yerlərə qayıtmalıyıq!” - demək istəmişəm.

Onsuz da ürəyində “atəşi-vətən” olan hər bir kəs bu barədə daim narahatdır. Ancaq yenə də...

İrəvan ziyalıları axtarışı zamanı həmişə “hərarətlə” qarşılanma olmayıb, dəfələrlə soyuq “reaksiyalarla” da üzləşməli olmuşuq. Ancaq qarşıya qoyulan məqsədin yolunda bunlar adi bir hal idi.

İrəvan ziyalıları... Bunları əhatə etmək mümkündürmü? 1996-cı il noyabr ayında Respublika Sarayında keçirilən Füzulinin 500 illik yubileyində Türkiyədəki Azərbaycanlı diasporasının başçısı Yəhya Taşdələnlə aramızda olan söhbəti xatırlayıram. Mən ona “İrəvan ziyalıları” kitabı üzərində işlədiyimi, sonra Qərbi Azərbaycanda (indiki qondarma Ermənistan adlanan ərazi), imkan daxilində əcnəbi ölkələrdə yaşayan Qərbi Azərbaycan ziyalıları barədə material toplamaq fikrində olduğumu söylədim. Sonra soruşdum ki, orada da İrəvandan köç edib yetişmiş ziyalılar varmı, məsələn Topçubaşov kimi.

O cavab verdi ki, öncə, Qərbi Azərbaycan ziyalılarının hamısı haqqında yazmaq zor işdi, buna bir ömür yetməz. İkincisi, Türkiyədə yaşayan 3 milyondan artıq azərbaycanlının təxminən 95 faizi o torpaqlardandır. Orada elmin, mədəniyyətin, müxtəlif sahələri üzrə tanınmış adamlar vardır - ancaq Topçubaşov kimisi yoxdur.

Qaçqınlıq İrəvan, ümumiyyətlə, sonralar qondarma Ermənistan adlandırılan Qərbi Azərbaycan türkləri üçün böyük bir bəla olmuşdur. Təxmini hesablamalara görə Şərqi Azərbaycanda 3 milyondan artıq Ermənistan mənşəli azərbaycanlı yaşayır. Həmin torpaqlardan olan ziyalıların əksəriyyəti bu qaçqınlıq mərhələsini keçmişlər - Fars Abbas da, C.Məmmədzadə də, M.Topçubaşov da, Ə.Əliyev də,

H.Seyidov da, H.Seyidzadə də, B.Seyidzadə də, Ə.Cəmil də, C.Xəndan da, S.Rüstəmov da və bir çox başqaları da.

Demək lazımdır ki, böyük şair M.Arazın, tanınmış alim, professor F.Hüseynovun, görkəmli kinorejissor Ş.Mahmudbəyovun, respublika Akademiyasının müxbir üzvü, BDU-nun keçmiş rektoru, professor Y.Məmmədovun, xalq yazıçısı İsa Hüseynovun, AMEA-nın müxbir üzvü Nizami Cəfərovun, tanınmış tərcüməçi Sabir Mustafanın və bir çox görkəmli ziyalıların valideynləri də 1918-1920-ci illərdə o torpaqları məcburi surətdə tərk etmişdilər.

İrəvan ziyalılarından danışarkən bir cəhəti xüsusi qeyd etmək lazım gəlir. Bəzən bir ziyalı barəsində günlərlə, aylarla axtarışda olursan, 1000-1500 km yol gedirsən, ancaq nəticəsiz qalır, lazımi adamları tapa bilmirsən. Məsələn: akademik Əhməd Rəcəbli barəsində məlumat toplamaq istəyirdik. Onun yeganə qızı tibb elmləri namizədi Xalidə xanımın Kanadaya oğlunun yanına getdiyini öyrənəndə axtarışı dayandırmalı olduq. Çünki orijinal mənbələrdən istifadə etmək fikrində idik. İrəvan torpağının güclü ziyalılarından olan Ə.Rəcəbli barəsində bir-iki məqalə oxumuşduq. ASE-nin VIII cildində 141-ci səhifədə də onun haqqında məlumat verilmişdir. Ə.Rəcəbli 1898-ci ildə anadan olmuş, İrəvan gimnaziyasını bitirmiş, təhsilini İtaliyanın Peruca şəhərində almışdı. O, Azərbaycan Musavat hökumətinin xaricə oxumağa göndərdiyi 100 tələbədən biri idi. Vətənə qayıdan Ə.Rəcəbli 1930-1945-ci illərdə Zaqatala kənd təsərrüfatı texnikumunun direktoru, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun kafedra müdiri, 1945-ci ildən ömrünün axırınadək Azərbaycan Elmi-Tədqiqat Bağçılıq Meyvəçilik və Subtropik Bitkilər İnstitutunda şöbə müdiri işləmişdir. Bir çox elmi əsərlərin müəllifi Ə.Rəcəblinin bir sıra yeni meyvə növlərinin yaranmasında mühüm xidmətləri vardır.

Neçə-neçə ziyalılarımız sağlıqlarında unudulmuşdur. Yaşı səksəni ötmüş Züleyxa Əliyeva 1939-1941-ci illərdə "Azərbaycan qadını" jurnalının baş redaktoru olmuş, bir neçə dram əsərinin müəllifidir. Onun dram əsərləri C.Cabbarlı adına Gəncə dram teatrında tamaşaya qoyulmuşdur. Uşaqlıqda qaçqınlığın acısını dadmış, sonralar müxtəlif vəzifələrdə çalışmış bu ziyalı indi yada düşmür - hətta "Azərbaycan qadını" jurnalının yubileylərində də.

İrəvan ziyalılarının elə nümayəndələri var ki, onların hər biri haqqında bir və ya bir neçə monoqrafiya yazmaq olar. Ancaq biz

onların hər biri haqqında bir məqalə daxilində yazmaq, ilk cığır açmaq istəmişik.

Azərbaycanda elmin, mədəniyyətin bir çox sahələrində ilk izlər İrəvan ziyalılarının adları ilə bağlıdır; kənd təsərrüfatı üzrə ilk elmlər namizədi Həsən Seyidov, təkcə respublikada deyil, dünyada anilgeziyanın banisi M.Topçubaşov, ilk rəngli kinonu yaradan H.Seyidzadə, ilk "Ədəbiyyat nəzəriyyəsi"ni yazan C.Xəndan və s.

"İrəvan xanlığı... gerçəkliyin aydınlığı" monoqrafiyası gələcəkdə görüləcək işlərin başlanğıcıdır. Şübhəsiz ki, bu sahədə işlər davam etdiriləcəkdir.

Kitabın yazılmasında bizə kömək göstərmiş, məlumatlar vermiş bütün şəxslərə (əlbəttə, hamısının adı çəkilsə böyük bir siyahı alınar), Azərbaycan Tarix Muzeyinin, Respublika Mərkəzi Arxiv İdarəsinin, Elm-Texnika-Səhiyyə arxivinin, Azərbaycan İqtisadiyyat İnstitutunun Dövlət Muzeyinin, Azərbaycan Mədəniyyət Nazirliyinin, AzərTAC-ın əməkdaşlarına, Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyi elmi-axtarış fondunun əməkdaşlarına, haqqında yazılmış ziyalıların övladlarına, qohumlarına öz dərin təşəkkürümüzü bildiririk.

# KÖZƏRƏN OCAĞIN İŞIQLARI VƏ YA TARİXDƏ İZ QOYMUŞ XANLIQ

Xəyal məni hər gün hər qarışına bələd olduğum İrəvana aparır. İndi o yerləri hər gün həsrət dolu kövrəkliklə xatırlayıram. Yuxudan ayılarkən ilk qarşılaşdığım həmişə görməyə adət etdiyim, pəncərəmizdən aydın görünən başı qarlı əzəmətli Ağrı dağı idi. Belə rəvayət edirlər ki, əvvəllər Çuxur-Səd adlanan bu yer Şah İsmayıl Xətainin sərkərdəsi Rəvanqulu xanın şərəfinə İrəvan adlanmışdı.

Bəzən elə fikirləşirəm ki, bu şəhərin həsrətini hamıdan çox mən çəkirəm. İrəvanla bağlı silsilə məqalələr yazmışam. Ancaq elə bil heç nə yazılmayıb, deyilməyib. Hər şey yenidən başlanmalıdır. Buna görə daim bir narahatçılıq keçir içimdən. Hərdən öz-özümə sual verirəm: "İrəvanla məni bu qədər sıx bağlayan nədir?" Bu mənəvi bağlar çox olsa da, üçünü xüsusi qeyd etmək istəyirəm.

Birincisi - gözümü dünyaya İrəvan yaxınlığındakı Zəngibasar mahalının Yuxarı Necili kəndində açmışam. Pəncərəmizdən İrəvan çox gözəl, aydın görünürdü - şəhərin iki tərəfindən başı göylərdən nəm çəkən Ağrı dağı və Alagöz dağı da onun kimi.

İkincisi, elmi işlə əlaqədar İrəvana son 10 ildə tez-tez getməli oldum - təxminən həftədə 3-4 dəfə. Sanki bir azdan görmək qeyri-mümkün olacaqmış, bəlkə ona görə...

Üçüncüsü, nənəm-atamın anası İrəvandan idi, şəhər qızıydı - Gedərçay məhəlləsindən.

Hələ vaxtıyla yaşlı nəsillə etdiyim söhbətlər, qaynaqlarda apardığım axtarışlar İrəvanı tipik müsəlman şəhəri kimi xəyalımda canlandırmışdı.



***Köhnə İrəvan***

Axtarış zamanı XIX əsrdə İrəvanda erməni əlifbası ilə yazıya alınmış bu şəhərlə bağlı bayatılara təsadüf etmişdik:

*İrəvanı ağ eylərəm*
*Dörd yanın bağ eylərəm.*
*Eşitsəm yarım gəlir*
*Sudan çırağ eylərəm.*

Birinci bayatıda sonralar "İrəvan" sözü götürülmüş, tamamilə başqa misra ilə əvəz edilmişdir: "Bu bağı bağ eylərəm". Bəllidir ki, bu bayatı "Bülbüllər" xalq mahnısının əsasını təşkil edir. Tale elə gətirmişdir ki, İrəvan öz qoynunda yaratdığı bayatıda imzasını sakinlərindən tez itirmişdi.

Sonralar yaşlı nəslin dilindən də İrəvanla bağlı bayatılara rast gəldik:

*Corabın ağına bax,*
*Dəstələ bağına bax.*
*Mən yadına düşəndə*
*İrəvan dağına bax.*

*Təpəbaşında çaşır,*
*Çaşır necə qarışır.*

*Bu zəhirmar bilərzik.*
*Əllərimə dolaşır.*

Təpəbaşı İrəvanda məhəllələrdən birinin adı idi.

Görkəmli ədəbiyyatşünas Firudin bəy Köçərli İrəvan şəhəri haqqında yazırdı: "İrəvan qədim şəhərlərdən biri hesab olunur. Bu şəhərin binasına təmiratı Zəngi adlanan çayın sol kənarında vaqe olublar. Şəhərin bir hisəssi Zəngi çayının kənarında ucalmış təpə üstündə, digər bir hissəsi çuxura düşübdür. Şimali-Qərb və Şimali-Şərq tərəflərdən şəhər əhatə olunubdur uca təpələr ilə, amma cənub və qərbi-cənub tərəfləri açıq və düzən yerlərdir ki, onda gözəl bağ, bağça və mənzərələr vardır...

İrəvan şəhərindən cənub və qərbi-şimal tərəfə baxdıqda göz önündə qəribə bir mənzərə açılır. Cənub səmtində bir cüt piramid şəklində gözəl, başı qarlı dağlar - Ağrı dağları göy səmtinə tərəf gərdənkeş olub, buluddan başlarına əmmamə sarıyıblar, guya səbani-hal ilə xəlayiqi-asiman təpəsi həmişə qar ilə örtülü olur, amma Balaca ağrının başı yaz fəslində qardan xilas olub, onun üstündə ağaclar və hər qism çiçəklər və ələfiyyat bitib göyərir." (Firudin bəy Köçərli, Azərbaycan ədəbiyyatı, Bakı, "Elm" 1981)

İrəvanın bir tərəfindən Ağrı dağı, digər tərəfindən Alagöz dağı görünərdi.

Görkəmli alimin fikrini təsdiq edən bir sözü tez-tez yaşlı nəslin dilindən eşidərdim: "İrəvan bağlar şəhəri idi". Bağların hamısı adla çağrılardı - Dərə bağları, Dəlmə bağları, Güllü bağ, Yoncalı bağ, Şəmistan bağları, Sərdar bağı, Xan bağı. Üzümün neçə-neçə növü vardı. Misqalı, Yeznə dayı, Keçiməməsi, Kişmişi, Əsgəri, Xərci, Top xərci, Sabahi, Haçabaşı və s.

İrəvan gimnaziyasında təhsil almış, görkəmli ədəbiyyatşünas Əziz Şərif isə tələbəlik illərindən danışarkən orada yetişən şaftalıdan ağız dolusu söhbət açır. El arasında deyərdilər: "Şaftalının biri bir boşqab böyüklükdədir."Sonralar İrəvanı Yerevana çevirdilər. Az qala izi-tozu da qalmadı. Hanı Təpəbaşı, Toxmaxgöl, Şəhər, Qırmızı, Dəmirbulaq, Gedərçay məhəllələri? Bəs başı göylərə ucalan minarəli məscidlər - Göy məscid, Novruzəli məscidi, Günnüklü məscid, Hüseynəli məscidi, Qala məscidi, Hacı bəyim məscidi, Şəhər məscidi, Zal xan məscidi?.. İrəvan tipik müsəlman şəhəri idi. "Kavkazski kalendar"ın 1894-cü il tarixli nəşrində qeyd edilir ki, İrəvanda 8

məscid fəaliyyət göstərirdi. İrəvan ziyalıları həmişə Göy məscidə yığışar, elmi söhbətlər edər, şeirlər deyərdilər.

Tarixi faktlar təsdiq edir ki, İrəvanı həmişə azərbaycanlılar idarə etmişlər.

Ermənistan Sovet Ensiklopediyasının 571-ci səhifəsində göstərilir ki, XIV əsrin sonlarından 1828-ci ilə kimi İrəvanı azərbaycanlılar idarə etmişlər. Həmin səhifədə İrəvanı idarə edənlərin adları xronoloji ardıcıllıqla göstərilmişdir. Həmin səhifəni təqdim edirik:

1. Əmir Səid (XIV əsrin sonu – 1410)
2. Pir Hüseyn (Əmir Səidin oğlu), Pir Qaib (Pir Hüseynin oğlu – 1410-1420)
3. Əbdül (Pir Hüseynin oğlu – 1430)
4. Yaqub bəy (1440)
5. Həsən Əli Qaraqoyunlu (1460)
6. Div Sultan Rumlu (1515)
7. Hüseyncan Sultan Rumlu (1550)
8. Şahşulusultan Rumlu (1550-1575)
9. Məhəmməd xan Toxmax Ustaclı (1576-1583)
10. Xıdır Paşa (1583)
11. Məhəmməd Şərif Paşa (1604)
12. Əmir-Quna xan Qacar (1605-1625)
13. Təhməz Qulu xan Qacar (1625-1635)
14. Kəlbəli xan (1636-1639)
15. Caqaba Kötük Məhəmməd xan (1639-1648)
16. Keyxosrov xan (1648-1657)
17. Məhəmməd xan (1652-1656)
18. Nəcəfqulu xan (1656-1663)
19. Abbasqulu xan Qacar (1663-1666)
20. Səfiqulu xan (1666-1674)
21. Sərxan bəy (1674-1675)
22. Səfiqulu xan (1675-1679)
23. Zal xan (1679-1688)
24. Murtuzqulu xan (1688-1691)
25. Məhəmmədqulu xan (1691-1694)
26. Fərzəli xan Qacar (1694-1700)
27. Zöhrab xan (1700-1705)
28. Əbdül Məhəmməd xan (1705-1709)
29. Mehrəli xan (1709-1719)

30. Allahqulu xan (1719-1725)
31. Rəcəb Paşa (1725-1728)
32. İbrahim Paşa və Mustafa Paşa (1728-1734)
33. Əli Paşa dəftərdar (1734)
34. Məhəmmədqulu xan (1735-1736)
35. Hacı Hüseyn Paşa (1735)
36. Pirəhməd xan (1736)
37. Xəlil xan Özbək (1752-1755)
38. Həsənəli xan Qacar (1755-1762)
39. Hüseynəli xan Qacar (1762-1783)
40. Qulaməli xan Qacar (1783-1784)
41. Məhəmməd xan Qacar (1784-1805)
42. Mehdiqulu xan Qacar (1805-1806)
43. Əhməd xan Marağalı (1806-1807)
44. Hüseyn xan Qacar (1807-1827)

XIX əsrin əvvəllərində İrəvan xanlığı 15 mahaldan ibarət idi: Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçanis, Saadlı, Talin, Seidli-Axsaxqlı, Sərdarabad, Körpübasar, Abaran, Dərəçiçək, Göyçə.

AMEA-nın müxbir üzvü, professorYaqub Mahmudovun bir neçə həmkarı ilə birlikdə yazdığı "İrəvan xanlığı" kitabının 157-ci səhifəsində İrəvan xanlığının mahalları və onların mərkəzlərinin siyahısı verilimişdir.Həmin siyahını təqdim edirik:

| | Mahalların adı | Mahalların mərkəzi |
|---|---|---|
| | Qırxbulaq | Kənərkin |
| | Zəngibasar | Uluxanlı |
| | Gərnibasar | Qəmərli |
| | Vedibasar | Dəvəli |
| | Şərur | Əngicə |
| | Sürməli | İğdır |
| | Dərəkənd-Perçenis | Goğb (Qulp) |
| | Səədli | Xeyribəyli |
| | Talin | Talin |
| 0 | Seyidli-Axsaxlı (Səidli) | Uşi (Üşü) |
| 1 | Sərdarabad | Sərdarabad |
| | Qərbibasar (Körpübasar) | Əştərək |

| | | |
|---|---|---|
| 2 | | |
| 3 | Abaran | Baş Abaran |
| 4 | Dərəçiçək | Dərəçiçək |
| 5 | Göyçə | Kəvər |

"İrəvan xanlığı" kitabında qeyd olunduğu kimi, XVIII əsrin ikinci yarısında İrəvan şəhəri Azərbaycanın ən iri şəhərlərindən və mədəniyyət mərkəzlərindən biri idi.Xan öz ailəsi və xidmətçiləri ilə birlikdə burada yaşayırdı.

İrəvan xanlığı ərazisində bir sıra adlara XI əsrin məşhur alimi Mahmud Kaşğarinin "Lüğəbit-divani-türk" əsərində də rast gəlmək olur. Məsələ: Gərnibasar mahalındakı Yuva, Bayburd, Qaraqoyunlu, Muğanlı kəndləri, Verdibasar mahalında Əfşar, Abaran mahalındakı Bayandur, Bayat kəndləri. Bəs aşıq sənətinin sələfi ozanın bu günə şatmış izi – Qırxbulaq mahalındakı Ozanlar kəndi?

Təkcə əsas mərkəz olan İrəvanda deyil, mahallarda da yüksək mədəniyyət inkişaf etmişdi.Sazlı-sözlü Göyçə mahalı Azərbaycan aşıq sənətinin ən güclü, əsas mərkəzlərindən biri olmuşdur. Təkcə XVIII-XIX əsrlərdə nə qədər böyük sənətkarlar yetişmişdir: Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Əsəd, Aşıq Qurban, Aşıq Musa, Aşıq Qasım, Aşıq Sayad, Aşıq İmran, Aşıq Məhərrəm və bir çox aşıqlar Göyçədə dünyaya göz açıb, buradan pərvazlanmışlar.İrəvan xanlığı mahallarındakı bir sıra tarixi abidələr də həmin ərazilərdə mədəniyyətin yüksək səviyyədə inkişafını əyani surətdə təsdiq edir.

İrəvanın ən möhtəşəm abidələrindən biri İrəvan qalası olmuşdur. İrəvan qalası 1581-1583-cu illərdə Məhəmməd xan Toxmax Ustaclının (1576-1583) dövründə inşa edilmiş və şəhərin müdafiəsində çox mühüm rol oynamışdır.



***1 oktyabr 1827-ci il. İrəvan qalasının***

Qalanın böyük bir hissəsi 1827-ci ildə rus ordusunun hücumu zamanı dağılmış, az bir qismi bizim günlərimizə qədər qalmışdır.

İrəvan xanlığı işğal olunana qədər neçə-neçə rus generalı istefaya getdi. Bəli, Paskeviçin komandanlığı altında 1828-ci il 10 fevral tarixli Türkmənçay müqaviləsindən sonra Azərbaycan iki hissəyə bölündü – Şimali və Cənubi Azərbaycana.

1828-ci ildə İrəvan xanlığı ərazisində 81749 azərbycanlı və 25131 erməni yaşayırdı. Ancaq İrəvanın özündə həmin dövrdə 1807 ailə, 7731 azərbaycanlı və 567 ailə, 2369 erməni yaşayırdı. Bu onu göstərir ki, əhalinin 80%-ni azərbaycanlılar təşkil edirdi.

1828-ci ildən sonra 40 min erməni Irandan və 60 min isə Türkiyədən İrəvan xanlığı ərazisinə köçürüldü. Get-gedə ermənilərin sayı artırıldı və qədim Azərbaycan torpaqları ərazisində erməni dövləti yaradıldı.

1828-ci ildə İrəvan xanlığı süquta uğradıqdan sonra qədim İrəvan dövrün ab-havasına uyğun inkişaf etməyə başladı. Şəhərdə dəyişikliklər olsa da, bunlardan ikisini xüsusi qeyd etmək lazımdır: "İrəvan gimnaziyası" və " İrəvan Müəllimlər Seminariyası".

1881-ci ildə İrəvan Gimnaziyası və Müəllimlər seminariyasının açılması elmin geniş inkişafı üçün yeni üfüqlər açdı.

1881-ci ildə azərbaycanlıların əski mədəni mərkəzlərindən biri olan İrəvan şəhərində İrəvan gimnaziyası və İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladı. Yeri gəlmişkən xatırlatmaq lazımdır ki, böyük Mirzə Cəlilin vaxtıyla dərs dediyi Uluxanlı məktəbinin əsası da həmin ildə qoyulmuşdur.

İrəvan gimnaziyasından söhbət düşəndə bəzi məsələlərə münasibət bildirmək lazım gəlir.

"Kavkazski kalendar" məcmuəsinin əksər nömrələrində vurğulanır ki, İrəvan gimnaziyası 1881-ci ildə yaradılmışdır. Ancaq tanınmış maarif xadimi Nurəddin İbrahimov 1970-ci ildə " Azərbaycan məktəbi" jurnalının 8-ci nömrəsində dərc etdirdiyi məqalədə İrəvan gimnaziyasının yaranmasının xeyli əvvəl olduğunu göstərir. Həmin məqalədə oxuyuruq: "İrəvan gimnaziyasında dərs demiş azərbaycanlı müəllimlərdən Molla Tağı Mahmud oğlu (1836-cı ildən 1856-cı llədək), Mirzə Molla Ələkbər Elxanov (1856-cı ildən 1885-ci ilədək), Firudin bəy Köçərli (1885-ci ildən 1895-ci ilədək) və başqalarının adına rast gəlirik."



***İrəvan gimnaziyasının binası. 1881.***

Doğurdanmı İrəvanda 1836-cı ildə gimnaziya mövcud idi, yaxud həqiqətənmi Mirzə Ələkbər Elxanov 1856-cı ildən 1885-ci ilə kimi İrəvan gimnaziyasında müəllim kimi fəaliyyət göstərmişdir?

Əsl maarif fədaisi Nurəddin İbrahimovun bu faktı haradan götürməsi ciddi maraq doğurur.

Görkəmli tədqiqatçı, akademik Hüseyn Əhmədovun "Azərbaycan məktəbi" jurnalının 1974-cü il 2-ci nömrəsindəki məqaləsi ilə N.İbrahimovun fikri müəyyən dərəcədə təkzib edilir. Bu məqalədə göstərilir ki, 1828-ci ildə Uluxanlıda anadan olan M.Ə.Elxanov İrəvan şəhərində baş məscid nəzdindəki ruhani məktəbini bitirib. Sonra rus dilini öyrənmiş, 1856-ci ildə Tiflis gimnaziyasında imtahan verərək Azərbaycan dili müəllimi adını almışdır. O, imtahan yolu ilə rəsmi müəllimlik hüququ alan ilk azərbaycanlıdır.

M.Ə.Elxanov 1856-cı ildən ömrünün sonunadək 1885-ci ilə kimi (30 ilə qədər) İrəvandakı dövlət məktəbində (əvvəlcə qəza məktəbində, sonra prigimnaziya və gimnaziyada) Azərbaycan dilindən dərs demişdir.

Bizcə, bu fikir həqiqətə daha uyğundur. Əvvəlcə qəza məktəbi, daha sonra gimnaziya yaradılmışdır. Molla Tağı Mahmud və Mirzə

Ələkbər Elxanov da ilk müəllimlik fəaliyyətlərinə məhz qəza məktəbində başlamışlar.

Burada ikinci bir məsələyə də diqqət yetirmək lazım gəlir. N.İbrahimov göstərir ki, Molla Tağı Mahmud, Mirzə Ələkbər Elxanovdan sonra Firudin bəy Köçərlinin (1885-1895) adına rast gəlinir. Bu bir tarixi həqiqətdir ki, Firudin bəy Köçərlinin işlədiyi gimnaziya təqdim olunarkən, həmin tədris ocağının yaranma tarixi də həmin qaynaqlarda qeyd olunur. Bu tarix 1881-ci ildir.

"Kavkazski kalendar" məcmuəsinin 1892-ci il 223-cü səhifəsində göstərilir ki, Firudin bəy Köçərli İrəvan gimnaziyasında Azərbayvan bölməsinin müdiri, eyni zamanda Azərbaycan dili müəllimi işləmişdir.

"Kavkazski kalendar"ın 1894-cü il məcmuəsində Firudin bəy Köçərlinin fəaliyyəti bir az da geniş şəkildə təqdim olunur. Belə ki, bu böyük maarif xadimi gimnaziyada həm müsəlman şöbəsinin müdiri, həm Azərbaycan dili müəllimi, həm də gimnaziyanın tərkibində pansionun müdiri olduğu göstərilir (s.247-248).

"Kavkazski kalendar"ın 1895-ci il nəşrində Firudin bəy Köçərlinin vəzifələrinin eynilə saxlandığı qeyd olunur: həm gimnaziyada müsəlman şöbəsinin müdiri, həm Azərbaycan dili müəllimi, həm də gimnaziyanın tərkibində pansionun müdiri. Bu, Firudin bəy Köçərlinin İrəvanda işlədiyi sonuncu il olur.

İstər bu illərdə, istərsə də sonrakı illərdə məcmuənin işıq üzü görmüş nömrələrində təkcə İrəvan gimnaziyası deyil, eləcə də İrəvan müəllimlər seminariyası və Uluxanlı məktəbindən, onların fəaliyyətindən söhbət açılarkən, onların yaranması xüsusilə vurğulanır.

Əldə olunan məlumatlar Köçərlinin İrəvanda həyatının çox dolğun keçdiyini təsdiq edir:"1885-ci ilin iyun ayında Köçərli İrəvan gimnaziyasına Azərbaycan dili və şəriət müəllimi təyin olunur. Pedaqoji işdə böyük müvəffəqiyyət göstərdiyi üçün o, demək olar ki, hər il mükafat alır, ona "kollejski sekretar", "titulyar sovetnik", "ştatski sovetnik" kimi rütbələr verilir.

İrəvan gimnaziyasında çalışdığı illərdə F.Köçərli maarif məsələlərinə dair məqalələr yazır, Zöhrabzadə ilə birlikdə "Təlimi-lisani-türki" adlı dərslik tərtib edir, "Təlimati-Sokrat" (1891) adlı fəlsəfi əsərin nəşrinə nail olur, həm də ədəbiyyata ciddi maraq göstərir, bədii tərcümə ilə məşğul olub. Puşkindən, Lermontovdan, Tolstoydan, Kolsovdan tərcümələr edir, tənqidi məqalələr yazır.

“Vətən dili” dərsliyinin müəllifi A.O.Çernyayevski 1894-cü ildə F.Köçərliyə göndərdiyi bir məktubda yazırdı: “Bənövşə”, “Çiçək” və “Dilənçi” adlı tərcümələriniz mənim kitabımın zinəti mənziləsində olacaqdır. Nəzmi yüngül, musiqili və ahənglidir, qafiyələri də öz yerindədir” (“Azərbaycan Ədəbiyyatı Tarixi”. Bakı, 1960, s.485).

F.Köçərli İrəvan ədəbi mühiti ilə bağlı çox tutarlı məqalələr yazmış və İrəvanda teatrın inkişafında da öz xidmətlərini göstərmişdir.

F.Köçərli İrəvan gimnaziyasında 10 illik fəaliyyətindən sonra 1895-ci ilin oktyabr ayında Qori seminariyası adı ilə tanınmış Zaqafqaziya müəllimlər seminariyasının tatar şöbəsinin Azərbaycan dili və şəriət müəllimi təyin edilir.

Sual oluna bilər: Bəs F.Köçərlidən sonra İrəvan gimnaziyasında onun fəaliyyətini kim davam etdirir?

Qaynaqların 1895-ci ildən sonrakı məlumatlarında bu sualın cavabı aydınlaşır.“Kavkazski kalendar” məcmuəsinin 1897, 1898, 1899, 1901, 1903, 1904 və 1905-ci il nömrələrində İrəvan gimnaziyasında İsmayıl bəy Şəfibəyov həm müsəlman şöbəsinin müdiri, həm Azərbaycan dili müəllimi, həm də gimnaziyanın nəzdində pansionun müdir müavini kimi fəaliyyət göstərir.Ancaq həmin məcmuənin 1906-cı il nəşrində Mirzə Məmməd Şeyxzadə İrəvan gimnaziyasında müsəlman şöbəsinin müdiri, İsmayıl Məmmədbəy oğlu Şəfibəyov həm Azərbaycan dili müəllimi, həm də pansionun müdir müavini kimi qeyd olunur.

“Kavkazski kalendar” məcmuəsinin 1907, 1909, 1911, 1912, 1913, 1914, 1915, 1916 və 1917-ci il tarixli nömrələrinin hamısında Şeyx Abu Səttar Kazımovun İrəvan gimnaziyasında müsəlman şöbəsinin müdiri, İsmayıl bəy Məmmədbəy oğlu Şəfibəyov isə bu təhsil ocağında həm Azərbaycan dili müəllimi, həm də pansionda müavin vəzifəsində çalışdığı bəlli olur.

Bəs İsmayılbəy Şəfibəyov kim idi? Əldə olunan məlumatlara görə İsmayıl Məmmədbəy oğlu Şəfibəyov 1859-cu ildə anadan olmuş, Qori Seminariyasında Cəlil Məmmədquluzadə ilə bir kursda təhsil almış və yuxarıda qeyd olunduğu kimi, 1895-ci ildə F.Köçərli Zaqafqaziya Müəllimlər Seminariyasına müəllim təyin olunandan sonra iyirmi üç il İrəvan gimnaziyasında fəaliyyət göstərmişdir.

İrəvan gimnaziyası fəaliyyət göstərdiyi 37 il ərzində neçə-neçə məzunlar yetirmişdir ki, onların əksəriyyəti bu möhtəşəm təhsil ocağını bitirdikdən sonra Rusiyanın, eləcə də Avropanın ən möhtəşəm

universitetlərində təhsillərini davam etdirib Azərbaycanın elmi-mədəni, ictimai-siyasi həyatında böyük şəxsiyyətlərə çevrilmişlər: 1918-ci ildə Şərqdə ilk demokrat respublika olan Azərbaycan Demokrat Respublikası yarandı. 1920-ci ilə qədər mövcud olan bu respublikanın iki naziri İrəvan gimnaziyasının məzunları olmuşlar. Bunlar Teymur bəy Makinski və Əkbər ağa Şeyxülislamovdur.

Teymur bəy Makinski 1774-cü ildə İrəvanda anadan olmuş, İrəvan gimnaziyasını bitirmiş, Moskva Dövlət Universitetinin hüquq fakültəsində təhsil almış, 1918-1919-cu illərdə Azərbaycan demokratik respublikasının əvvəlcə Ədliyyə Naziri, sonra isə hərbi tribunalın sədri təyin edilmişdi.

Əkbər ağa Şeyxülislamov 1892-ci ildə İrəvanda anadan olmuş, 1912-ci ildə İrəvan gimnaziyasını bitirmiş həmin il Peterburq Dəmir yolu institutunda təhsil almış, ZDFR-nın daxili işlər nazirin müavini, ADR-in Torpaq və Əmlak Naziri vəzifəsində çalışmış, 1919-cu il Paris Sülh konfransına nümayəndə heyətinin tərkibində yola düşmüş, bolşeviklər Bakını işğal etdikdən sonra vətənə qayıtmamış, 1961-ci ildə Parisdə vəfat etmiş və Bobini qəbiristanlığında dəfn olunmuşdur.

Dünya şöhrətli alim Mustafa bəy Topçubaşov, akademik Heydər Hüseynov, tanınmış dilçi Miryusif Mirbabayev (hər üçü Stalin mükafatı laureatı idi), akademik Əhməd Rəcəbli, görkəmli dövlət xadimləri Əziz Əliyev, Maqsud Məmmədov, Həsən Seyidov, Miribrahim Seyidov, bəstəkar Səid Rüstəmov və digər görkəmli şəxsiyyətlər İrəvan gimnaziyasının yetirmələri idi.

1876-cı ildə əsası qoyulmuş Qori Müəllimlər Seminariyasından iki il sonra 1881-ci ildə yaradılan İrəvan Müəllimlər Seminariyası da müsəlman şəhərinin həyatında mühüm hadisə oldu. 1881-ci ildə İrəvan mahalı üç yadda qalan hadisə - İrəvan gimnaziyası, İrəvan Müəllimlər Seminariyası və yeni tipli Uluxanlı məktəbinin yaradılması ilə əlamətdar idi.

1977-ci ildə İrəvanda nəşr olunmuş ensiklopediyanın III cildinin 580-cı səhifəsində aydın olur ki, Müəllimlər Seminariyası İrəvan şəhərində Daşlı küçədə yerləşən indiki Xalq Təsərrüfatı İnistitutunun binasında yerləşdirilmişdir. Seminariyada rus dili, riyaziyyat, tarix, həndəsə, coğrafiya, musiqi və digər fənlər tədris olunurdu.

İndi isə imkan daxilində İrəvan Müəllimlər Seminariyasının keçdiyi yola nəzər salaq.

"Kavkazski kalendar" məcmuəsinin 1886-cı il nömrəsində Məmməd Bağır Qazızadə İrəvan Müəllimlər Seminariyasında tatar

(Azərbaycan dili – Ə.Z.) müəllimi, Mirzə bağır Qazıyev isə 2-ci Raspord (müdir) kimi göstərilir. Güman etmək olar ki, bunlar qardaşdırlar.

"Kavkazski kalendar" məcmuəsinin 1892 və 1896-cı il nömrəsində Axund Məmməd Bəşir Qazızadə İrəvan Müəllimlər Seminariyasında həm müsəlman bölməsinin müdiri, həm də Azərbaycan dili müəllimi kimi təqdim olunur.



***İrəvan Müəllimlər Seminariyası***

Məcmuənin 1897-ci il nömrəsində isə qeyd olunur ki, Seminariyada həmin ildə 56 tələbə təhsi alırdı və bu dövrdə İrəvan Müəllimlər Seminariyasında Məmməd Bəşir Qazızadə müsəlman şöbəsinin müdiri, Ələsgər Hacı Məmmədəli oğlu Kərimov Azərbaycan dili müəllimi vəzifəsində çalışırdı.

"Kavkazski kalendar" məcmuəsinin müxtəlif nömrələrindən bəlli olur ki, İrəvan gimnaziyasından fərqli olaraq İrəvan Müəllimlər Seminariyasında Azərbaycan dili müəllimləri tez-tez dəyişilmişdir. Əgər İrəvan gimnaziyasında Firudin bəy Köçərli uzun müddət həm müsəlman şöbəsinin müdiri, həm Azərbaycan dili müəllimi, həm də gimnaziyanın tərkibində pansionatın müdiri olmuşdursa, İrəvan Müəllimlər Seminariyasında müəllimlərin hər il dəyişməsi adi hala çevrilmişdi.

"Kavkazski kalendar" məcmuəsinin 1898-ci il nömrəsində İrəvan Müəllimlər Seminariyasının müsəlman şöbəsinin müdiri Axund Məmməd Bəşir Qazızadə, Azərbaycan dili müəlliminin Rəhim Xəlilov olduğu vurğulanır. Məcmuənin bu nömrəsində aydınlaşır ki,

artıq Seminariyanın tərkibində hazırlıq sinfi açılmış və Viktor Aleksandroviç Muxin həmin hazırlıq sinfinin müdiri olmuşdur.

1899, 1900, 1901, 1902-ci ilə qədər məcmuədə seminariyada Axund Məmməd Bəşir Qazızadənin müsəlman şöbəsinin müdiri, Rəhim Xəlilovun Azərbaycan dili müəllimi, Viktor Aleksandroviç Muxinin isə hazırlıq sinfinin müdiri olduğu göstərilir.

Məcmuənin 1903-cü il nömrəsində İrəvan Müəllimlər Seminariyasında Axund Məmməd Bəşir Qazızadənin müsəlman şöbəsinin müdiri, Rəşid bəy Şaxtaxtinskinin isə Azərbaycan dili müəllimi olduğu göstərilir. O, Rəhim Xəlilovu əvəz etmişdir. Tədqiqatlar təsdiq edir ki, Muxin də, Rəhim Xəlilov da ilkin fəaliyyətlərini Uluxanlı məktəbində başlamışdılar.

1904-cü il məcmuəsində Axund Məmməd Bəşir Qazızadənin Rəşid bəy Şaxtaxtinski ilə birgə fəaliyyəti işıqlandırılır.

Məcmuənin 1906-cı il nömrəsində Axund Məmməd Bəşir Qazızadə yenə də müsəlman şöbəsinin müdiri, Rəşid bəy Şaxtaxtinskinin Həmid bəy Şaxtaxtinski ilə əvəz olunması qeyd edilir.

Seminariyada bu iki maarif xadiminin fəaliyyəti 1909-cu ilə qədər davam edir.

"Kavkazski kalendar" məcmuəsinin 1909-cu il nömrəsində İrəvan Müəllimlər Seminariyasında köklü dəyişikliyin şahidi oluruq. Məcmuənin bu nömrəsində seminariyada İsfəndiyar bəy Çəfibəyovun müfəttiş, Cəfər bəy Cəfərbəyovun müsəlman şöbəsinin müdiri, Mirzə Cəfər Məmmədovun Azərbaycan dili müəllimi, Həbib bəy Səlimovun idman müəllimi olduğu göstərilir.

Yeri gəlmişkən xatırlatmaq lazımdır ki, istər Həmid bəy Şaxtaxtinski, istərsə də Cabbar bəy Məmmədov İrəvan Müəllimlər Seminariyasının 1901-1902-ci il buraxılışının məzunları idi.

"Kavkazski kalendar" məcmuəsinin 1911, 1912, 1913, 1915, 1916 və 1917-ci il məcmuələrində göstərilir ki, Axund Məmməd Bəşir Qazızadə İrəvan Müəllimlər Seminariyasında müsəlman şöbəsinin müdiri, Mirzə Cabbar Məmmədov Azərbaycan dili müəllimi işləmişdir.

Seminariyada Bəşir Qazızadə və Bağır Qazızadənin eyni şəxs olması və yaxud ayrı-ayrı adamlar olması bizə bəlli deyildir. Çünki İrəvan Müəllimlər Seminariyasında müxtəlif vaxtlarda müsəlman şöbəsinin müdiri olmuş bu şəxslər barəsində "Kavkazski kalendar" məcmuəsində heç bir məlumat verilmir. İrəvan Müəllimlər Seminariyasının ilk buraxılışı 1883-cü ildə olmuşdu. Seminariyada

müxtəlif Millətlərin nümayəndələri təhsil alırdılar. Məsələn, 1883-1895-ci illərdə İrəvan Müəllimlər Seminariyasını 123 tələbə bitirmişdir ki, onlardan 25-i azərbaycanlı, 10-u gürcü, 8-i rus və digər xalqların nümayəndələri idi.

Bir sıra görkəmli şəxslər İrəvan Müəllimlər Seminariyasının məzunları olmuşlar. Onlardan biri Haşım bəy Nərimanbəyovdur. O, İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra 1898-ci ildə İrəvanda məktəb açdırmışdır ki, o uzun illər Haşım bəyin məktəbi ilə tanınmışdır. Ədəbiyyatşünas-alim Kövsər xanım Tarverdiyeva da Haşım bəyin məktəbində oxuduğunu fəxrlə deyərdi. Axtarışlar təsdiq edir ki, Haşım bəy Nərimanbəyov təkcə yaratdığı məktəbdə müdriklik etmək və yaxud dərs deməklə kifayətlənməmiş, o, eyni zamanda Ripsimə gimnaziyasında da Azərbaycan dili müəllimi kimi fəalyyət göstərmişdir. Onun oğlu Nəriman bəy Nərimanbəyov İrəvan gimnaziyasını bitirmiş, bir sıra məsul vəzifələrdə çalışmışdır. Ümumiyyətlə, İrəvanda maarifin inkişafında Haşım bəyin özünəməxsus xidməti olmuşdur.

Ümumiyyətlə, Azərbaycan elmi və ictimai-siyasi, mədəni həyatında böyük rol oynamış bir sıra görkəmli simalar İrəvan gimnaziyası və Müəllimlər Seminariyasının məzunları olmuşlar.

1918-ci il avqustun 6-da İrəvanda erməni daşnaqlarının törətdiyi fəlakətlər nəticəsində həm İrəvan gimnaziyası, həm də İrəvan müəllimlər seminariyası bağlanaraq ömrünü başa vurub fəaliyyətini dayandırır.

Qeyd olunduğu kimi, 1881-ci ildə İrəvan gimnaziyası və İrəvan Müəllimlər Seminariyası ilə bərabər Uluxanlı məktəbi də fəaliyyətə başlayamışdır.Bu məktəb də ağır, çətin, şərəfli bir yol keçmiş və acınacaqlı bir tale ilə ömrünü başa vurmuşdur.



*Uluxanlı məktəbi*

Uluxanlı məktəbinin 125 illiyinə həsr olunmuş "Zülmət səltənətində məşəl" kitabında bu unudulmaz təhsil ocağının yaranışı ilə bağlı oxuyuruq: "Uluxanlı məktəbi 1881-ci ildə fəaliyyətə başlamışdır. Məktəb Allahverdi Hacı Hüseyn oğlunun evində yerləşmişdir. İlk müdir o zaman tanınmış maarifçi Muxin olmuşdur. Fənn müəllimi Xanlar

bəy Həsənbəyov, şəriət müəllimi Hacı Məşədi Hüseyn oğlu idi. Sonra Məmmədbəy Lütvəlibəy oğlu Qazıyev, Əbdüləli Bağır oğlu Muxtarov, Hacı Molla Kərim Rzaquliyev və başqaları burada işləmişlər."

Bu fikirdən sonra Cəlil Məmmədquluzadənin Uluxanlı məktəbinə gəlişinə münasibət bildirilir: "Qulam Məmmədlinin "Molla Nəsrəddin" kitabında bir neçə səhifə bilavasitə Uluxanlı kənd məktəbinə həsr olunmuşdur. Qafqaz tədris dairəsinin müdiri 1887-ci il 7 avqust tarixli məktubunda yazır: "Uluxanlı məktəbində müəllim vəzifəsini icra edən Məmmədbəy Qazıyev azad edilmiş, onun yerinə Cəlil Məmmədquluzadə təyin edilmişdir. (İ.İsmayılov, E. Həsənov . "Zülmət səltənətində məşəl". Uluxanlı məktəbi, s. 17).

"Kavkazski kalendar" məcmuəsinin 1892-ci il nömrəsində göstərilir ki, iki sinifli Uluxanlı məktəbində Məşhədi İbrahim Hüseyn oğlu Hüseynov məktəbin fəxri nəzarətçisi, Rəhim Musarza oğlu Xəlilov isə müəllim idi və burada 41 şagirdin təhsil alacağı nəzərdə tutulmuşdu.

"Kavkazski kalendar" məcmuəsinin 1895 –ci il məcmuəsində Uluxanlı məktəbində Oadey Tahirov və Kələntər Kələntərov fəxri himayəçi, Nikolay Semyonoviç Zazunov nəzarətçi, Molla Axund Hacı Məşhədi oğlu Hüseynov şəriət müəllimi olduğu bildirilir.

Məcmuənin 1896-cı il nömrəsində isə Uluxanlı məktəbində Oadey Tahirov və Kələntər Kələntərov himayəçi, Viktor Aleksandroviç Muxin mudir, şəriət müəllimi Hacı Məşhədi Hüseyn oğlu Axundov, müəllim isə Xanlar bəy Həsənbəyov təqdim olunur.

Məcmuənin 1897-ci il nömrəsində Uluxanlı məktəbində Oadey Tahirov və Kələntər Kələntərov fəxri himayəçi, Məmməd bəy Lütvəli bəy oğlu Qazıyev, Molla Axund Hacı Məşhədi Hüseyn oğlu Axundov şəriət müəllimi Xanlar bəy Həsənbəyov müəllim kimi göstərilmişdir.

Bəlli olduğu kimi, Muxin Uluxanlı məktəbindən sonra İrəvan Müəllimlər Seminariyasında fəaliyyətini davam etdirmiş, onu burada Məmməd bəy Lütvəli bəy Qazıyev əvəz etmişdir. Muxin burada hazırlıq kursunun müdiri idi.

Məcmuənin 1898-ci il nömrəsində məktəbdə 35 şagirdin təhsil aldığı və Tahir oğlu Kələntərov, Məmməd bəy Qazıyevin, Molla Axund Hacı Məşhədi Hüseyn oğlu Axundovun eyni vəzifədə qaldığı, ancaq müəllim yerinin boş olduğu aydınlaşır.

Məcmuənin 1900-cü il nömrəsində Uluxanlı məktəbində 64 şagirdin təhsil aldığı, Oadey Tahirovun və Kələntər Kələntərovun

fəxri himayəçi, Molla Vəli Məmmədəli oğlunun şəriət müəllimi işləməsi, ancaq müəllim yerinin boş olduğu bildirilir.

Xatırlatmaq lazımdır ki, Uluxanlı məktəbi 1901-ci ildə də həmin heyətlə fəaliyyət göstərmişdir. Məcmuənin 1902-ci il nömrəsində Uluxanlı məktəbində dəyişikliyin baş verməsi aydınlaşır. Beləki, Tahirov və Kələntərovu fəxri himayəçi kimi Andrey Aleksandroviç Qluxov əvəz etmiş, Məmməd bəy Lütvəli bəy Qazıyev isə yenə də nəzarətçi vəzifəsində qalmışdır.

Məcmuədən o da bəlli olur ki Oadey Tahirov və Kələntər Kələntərov Qəmərlinin Köyləsər kənd məktəbində fəxri nəzarətçi işləyirdilər.

1904-cü ildə Uluxanlı məktəbində həmin heyət fəaliyyət göstərirdi.

Axtarışlar zamanı "Kafkazski kalendar" məcmuəsində Uluxanlı məktəbi ilə bağlı son məlumata 1909-cu ildə rast gəlinir. Burada göstərilir ki, həmin ildə Uluxanlı məktəbində Şandal bəy Mahmud bəyov nəzarətçi, Aldr Frans Verjibitski müəllim, Hacı Molla Vəli Məşhədi oğlu şəriət müəllimi işləmişdir.

Uluxanlı məktəbi ilə 1918-ci ilə qədər olan məlumatı İ.İsmayilovun və E.Həsənovun "Zülmət səltənətinə məşəl" kitabında əldə etmək olar. Ancaq bəzi məqamlarda burada deyilmiş fikirlərlə razılaşmaq olmur.

Məs:Həmin kitabda yazılır ki, Vedili Şəmdin bəy Mahmudbəyov 1903-cü ildən 1917-ci ilə kimi Uluxanlı məktəbində təxminən 15 il fəaliyyət göstərmişdir.

İkincisi, Şandal bəy Mahmudbəyovla Şəmdin bəy Mahmudbəyov eynidirmi?

Cavabı ikinci sualdan başlamaq istərdik. Öncə qeyd etmək lazımdır ki, onlar eyni adamlar deyildirlər. Niyə? Niyənin cavabı hər iki suala aydınlıq gətirir.Yuxarıda qeyd olundugu kimi 1909-cu ildə Şandal bəy Mahmudbəyov Verjibitski və Hacı Molla Vəli Məhşədi oğlu ilə Uluxanlında fəalliyət göstərirdilər.Məcmuənin həmin il nömrəsindən o da bəlli olur ki, həmin vaxt Şəmdin bəy Mahmudbəyov Naxçıvanın Nehrəm kəndi ikisinifli məktəbində nəzarətçi, Qulubəyov müəllim, Məmməd bəy Qazıyev şəriət müəllimi vəzifəsində çalışırdılar.

Tədqiqatçı Əziz Ələkbərli Mahmudbəyovlar nəslindən danışarkən yazır ki, bu tayfa əsasən Mahmudlu bəylərindən ibarət idi.Şəmdin bəy,Türmən bəy, Mürşüd bəy, Əhməd bəy, Məcid bəy,

Museyib bəy, İdris bəy, Abas bəy, Fərəməz bəy, Təvəkkül bəy bu tayfaların sayılıb seçilən nümayəndələrindən idilər.Məşhur kinorejissor Şamil Mahmudbəyov bu nəsildəndir.

Ancaq burada nədənsə Şandal bəyin adı çəkilmir.

Şəmdin bəyin Uluxanlı məktəbində 1903-cü ildən 1917-ci ilə kimi müəllim işləməsi həqiqətə uygun gəlmir.Çox güman ki,1909-cu ildən Mirzə Cəfər müəllimlə bu məktəbdə fəaliyyət göstərmişdir.

"Zülmət səltənətində məşəl" kitabında verilən məlumata görə,1917-ci ildə Şəmdin bəy və Mirzə Cəfər gedəndən sonra onların yerinə gələn Mirzə Ələskər Rzazadə və mərhum, ordenli müəllimə Fatma Qədimovanın həyat yoldaşı Ələkbər Qədimov olmuşdur.

1918-20-ci illərdə İrəvan gimnaziyası və İrəvan Müəllimlər Seminariyası kimi erməni millətçilərin törətdiyi igtişaşlar nəticəsində Uluxanlı məktəbi də bağlandı....

Ancaq İrəvan gimnaziyası və İrəvan Müəllimlər Seminariyasından fərqli olaraq Uluxanlı məktəbi 1921-ci ildən sonra fəaliyyətini davam etdirməyə başladı (1988-ci ilə qədər).

"Respublika" qəzetinin redaktoru, filologiya elmləri doktoru, professor Teymur Əymədov, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, memarlıq elmləri doktoru, professor Gülçöhrə Məmmədova, biologiya elmləri doktoru Fərrux Məmmədov, tibb elmləri doktoru, professor Maqsud Qasımov, kimya elmləri doktoru Zakir Rzayev, texnika elmləri doktoru Firudin Xəlilov, bu sətirlərin müəllifi və bir çox ziyalılar Uluxanlı məktəbinin yetirmələridir.

İrəvan və onun ətrafında İrəvan gimnaziyası, İrəvan Müəllimlər Seminariyası və Uluxanlı məktəbi ilə yanaşı get-gedə yeni tipli məktəblər də fəalliyət göstərmişlər.

"Kavkazski kalendar' məcmuəsinin 1895-ci il nömrəsində bildirilir ki,1883-cü ildə İmanşalida, Qurduquluda dərəsində, Böyük Vedidə yeni tipli məktəblər açılmışdır.

Bu dövrdə yaranmış məktəblərdən biri də 1898-ci ildə fəalliyətə başlamış İrəvandaki rus-tatar məktəbi idi.1909-cu ilin "Kavkazski kalendar" məcmuəsində Haşım bəy Nərimanbəyovun Rus-tatar məktəbinin müəllimi oldugu göstərilir.Məcmuənin 1904 cü il nömrəsində isə İrəvan rus-tatar məktəbində Abbasqulu xan Erivanskinin fəxri nəzarətçi, Haşım bəy Nərimanbəyovun nəzarətci oldugu vurgulanır.O da qeyd olunur ki, İrəvan rus-tatar məktəbində həmin dövrdə 106 şagird təhsil alırdı.

Məcmuənnin 1906-ci il nömrəsində İrəvan rus-tatar məktəbinin həyətinin genişləndiyi aydınlaşir. Buradan bəlli olur ki, 1906-1907 ci il tədris ilində İrəvan rus-tatar məktəbində Haşım bəy Nərimanov nəzarətçi, Həmid bəy Şaxtaxtinski və Rəcəbov müəllim, Axund Abdulla bəy Qazıyev şəriət müəllimi, Məmməd Vəli Qəmərlinski Azərbaycan dili müəllimi kimi fəaliyyət göstərmişlər.

Onu da xatırlamaq lazımdır ki, Həmid bəy Sahtaxtinski həmin ildə eyni zamanda İrəvan Müəllimlər Seminariyasında da Azərbaycan dili dərsini deyirdi.

Məmməd Vəli Qəmərli isə vaxtiyla İrəvanda işləyərkən atalar sözlərini toplayıb kitab şəklində nəşr etdirmişdi.

Məcmuənin 1902-ci il nömrəsində isə aşagıdakı heyətin-Haşım bəy Nərimanbəyovun nəzarətçi, Həsən bəy Qazıyevin və Qafar Məmmədovun müəllim, Məmməd Vəli Qəmərlinskinin Azərbaycan dili müəllimi, Axund Abdulla bəy Qazıyevin şəriət müəllimi işlədiyinin şahidi oluruq.

”Kavkazski kalendar”ın 1907-ci il nömrəsində İrəvan rus-tatar məktəbində heyətin eynilə-yəni Haşım bəy Nərimanbəyovun nəzarətçi, Həmid bəy Şahtaxtinskinin və Mustafa Rəcəbovun müəllim, Axund Abdulla bəy Qazıyevin şəriət müəllimi və Məmməd Qəmərlinskinin Azərbaycan dili müəllimi qaldıgı bəlli olur.

Haşım bəy Nərimanbəyovun haqqinda bəzi məlumatlar təsdiq edir ki, bu görkəmli xadimin özü də İrəvan gimnaziyasının məzunu olmuşdur. “Kavkazski kalendar” məcmuəsinin 1912-ci il və 1916- cı il nömrələrindən aydin olur ki, Haşım bəy Nərimanbəyov eyni zamanda İrəvan Ripsime gimnaziyasinda müsəlman şəriət bölməsinin müdiri və Azərbaycan dili müəllimi vəzifəsində çalışmışdır.

Arxiv sənədləri İsfəndiyər bəy Sultanovun İrəvanda progimnaziyada fəalliyət göstərməsini və burada işlədiyini sübut edir.

“Kavkazski kalendar” məcmuələrinin 1914,1916 və 1917-ci il nömrələrindən bəlli olur ki, İrəvanda əsas fəalliyət göstərən məktəblərdən biri Ruşkin məktəbi olmuşdur və Mirzə Hüseyn Axundov həm müsəlman şöbəsinin müdiri, həm də Azərbaycan dili müəllimi kimi fəalliyət gostərmişdir.İrəvan məktəblərinin hər biri geniş tədqiqatin mövzusudur.Biz yalnız gələcək tədqiqatlar üçün istiqamət verməyi məsləhət bildik.

İndi isə bir daha İrəvan xanlığı haqqında.İrəvan xanlığı 1604-cü ildə yaradılmışdı. İki yüz iyirmi dörd ildən sonra rus ordusunun hücumu ilə bu möhtəşəm xanlığa son qoyuldu.1919-cu ildə Parisə

Versal Sülh konfransına ADR-in nümayəndə heyətinin tərkibində getmiş Mir Yaqub Həmidzadə 1933-cü ildə Parisdə fransız dilində nəşr etdirdiyi "Qafqaz problemi" əsərində göstərir ki, çoxdan idi ki, Rusiya özünə Şərqdə bir qala qurmaq istəyirdi.Bunun üçün onun qarşısında üç yol var idi:Orta Asiya yolu, Qafqaz yolu və Balkan yolu.M.Y.Həmidov yazır ki, Orta Asiya hədsiz dərəcə isti idi, bu ruslar üçün çətinlik törədirdi.Balkanların yolu uzaq düşürdü, eyni zamanda Rusiya Avropa ölkələri ilə üz-üzə gələ bilərdi.Rusiya üçün ən əlverişli, ən qısa yol Qafqaz idi.Buna görə də 1801-ci ildə Gürcüstandan sonra 1804-cü ildə Gəncə xanlığı, 1805-ci ildə Şəki, Şirvan, Qarabağ, 1806-cı ildə Dərbənd, Quba, Bakı xanlıqları məglub olur.Rus imperiyasına qarşı ən inadlı mübarizəni İrəvan xanlığı aparır.Təxminən 30 il.

*Haşiyə:* "Ümumdünya tarixi" kitabının altıncı cildindəki 278-ci səhifəsində bir şəkil var. Şəkilin altında bu sözlər yazılıb: "1 oktyabr 1827-ci il. Rus ordusunun İrəvan qalasına hücumu". V.Moşkovun çəkdiyi bu şəkildə təsvir olunmuş qaladan aralıda rus ordusunun sıra ilə düzülmüş xeyli topu görünür. Onlardan yenicə açılmış atəşdən sonra həm topların, həm də şəhərin üstündən duman qalxır. Təbii ki, toplar aşağıda, İrəvan qalası isə yuxarıdadır. Uzaqdan görünən məscidlər həmin yerin müsəlman dünyasına məxsus olduğunu bildirir".

Bəs qalanı kimlər müdafiə edirdi? Qalanı azərbaycanlılar mərdliklə, qəhrəmanlıqla müdafiə edirdilər.

Paskeviçin İrəvanı mühasirəyə aldıqdan bir müddət sonra şəhər F.B.Köçərlinin dililə desək, "Rus dövlətinə tabe olmaq məcburiyyətində qaldı (şəhəri fəth etdikdə 49 top, 4 beydəq və 4 minə kimi əsir sərbaz alınmışdır)".

Bu rus generalı sanki öz sələflərinin uğursuz hücumlarının qisasını alırdı. 1804-cü ildə general Sisianov İrəvana hücum edir və 2 ay qalanı (iyulun 4-dən - sentyabrın 4-nə qədər) mühasirədə saxlayır. Ancaq İrəvanı Məhəmməd xanın ağıllı siyasəti, cəsarəti, Naxçıvan xanı Kəlbəli xanın ona köməyi və qala müdafiəçilərinin böyük şücaəti, mərdliyi sayəsində rus qoşunları rüsvayçı şəkildə məğlub olub geri qayıdırlar. Təkcə onu qeyd etmək kifayətdir ki, qalanın 30 nəfər döyüşçüsü mühasirəyə düşür, təslim olmaq əmri verilsə də axıradək vuruşur və qəhrəmanlıqla həlak olur. Tədqiqatçı M.Süleymanov Sisianovun məğlubiyyətini belə təsəvvür edir: "Təkkəbbürlüyünə və ötkəmliyinə vurulan zərbə, Məhəmməd xanın iradəsi qarşısında duruş

gətirə bilməməsi Sisianov üçün elə bir xəcalət yükünə çevrilmişdi ki, gecə ikən geri çəkilməyi və qala döyüşçülərinin qalib baxışlarından gizlənməyi qərara almışdı. O, elə gizlincə geri çəkilmək istəyirdi ki, qala əhlinin şadlığını və sevincini görməsin... Bu məğlubiyyətin ağrı-acısı Sisianovun 30 illik xidmətinin ən qara səhifələrindən birinə çevrildi və ömrünün sonuna qədər ona rahatlıq vermədi. İrəvan qalası ətrafındakı məğlubiyyətin həyatında dərin iz buraxdığını Sisianov imperatora yazdığı məktubunda belə təsvir edir: "Özümə baxanda ürəyim ağrıyır. Mənim 30 illik xidmətim ərzində ilk dəfədir ki, (Rusiya ordusunun tarixində isə ikinci generalam) mühasirəyə alınmış şəhəri fəth etmədən qoşunları geri çəkdim".

1808-ci il sentyabrın 25-də 30 ildən çox sərkərdəlik təcrübəsi olan general-feldmarşal N.V.Qudoviçin komandanlığı altında rus qoşunları 8 minlik qoşunla İrəvan xanlığına hücum etdi. İrəvan xanı Hüseynqulu xan və qardaşı Həsən xan qalanın müdafiəsini yüksək səviyyədə təşkil etmişdilər. Gəncənin işğalından sonra təxminən il yarım ərzində Azərbaycanın bütün xanlıqlarını, hətta Naxçıvanı da asanlıqla tutan rus qoşunları İrəvanı da sonralar çətinlik çəkmədən götürəcəyini güman edirdilər. Ancaq daş qayaya rast gəlmişdi. Araşdırıcı M.Süleymanov həlledici döyüşü belə təsvir edir: "Noyabr ayının 17-də səhər saat 5-də, hələ hava işıqlanmamış rus qoşunları qala üzərinə qəti hücuma keçdilər. Bu hücum qəfil başlansa da yenə də rus generallarının gözlədiyi nəticəni vermədi. Divarlar üzərində topların düzgün yerləşdirilməsi, onların atəşlərindən məharətlə istifadə edilməsi Feldmarşal Qudoviçin niyyətlərini alt-üst etdi. O, sonradan Rusiya imperatoruna göndərdiyi məktubunda da etiraf edirdi ki, İrəvan qalasının müdafiəçiləri mərdliklə vuruşurdular". (Mehman Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, "Hərbi nəşriyyat", 1997, s.112) Polkovnik Simonoviç, mayor Vılazkov, mayor Novitski, mayor Barşov döyüşlərdə ağır yaralanırlar. Podpolkovnik Bulqakov isə aldığı ağır yaradan bir neçə gün sonra ölür. Rus qoşunlarının həmin döyüşdə 1000 nəfərdən artıq döyüşçüsü sıradan çıxır. 1808-ci ildə noyabrın 30-da qoşunun tam məhv olmasından ehtiyat edən Qudoviçin İrəvanı rüsvayçı şəkildə tərk etməsi rus qoşunları ilə təkbətək vuruşa girmiş Həsən xanın (Hüseynqulu xan vuruşa-vuruşa Arazın o tayına çəkilmişdi) yüksək sərkərdəlik və təşkilatçılıq qabiliyyətinin nəticəsi idi.

Bəli, Paskeviçin komandanlığı altında uzaqvuran toplarla yanaşı 12 min qoşun göndərən rus çarizmi 30 illik gərgin döyüşlərdən, ağır itkilərdən, acınacaqlı məğlubiyyətlərdən sonra İrəvanı fəth edir.

Bu döyüşlə İrəvan xanlığı tarixə döndü. Xanlığın ad izləri: "Pənah xan körpüsü", "Pənah xan bulvarı" sözləri yaşlı nəslin yaddaşında ömrünü yaşamağa başladı və sonralar 1762-83-cü illərdə İrəvanın xanı olmuş Hüseynəli xanın tikdirdiyi Göy məscid yerlə yeksan edildi.



***İrəvan gimnaziyası***

Hərdən düşündükcə öz-özünə deyirsən: "İrəvanda nə qaldı ki?"

İrəvanın qoynundan çıxmış neçə-neçə görkəmli şəxsiyyət öz doğma şəhərinə bağlandığını, sevgisini bildirmək üçün özünə İrəvani təxəllüsü götürmüşdü. Tarixdə nə qədər məşhur İrəvani olmuşdu, - Mirzə Qədim İrəvani, Fazil İrəvani, Axund Molla Məhəmməd İrəvani, Aşub İrəvani, Əbülqasım İrəvani... saymaqla qurtaran deyil.

Firudin bəy Köçərli yazır ki, "şəhri-İrəvan keçmişdə mərkəzi-üləma, füzəla və şüərə olubdur».

XIX əsrdə İrəvanda "Bəzmi" təxəllüsüylə yazan Məşhədi İsmayıl Hacı Kazımzadə, "Mütəlle" təxəllüslü Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov, "Sabir" təxəllüslü Hacı Seyid Rza Əmirzadə, Mirzə Əlixan Şəmsül Hükəma, Ləli kimi şairlər yazıb-yaratmışlar. Seyid Rza Əmirzadənin şerləri "Əkinçi"də nəşr olunmuşdur. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində

İrəvanda güclü ziyalı nəsillər olmuşdur: Mirbabayevlər, Qazıyevlər, Mirbağırovlar, Məmmədzadələr, Bağırbəyovlar, Erivanskilər, Topçubaşovlar, Muğanlinskilər və s. bu nəsillərin bir çox nümayəndələri İrəvan quberniyasında tutarlı mövqe sahibi idilər. Bu dövrdə İrəvan Qafqazda elmin, maarifin, mədəniyyətin ən çox inkişaf etdiyi mərkəzlərdən biri idi. Burada 1881-ci ildən müəllimlər seminariyası, 3 gimnaziya, bir qadın gimnaziyası, 2 pansionat fəaliyyət göstərirdi. Teatr tamaşaları gedirdi.

"Leylək" satirik jurnalı, "Həqiqət" bədii jurnalı nəşr olunurdu.

...Deyəsən, 8 İrəvan azərbaycanlıları üçün nəhs rəqəmdir. 1828-ci il. Nə qədər azərbaycanlı bu torpaqlardan İrana köçürüldü. 1918 - daşnakların silah gücünə azərbaycanlıları qovması. 1948 - mədəni köçürülmə, 1988 - azərbaycanlıların sonuncusuna qədər İrəvandan və Ermənistandan çıxarılması. ...Gorunuz çatlasın, ay İrəvan xanları, bəyləri, sizin at oynatdığınız yerlərdə gör indi kimlər sülənir. Bəlkə "İrəvan da bir nağıl idi?.."



***İrəvanlı xanım***

Yox, İrəvan bizim üçün hələlik nağıldı, "tərlan oylağında sar ola bilməz".

# MİRZƏ QƏDİM İRƏVANİ VƏ ONUN NƏSLİ

Bir dəfə "İrəvan ziyalıları" silsiləsindən görkəmli xalçaçı rəssam Kamil Əliyev barəsində material toplayıb, oçerk yazmaq üçün "Azərxalça" istehsalat birliyinə getdim. Kamil müəllimlə görüşüb gəlişimin məqsədini bildirdim. Gördüyüm işlər barəsində məlumat verib, məqalələrimdən bir neçəsini ona göstərdim. Birdən Kamil müəllim soruşdu: "Mirzə Qədim İrəvanidən yazıbsan?" cavab verdim "Xeyr!"

Kamil müəllim əsəbi halda dedi: "Bəs onda İrəvan ziyalıları haqqında necə məlumat toplayırsan?"

Dedim ki, "Nə qədər axtarışlar aparsam da, lazımi material tapa bilmədim, əgər mümkündürsə, mənə kömək edin".

-Get, axtaran tapar!

Bu sözlər qulağımda cingildədi və narahatçılığımı artırdı: "Axtaran tapar!"

Uzun müddət gərgin axtarışdan sonra, nəhayət, material əldə edib Mirzə Qədim İrəvani və onun nəsli haqqında oçerki yazmağa başladım.

Azərbaycan rəssamlıq tarixində Sultan Məhəmməd Təbrizi, Ağa Mirək İsfəhani, Mirzə Əli Təbrizi, Kəmaləddin Behzad, Mir Musəvvir, Mir Seyid Əli, Qənbər Qarabağlı, Mir Möhsün Nəvvab, Əbül Qasım Təbrizi, Məhəmməd Həsən Əfşarı kimi görkəmli sənətkarlar yetişmişdir. Belə məşhur sənətkarlardan biri də Azərbaycan dəzgah boyakarlığının banisi, XIX əsrin böyük rəssamı Mirzə Qədim İrəvanidir.

Rəssamlıq sənətində xüsusi yeri olan, doğulduğu torpağa bütün varlığıyla bağlanaraq İrəvani təxəllüsünü götürmüş Mirzə Qədim 1825-ci ildə İrəvan şəhərində dülgər ailəsində anadan olmuşdur. Bu o dövrlər idi ki, İrəvan xanlığı ömrünün son illərini yaşayırdı. İki ildən sonra İrəvan şəhərinin azərbaycanlıların əlindən çıxma dövrünün əsası qoyulacaqdı.

M.Q.İrəvani ilk təhsilini doğma İrəvanda üsuli-cədid məktəbində almışdır. Sonra o, Tiflisdə prigimnaziyada təhsilini davam etdirir. 15 yaşında gimnaziyanı bitirərək İrəvana qayıdır və poçtda teleqrafçı vəzifəsində çalışır.

Sənətşünas R.Kərimovanın qeyd etdiyi kimi, Mirzə Qədim İrəvani həm zərif ornament ustası, həm də portretçi rəssam olmuşdur.

O, rəssamlıq sənətini ağac üzərində bədii oyma ustası olan atasından öyrənmişdir. Yaradıcılığının ilk dövründə dekorativ sənətlə məşğul olan M.Q.İrəvani bir sıra portretləri – "Süvari", "Rəqqasə", "Dərviş" əsərlərini yaratmışdır ki, həmin sənət əsərləri hazırda Milli İncəsənət Muzeyində saxlanılır.

Qeyd etmək lazımdır ki, görkəmli rəssamın sənət aləminə ondan çox portret əsəri məlumdur.



***Mirzə Qədim İrəvani. Gənc qadın portreti. XIX əsr, 70-ci illər.***

M.Q.İrəvaninin yaratdığı sənət incilərinin mühüm bir qismi İrəvan Sərdarının sarayı üçün çəkdiyi portretlərdən ibarətdir. Belə portretlərdən biri "Sərkərdə portreti"dir. Uzun müddət ədəbiyyatda pəhləvan portreti kimi təqdim edilən bu əsər təskülah (baş geyimi), ordu başçılarına məxsus təskülahdan çıxaraq, arxaya doğru gedən lələyi, döşündəki sinəbəndi, bəzəkli qamçısı, barıt torbası, qolunda və baldırındakı metal qolçaq və qıçlıqdan həmin portretin adi bir pəhləvan deyil, müəyyən bir qoşun başçısının olduğu təsdiq edirdi. Sərkərdənin üzünün fərdi cizgiləri - enli alnı, düz burnu, uzun bığları, habelə irəliyə doğru dikilmiş gözləri və balaca ağzı rəssamın obrazı konkretləşdirməyə çalışdığını göstərir. ("Azərbaycan incəsənəti" Bakı - 1959).



***Mirzə Qədim İrəvani. Gənc oğlan portreti***

Mirzə Qədim İrəvani 1850-ci illərdə İrəvan sərdarının sarayındakı pannoları və süjetli kompozisiyaları bərpa etmiş, sarayın güzgülü zalında yağlı boya ilə bir neçə monumental portret çəkmişdir. "Fətəli şah", "Abbas

Mirzə"nin portretləri belə əsərlərdəndir.

Fətəli şah arxasında buta naxışlı mütəkkəb, bəzəkli xalça üzərində dizi üstə oturmuş halda təsvir edilmişdir. Onun başında tac, belində kəmər və qamçı vardır. İki əlilə toppuzdan tutmuşdur. İstər sərkərdə, istər şah hökm verən, əmr edən, başçılıq edəndir. Ancaq təbii ki, şahın səlahiyyətləri sərkərdənin səlahiyyətləri ilə müqayisə oluna bilməz. Sərkərdənin özü də şaha tabedir. Mirzə Qədim İrəvani bu portretləri elə işləmişdir ki, şahla sərkərdə arasında olan həm oxşarlıqlar, həm də fərqlər aydın surətdə nəzərə çarpır.

M.Q.İrəvaninin 1860-70-ci illərdə yaratdığı "Vəğulla Mirzə", "Molla", "Ayaq üstə dayanmış qadın", "Gənc oğlan" (Azərbaycan İncəsənət muzeyi) portretləri Azərbaycan realist boyakarlığının ən yaxşı nümunələridir.

Rəssamın "Oturmuş qadın portreti" də diqqəti cəlb edən əsərlərdən biridir.

Əsərdə gözəl bir qadın surəti təsvir edilmişdir. O, rəngarəng naxışlarla toxunmuş xalçanın üzərində əyləşmişdir. Arxasında mütəkkələr vardır və qadın bunlara söykənmişdir. Təsvir olunan otaq şəraiti, qadının geyimi, boynundakı qızıl boyunbağı onun varlı təbəqəyə, zadəgan silkinə məxsusluğuna dəlalət edir. Bir əlini dizinə qoymuş, digər əlində dəsmal tutmuş qadının gözləri bir nöqtəyə-uzaqlara dikilmişdi. O, xəyala dalaraq nə barədəsə düşünür.

Mirzə Qədim İrəvaninin əsərləri bir çox məşhur muzey və qalereyalarda qorunub saxlanılır. Böyük rəssamın nəvəsi İ.Axundovun fikrincə, İrəvana müxtəlif vaxtlarda gəlmiş səyyahlar, incəsənət həvəskarları onun rəsmlərini öz ölkələrinə aparmışlar. İrəvaninin nəticəsi Gülşən xanımın verdiyi məlumata görə Peterburqdakı məşhur Ermitaj sarayında iki otaq yalnız Mirzə Qədimə ayrılmışdı. Burada onun əsərlərinin orijinalı və fotokopiyaları nümayiş etdirilirdi (təxminən 1970-72-ci illərdə).

Əməkdar incəsənət xadimi, rəssam İsmət Axundov Fransada olarkən Parisdə məşhur "Mütəfəkkir" heykəlinin müəllifi Rodenin ev muzeyində İrəvaninin bir əsərinin saxlanıldığını söyləyir.

Mütəxəssislərin fikrincə, dahi rəssam Rafael Romada Vatikan sarayında daim sulu boyalarla işlədiyi üçün bu, onun səhhətinə pis təsir etmiş və o, 37 yaşında dünyasını dəyişmişdir. Bəlkə Mirzə Qədim İrəvani də İrəvanda Sərdar sarayını bəzəyən şəkilləri çəkərkən səhhəti korlanmış, çox erkən 1875-ci ildə 50 yaşında vəfat etmişdir. Mirzə Qədim İrəvaninin Ələkbər və Ələsgər adında iki oğlu olmuşdu.

Ələsgər gənc ikən təxminən 35-36 yaşlarında dünyasını dəyişmişdi. Ələsgər isə atasına və qardaşına nisbətən uzunömürlü olmuşdur.

M.Q.İrəvanin nəticəsi Gülşən xanımın bizə təqdim etdiyi sənəddən bəlli olur ki, İrəvan kolleç asessoru Mirzə Qədim İrəvaninin oğlu Ələkbər bəy Qədimbəyov 1859-cu il avqust ayının 12-də qədim İrəvan şəhərində anadan olmuşdur. Dördüncü sinfədək İrəvan gimnaziyasında təhsil alır və Dairə İdarəsinin 1 oktyabr 1879-cu il 226 saylı əmrinə əsasən İrəvan teleqraf mərkəzində 4-cü dərəcəli teleqrafçı təyin edilir.

1881-ci il 23 may 124 saylı əmrə görə həqiqi xidmətə təsdiq olunur.

Ələkbər Qədimbəyov get-gedə daha məsul vəzifələrə irəli çəkilir. 1882-ci ildə hakimiyyətdə olan bələdçi departamenti senatının 125 saylı əmrinə əsasən göstərdiyi xidmətlərinə görə kollec reqistratoru vəzifəsinə təyin edilir. 1883-cü ilin oktyabrında yaxşı xidmətlərinə görə quberniya katibliyinə keçirilir.

Tiflis poçt-teleqraf dairəsi rəisinin 1 fevral 1888-ci il 27 saylı əmrinə əsasən İrəvan teleqraf-poçtu idarəsinin V dərəcəli məmuru təyin edilir. 2 oktyabr 1898-ci il 157 saylı əmrinə əsasən o, teleqraf poçtunun IV dərəcəli məmuru vəzifəsində çalışır. 1889-cu ildə mərhəmətli İran şahı Ə.Qədimbəyovu "Şiri Xurşid" ordeni ilə təltif edir.

Həmin vaxt Ə.Qədimbəyov Rusiya imperiyasının sərəncamında olan və onun missiyasını yerinə yetirən Tiflis poçt-teleqraf dairə-poçt ştat idarəsində III dərəcəli teleqraf-poçt məmuru idi.

19 dekabr 1989-cu ildə hakimiyyətdə olan bələdçi departamentinin senatının fərmanı üzrə 1890-cı ildən 96 nömrəli əmrə əsasən göstərdiyi xidmətlərə görə kollec katibliyində birincilik verilir.

Tiflis teleqraf-poçt dairəsi rəisinin 17 avqust 1892-ci il 93 nömrəli əmrinə əsasən həmin rütbə ilə Naxçıvan poçt-teleqraf idarəsinə dəyişdirilir. Hakimiyyətdə olan bələdçi departamenti senatının 25 fevral 1893-cü il 34 nömrəli əmrinə əsasən titulyar müşavir vəzifəsinə irəli çəkilir.

1895-ci il 15 noyabr 70 nömrəli əmrə əsasən kollec asessoru təyin edilir və həmin vaxtda da üzərində Aleksandr Nevskinin lenti olan gümüş medal almışdır ki, bu imperator III Aleksandrın şərəfinə təsis edilmişdir.

26 fevral 1896-cı il 47 nömrəli əmrə əsasən Tiflis teleqraf-poçt idarəsinə həmin rütbə ilə dəyişdirilir.

1aprel 1904-cü il 55 nömrəli əmrə əsasən Rusiya imperiyasının sərəncamında olan və onun missiyasını yerinə yetirən İrandakı idarə dairəsinin ştatına III dərəcəli poçt-teleqraf məmuru təyin edilir və 31 oktyabr 1912-ci ildə 182 nömrəli əmrə əsasən xəstəliyə görə işdən azad edilir.

Ə.Qədimbəyova verilmiş xasiyyətnamədən aydın olur ki, o, həmişə nöqsansız işləmişdir.

Növbəti illərdə məzuniyyətdə olub 1888-ci il - 14 gün, 1893-cü il - 21 gün, vaxtında işə qayıdıb.

1895-ci il - 7 gün işə istefaya çıxıb.

1896-cı il 7 gün çıxmayıb.

Ə.Qədimbəyov 1900-cü il noyabr ayının 1-də İrəvanın bəy nəslindən olan Fatma xanımla (1875-ci ildə anadan olmuşdur) ailə qurmuşdur. Bu onun 2-ci nigahı idi. Ələkbər bəyin birinci nigahından iki övladı olmuşdur.

1. Firudin bəy (1885).
2. Cahangir bəy (1891 noyabr).

Fatma xanımın Ələkbər bəylə ailə qurması onun da 2-ci nigahı idi. Fatma xanımın birinci izdivacdan üç övladı olmuşdur: Xanımzər, Əbülfət, Kamal.

Ələkbər bəyin 2-ci nigahdan üç qızı dünyaya gəlmişdir: Münəvvər (1905), Mənzər (1909), Əfşan (1915-ci il 22 fevral).

Bəli, bu uşaqların hamısı Mirzə Qədim İrəvaninin nəvələri idi.

Ələkbər bəy Qədimbəyov 1918-ci ildə 59 yaşında vəfat etmişdir.

Bir fakta diqqət yetirmək lazım gəlir. Gülşən xanımın bizə təqdim etdiyi sənəddə Fatma xanımın atasının adı Zeynalabdın bəy kimi göstərilir.

Ancaq görkəmli dövlət və elm xadimi Əziz Əliyev 1951-ci il aprelin 24-də yazdığı tərcümeyi-halında anası Zəhra xanımın İbrahim bəy Süleymanbəyovun qızı olduğunu göstərir. Bəllidir ki, Fatma xanım (Əziz Əliyev tərcümeyi-halında onun adını Matan kimi təqdim edir - Ə.Z.) onun doğma xalasıdır. Fikri aydınlaşdırmaqdan ötrü, bizcə, Ə.Əliyevin yazdığı tərcümeyi-halına müraciət etmək yerinə düşər:

“Anam İrəvanlı İbrahimbəy Süleymanbəyovun qızıdır. İbrahimbəy İrəvan tacirlərindən olub. 1900-cü ildə vəfat edib... Dörd xalam olub. Matan Qədimbəyova (Fatma - Ə.Z.) poçt-teleqraf

çinovnikinin arvadı idi. Qədimbəyov inqilabdan əvvəl vəfat edib. Xalam 1950-ci ildə rəhmətə gedib.

Xalamın bir oğlu Əbülfət Qədimbəyov hazırda Maarif Nazirliyində, o biri oğlu Kamal Qədimbəyov Azərittifaqda, qızı Minəvər uşaq bağçasında, Mənzər maarif şöbəsində müdir, Əfşan isə Xarici Dillər İnstitutunda rektor vəzifələrində işləyiblər".

Ə.Qədimbəyova yeddi sənəddə İrəvan Dövlət Palatası tərəfindən təsdiq edilmiş 980 man. həcmində təqaüd verilir.

a) dövlət palatası - 980

b) imeritel xəzinə - 15.XI.913

c) dairənin rəisi (imza)

ç) kargüzar (imza)

c) kargüzarköməkçisi (imza) və s.

1 oktyabr 1886-cı ildən istehsalın 6 faizi poçt-teleqraf məlumatları məmurlarının imeritel kassasına köçürülür.

Ələkbər bəy Qədimbəyovun böyük oğlu Firudin poçt-teleqraf xidmətində IV dərəcəli məmur işləyibdir.

Cahangir Kiyev şəhərində Kənd Təsərrüfatı İnstitutunu bitirib, kənd təsərrüfatı maşınları üzrə mütəxəssis idi.

Kamal Qədimbəyov ADU-nun (indiki BDU-nun) İqtisadiyyat fakültəsini bitirib Azərittifaqın sədr müavini vəzifəsində və digər sahələrdə çalışmışdır.



*Əfşan xanım Qədimbəyova*

Əbülfət bəy Qədimbəyov ADU-nun İqtisadiyyat fakültəsini bitirib Azərbaycan Maarif Nazirliyində baş mühasib işləmişdir.

Münəvvər xanım APİ-nin (indiki ADPU) ədəbiyyat fakültəsini bitirmiş, 26-lar (indiki Səbayel) rayonunda bağça müdiri olmuşdur.

Mənzər xanım APİ-nin (indiki ADPU-nun) biologiya fakültəsini bitirmiş, müxtəlif sahələrdə çalışmış Maarif şöbəsinin müdiri olmuş, respublikanın "əməkdar müəllimi" adına layiq görülmüşdür.

Mirzə Qədim İrəvaninin nəvələri içərisində Əfşan xanım xüsusi nüfuza malik olmuşdur. Ana

dili ilə yanaşı rus və ingilis dillərini çox gözəl bilən Əfşan xanım çox mühüm məsul vəzifələrdə fəaliyyət göstərmişdi. O, 1915-ci ildə İrəvan şəhərində anadan olmuş, 7 illik məktəbdə oxumuş, İrəvan pedaqoji texnikumuna daxil olaraq 1929-cu ildə oranı bitirmişdir. Bununla kifayətlənməyib 1931-35-ci illərdə APİ-nin (indiki ADPU) pedaqoji fakültəsində təhsilini davam etdirmişdi. 2 il Moskva Pedaqoji İnstitutunun aspiranturasında təhsil alan Ə.Qədimbəyova Bakıya qayıdaraq 1942-ci ildə Azərbaycan Gənclər İttifaqının üçüncü katibi seçilir və dörd il həmin vəzifədə çalışır.

N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinin partiya komitəsinin katibi, Azərbaycan KP MK-nın partiya şöbəsi müdirinin müavini vəzifələrində fəaliyyət göstərən Ə.Qədimbəyova 1949-cu il oktyabr ayının 11-də Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun rektoru təyin edilir və 1956-cı ilə qədər bu ali məktəb ocağına rəhbərlik edir. Deмək lazımdır ki, artıq 1953-cü ildə Əfşan xanım həm də Azərbaycan Ali Sovetinin sədr müavini idi. Xatırladaq ki, bu illərdə respublika Ali Sovetinə akademik Mustafa bəy Topçubaşov başçılıq edirdi.

Ə.Qədimbəyova (bəzən o dövri mətbuatda Ə.Axundova kimi də getmişdi) dəfələrlə bu illərdə Azərbaycan Ali Sovetinə və Bakı şəhər sovetinə deputat seçilir. Sonra o uzun illər baş müəllim kimi APİ-də dərs deyir. 1965-ci ildə “1920-41-ci illərdə Azərbaycanda məktəbəqədər tərbiyənin inkişafı mövzusunda” namizədlik dissertasiyası müdafiə edir və pedaqoji elmlər namizədi alimlik dərəcəsini alır.

Ə.Qədimbəyova 1968-ci ildən 1978-ci ilə qədər APİ-də (indiki ADPU-da) məktəbəqədər kafedranın müdiri vəzifəsində çalışır və 1980-ci ilin mart ayında dünyasını dəyişir.

Azərbaycan SSR Ali Sovetinin iclası. 17 avqust 1953-cü il.



*Ali Sovetin sədri M.A.Topçubaşov,*
*müavinlər İ.A.Şelkonoqov, Ə.Ə.Qədimbəyova (Axundova)*

Tələbələri onu həmişə minnətdarlıq hissi ilə xatırlayırdılar. Filologiya elmləri namizədi Məmməd Rəhimov deyirdi: "Biz Xarici Dillər İnstitutunda oxuyarkən (1949-53) Əfşan xanım İnstitutun rektoru idi. Çox səmimi, mədəni, yüksək səviyyəli bir ziyalı idi. Kasıb, imkansız tələbələrə xüsusi qayğı göstərirdi".

Əfşan xanımın qızı Gülşən xanım da Xarici Dillər İnstitutunun ingilis dili fakültəsini bitirmiş, uzun illər APİ-də dərs demişdir. Mirzə Qədim İrəvanin rəssamlıq ənənəsi bu gün onun nəticəsi - Münəvvər xanımın oğlu Əməkdar incəsənət xadimi İsmət Axundov tərəfindən ləyaqətlə davam etdirilir.

İ.Axundov babası Mirzə Qədim İrəvanidən düz bir əsr sonra - 1925-ci ildə İrəvan şəhərində anadan olmuşdur. Rəssam söhbət edir ki, İrəvanda Sərdar bağının yanında hər cür meyvəsi olan böyük bağımız vardı. O, ilk təhsilini İrəvanda almış, Ə.Əzimzadə adına rəssamlıq məktəbini bitirmiş, 1972-ci ilə kimi rəssam fondun direktoru vəzifəsində çalışmışdır.

İ.Axundov əsasən mənzərə əsərləri yaratmışdır. Onun Bakıya, ələlxüsus İçərişəhərə, Şamaxıya aid tabloları xüsusilə diqqəti cəlb edir. Finlandiya, Türkiyə, Fransa, Avstriya, İsveçrə, Yuqoslaviya, Bolqarıstan kimi ölkələrdə olmuş rəssam İ.Axundov özü hər şeydən öncə, öz yurduna bağlı bir insandır. Bu bağlılıq onun əsərlərində bütün incəlikləri ilə öz əksini tapmışdı. Bundan sonra da görkəmli sənətkar öz əsərlərilə incəsənət aləminə yeni töhvələrini verəcəkdir.

Mirzə Qədim İrəvani - Qədimbəyovlar nəslindən danışarkən Kamal Qədimbəyovun da övladlarının adını çəkmək yerinə düşər. Onun qızı Elmira N.Nərimanov adına Azərbaycan Tibb Universitetini

bitirib, göz həkimidir. Oğlu isə, jurnalist Zaur Qədimbəyov öz imzası ilə keçmiş İttifaqda yaxşı tanınırdı.

M.F.Axundov adına Rus dili və ədəbiyyatı İnstitutunu bitirən Z.Qədimbəyov "Fizkulturnik Azerbaydjana" qəzetində işləmiş, "Vışka" qəzetində şöbə müdirliyindən redaktor vəzifəsinə qədər yüksəlmiş, iki il Efiopiyada işləmişdir. O, uzun illərdi ki, "Izvestiya"nın xüsusi müxbiri kimi fəaliyyət göstərir. Z.Qədimbəyov 1981-ci ildə "Izvestiya" qəzetinin müxbiri kimi Türkiyədə ezamiyyətdə olmuş və səfər təəssüratı nəticəsində "Burada Asiya Avropa ilə birləşir" kitabını yazıb nəşr etdirmişdir.

Tibb elmləri namizədi Şaiq Qədimovun verdiyi məlumata görə onun atası Mirzə Rza Qədimov və həyat yoldaşı Fatma xanım İrəvanda, eləcə də Zəngibasar rayonunda maarifin inkişafında mühüm rol oynamışlar. Ədəbiyyatşünas Kövsər Tarverdiyeva söyləyirdi ki, onların hər ikisi İrəvanda ona dərs demişlər. İki dəfə Lenin ordenli, əməkdar müəllimə Fatma xanım Zəngibasar rayonunun əksər kəndlərində müəllimlik etmişdir. Sarvanlarda, Aşağı Necilidə, Zəhmətdə, Arbatda... və eyni zamanda Eçmiədzin və Qəmərli rayonlarında. Yeri gəlmişkən xatırladaq ki, Fatma müəllimə 40-cı illərdə Aşağı Necili kəndində bu sətirlərin müəllifinin anası Siddiqə xanıma da dərs demişdir.

Bu ziyalı ailənin övladı Şaiq Qədimov 1926-cı ildə İrəvanda anadan olmuş, orta təhsilini burada almış, Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir. O, 1974-cü ildə müdafiə edərək tibb elmləri namizədi adını almışdı. "Qan qohumlğu" (1989), "Mustafa Topçubaşov" (1989), "Ailənin intim dünyası" (1990), "İnsanlar üçün bəla" (1990), "Xalq təbabətinin ensiklopediyası" (1997) əsərlərinin müəllifi olan Ş.Qədimov həm də bədii və publisistik yaradcılıqla məşğul olur və müntəzəm olaraq dövrü mətbuatda çıxış edir.

Şaiq müəllimin bacısı Siddiqə Qədimova (1912-1986) həmişə öz doğma yurduna bağlı olmuş, o, "Sovet Ermənistanı" qəzetində çalışmış, SSRİ Ali Sovetinin deputatı seçilmiş, İrəvanda ilk dəfə olaraq Azərbaycan radio verilişlərini hazırlamış, ömrünün son günlərinə qədər həmin verilişlərin redaksiyasında şöbə müdiri olmuşdur.

...İrəvani nəslinin övladları ilə söhbət etdikcə yurd hənirtisinin hələ onların qəlbindən zərrə qədər də soyumadığını hiss edirsən. İnanıram ki, çox çəkməyəcək bu nəslin övladları yenidən öz doğma yerlərinə qayıdacaq, İrəvan şəhərində babaları Mirzə Qədim kimi

neçə-neçə tarixi abidələr yaradacaq, məktəblər açacaq, ana dilində verilişlərini səsləndirəcəklər.

# KÖKÜ ÜSTƏ UCALAN PÖHRƏLƏR

Tale hər kəsə bir xoşbəxtlik bəxş edər...

İrəvanın tanınmış, məşhur və bir-birilə yaxın qohum olan nəcib seyid nəsilləri Mirbağırov və Mirbabayev ailələrinə ziyalılıq qisməti nəsib olmuşdu.

Mirbağırovlar və Mirbabayevlər nəsli İrəvan şəhərinin mərkəzində, Pənah xanın bulvarı deyilən yerdə (sonralar orada Əzizbəyovun balaca büstü qoyulmuşdu və onun adını daşıyırdı) yaşayırdı və böyük imarətləri vardı.

Mirbağırovlar nəslinin ən tutarlı nümayəndələrindən olmuş Mir Cəfər Mir Bağır oğlu dövrünün ziyalılarından olmuşdu. Nəvələrinin deməyinə görə o, məşhur axund, din xadimi idi. Ərəb və fars dillərini gözəl bilirdi. 1904-cü ildə nəşr olunmuş "Kavkazski kalendar"dan bəlli olur ki, Mir Cəfər Mir Bağır oğlu İrəvan şəhər dumasının üzvü idi. "Kavkazski kalendar"ın 1907 və 1908-ci il nəşrlərində isə bu nüfuzlu şəxsiyyətin İrəvan şəhərinin qlasnısı seçildiyi aydın olur. Gələcəyi oxumaqda olduğunu görən Mir Cəfər övladının maarifləməsinə, yüksək savad almasına çalışırdı. Oğul da atanın bu arzusunu layiqincə həyata keçirdi.

1896-cı ildə İrəvan şəhərində anadan olmuş Mirhüseyn Mir Cəfər oğlu Mirbağırov Haşım bəyin məktəbində oxumuşdu. O, burada Mirzə Hüseyn Ağa, Haşım bəy Nərimanbəyov, Həbib bəy Şahtaxtlı kimi görkəmli ziyalılardan dərs alır. Sonralar İrəvan gimnaziyasını bitirən M.Mirbağırov Moskvada Plexanov adına Ticarət İnstitutunun İqtisadiyyat fakültəsinə daxil olur. Təhsilini uğurla başa vuran Mirhüseyn 1935-ci ildən respublikanın ali məktəblərində işləyir və milli kadrların yetişməsinə çalışır. O, 1941-43-cü illərdə Azərbaycan Daxili İşlər Nazirliyinin Şərq şöbəsində məsləhətçi, 1943-50-ci illərdə respublika EA-nın şöbə müdiri və baş elmi işçi vəzifəsində fəaliyyət göstərir.

M.Mirbağırov 1944-cü ildə "İranın İqtisadiyyatı və onun xarici əlaqələri" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib, alimlik dərəcəsini alır. 1952-ci ildə o, dosent adına layiq görülür. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda Ticarətin İqtisadiyyatı və Təşkili kafedrasının yaradılması onun adı ilə bağlıdır. O, uzun illər həmin kafedraya rəhbərlik etmişdi.



*Mirhüseyn Mirbağırov*

M.Mirbağırov bir çox elmi əsərlərin müəllifi idi. O, 15 elmlər namizədi yetirmiş və doktorluq dissertasiyalarının məsləhətçisi olmuşdu. 1970-ci ildə vəfat edən alimin arxivi hazırda İnstitutun fondunda saxlanılır. Neçə illər institutda M.Mirbağırovun xatirəsinə həsr edilmiş elmi konfrans keçirilmişdi.

M.Mirbağırovun 4 övladı olmuşdu. Onlar ata-babasının ziyalılıq yolunu layiqincə davam etdirdilər. Qızları Asya xanım Tibb İnstitutunu, Hava xanım Azərbaycan Neft və Kimya İnstitutunu, Fatma xanım Xarici dillər İnstitutunu və oğlu Mirəli Politexnik İnstitutunu bitirmişdi. Hava xanım dissertasiya müdafiə edərək texnika elmləri namizədi adını almışdı. O, Neft və Kimya İnstitutunun dosenti idi.

Mirbağırovlar nəslinin nümayəndələri ilə apardığımız söhbətlər bu soykökün gələcək axtarışlara ehtiyacı olduğunu aydınlaşdırdı. Çünki iqtisad elmləri doktoru, professor İsmayıl Feyzullabəyli (M.Mirbağırovun bacısı oğlu), özlərinin söylədiyinə görə Azərbaycanın sabiq birinci katibi Kamran Bağırov, ADU-nun keçmiş rektoru Faiq Bağırzadə bu köklə qohumdur. Əlbəttə, son sözü axtarış və tədqiqatlar deyəcək.

Gənc bir oğlan 1951-ci ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu bitirib kafedrada laborant saxlanmışdı. Bir gün Gəncəyə valideynlərinin yanına gedərkən anası oğluna deyir: "Oğul, Bakıya qayıdanda get o dayını da axtar, gör necədir, nə edir?". Anası bu sözləri dəfələrlə desə də, nədənsə bu görüş alınmırdı. Tale elə gətirmişdir ki, bacı-qardaş uzun müddət idi ki, bir-birindən ayrılmışdı, həm də bir-birindən xəbərsizdi. Bu ayrılığı zaman özü yaratmışdı. Oğlan bir yaşında olarkən ata-anası doğma İrəvanı tərk etmişdi: Anasından eşitmişdi ki, bir dayısı var. O bu dəfə qəti qərara gəlir ki, mütləq dayısını tapacaqdır. Axtarır, soraqlaşır, həmin ünvanı tapır, qapını döyür. Qapı açılır. Gözlənilməz hadisə. Oğlan gözlərinə inanmır. Neçə illər ona dərs deyən, indi isə birlikdə işlədiyi kafedra müdiri onun doğma dayısı imiş. Bir-birlərini bağırlarına basıb quçaqlaşırlar... Eh, həyat bu adamların başına nə oyunlar açmamışdı.



***İsmayıl Feyzullabəyli***

Bəli, bir-birindən illər həsrətlisi, illər ayrısı olan həmin adamlar bu gün Azərbaycan iqtisad elmində xüsusi yeri olan, iqtisad elmləri doktoru, professor İsmayıl Feyzullabəyli, dayısı, kafedra müdiri isə respublikanın tanınmış iqtisadçılarından biri Mirhüseyn Mirbağırov idi.

İqtisad elmləri doktoru, professor Hacı İsmayıl Əli oğlu Feyzullabəyli 1925-ci ildə azərbaycanlıların əski məkanı İrəvanda anadan olmuşdur. Atası Əli bəy İrəvanın bəy nəslindəndir. "Şərqi Ermənistanın Rusiyaya birləşdikdən sonra İrəvanın inkişafı" kitabından bəlli olur ki, Əli bəy Feyzullabəyova İrəvan şəhərinin qlasnılarının seçkilərində iştirak etmək üçün 30 aprel 1911-ci ildə etibarnamə verilir. 1926-cı ildə Feyzullabəylilər ailəsi məcburi surətdə İrəvanı tərk edib Gəncədə məskunlaşırlar. Orta təhsilini Gəncədə alan İ.Feyzullabəyli 1941-ci ildə Dəliməmmədli qəsəbəsindəki pambıq təmizləmə zavodunda sərrac, növbə ustası

işləmiş, 1943-cü ildə ordu sıralarına çağrılmış, 1944-cü ildə hərbi piyada məktəbini bitirərək zabit rütbəsində cəbhəyə yollanmışdı. 1944-1945-ci illərdə 3-cü Ukrayna cəhəsinin 57-ci döyüşən ordusunda (Macarıstanda) vzvod komandiri olmuşdur. Müharibə başa çatdıqdan sonra da o, iki il Rumıniyada 81-ci polkun vzvod komandiri kimi orduda xidmət etmişdir.

1947-1951-ci illərdə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil almışdır. Hələ tələbə ikən elmlə ciddi məşğul olmağa başlayır və bu dövrdə yazdığı elmi-tədqiqat işinə görə keçmiş SSRİ Ali Təhsil Nazirliyinin Fəxri Fərmanına layiq görülmüşdü.

İ.Feyzullabəyli Azərbaycan EA-nın iqtisad bölməsinin aspirantura şöbəsində metodist vəzifəsinə işə düzəlsə də, 1937-ci ildə güllələnmiş xalq düşməninin qardaşı olduğuna görə gənc mütəxəssislərin dövlət bölgüsündən keçməmiş, az sonra vəzifədən uzaqlaşdırılır.

Müxtəlif sahələrdə çalışan gənc mütəxəssis nəhayət, öz ixtisası üzrə işləyərək həyatda özünün layiqli yerini tapmağa nail olur. 1961-ci ildən Azərbaycan Dövlət Universitetinin (indiki BDU) “İqtisad” fakültəsində müəllim, baş müəllim kimi fəaliyyət göstərir və iki il sonra “Azərbaycanda ictimai iaşənin inkişafı” mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi alır. O, 1966-cı ildə dosent elmi adına layiq görülür və həmin vaxtdan 1970-ci ilə kimi D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (indiki ADİU) “Ticarətin İqtisadiyyatı” fakültəsinin dekanı vəzifəsində çalışır. Həmin il İ.Feyzullabəyli doktorluq dissertasiyasını müdafiə edir və SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə professor adına layiq görülür.

1970-ci ildən 1989-cu ilə qədər D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda “Ticarətin İqtisadiyyatı” kafedrasına başçılıq edir.

İ.Feyzullabəyli Moskva, Sankt-Peterburq, Lvov, Kiyev, Tallin və digər şəhərlərdə keçirilən bir sıra elmi konfranslarda respublikamızı layiqincə təmsil etmişdir.

1984-1989-cu illərdə keçmiş SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə Tbilisi Dövlət Universitetinin müdafiə üzrə ixtisaslaşdırılmış şurasının üzvü seçilmişdir.

1976-1980-ci illərdə “Elmi əsərlər” (iqtisad elmləri seriyası) jurnalının redaksiya heyətinin üzvü, 1976-1994-cü illərdə Azərbaycan

Ali və Orta İxtisas Təhsili Nazirliyinin Elmi-metodik şurasının (konkret iqtisad elmləri bölməsi) sədr müavini olmuşdur.

İ.Feyzullabəyli son dərəcə məhsuldar alimdir. "Xalq istehlakı" (Bakı, "Azərnəşr", 1972, şərikli), "İctimai iaşənin sosial-iqtisadi problemləri" (1980), "Ticarətin dünəni, bu günü, sabahı" (1991), "Bazara doğru", (1993), "Biznes: bazar, ticarət, marketinq, plan nədir" (1995) və s. kitabları (cəmi 18 kitab və 8 kitabça), çoxlu elmi məqalələri onun elmi-tədqiqat dairəsinin genişliyindən xəbər verir.

Fəal elmi-tədqiqat fəaliyyəti ilə yanaşı İ.Feyzullabəyli elmi kadrların hazırlanması ilə də müvəffəqiyyətlə məşğul olur. Onun rəhbərliyi altında 13 nəfər (bir nəfər Vyetnam Respublikasından) namizədlik dissertasiyasını və iki nəfər (bir nəfər Dağıstandan) doktorluq dissetasiyası uğurla müdafiə etmişdir. Onların sırasında E.Allahyarlı, B.İbadov, P.Kərimova, A.Əlizadə, A.Ələkbərov, Nquen Konq Bi, M.Əkbərov, M.Ağamalıyev, R.Səlimov, F.Ələkbərov və Q.Buçayev kimi alimlərin adını çəkmək olar. Görkəmli alim hazırda da bir neçə aspiranta və doktoronta rəhbərlik edir.

İ.Feyzullabəyli Moskva, Kiyev, Tbilisi şəhərlərində fəaliyyət göstərən elmi şuraların iclaslarında 25 doktorluq və namizədlik dissertasiyalarının rəsmi opponenti olmuşdur.

Keçmiş SSRİ-nin bir çox tanınmış alimləri - elmlər doktorları A.Koçerqa, M.Abramov, V.Royaman, koreyalı Bok Zi Kou, elmlər namizədləri V.Korçaqin, V.Maxnyuk və başqaları öz tədqiqatlarında alimin əsərlərindən istifadə etdiklərini göstərmişlər. O, 14 iri və orta həcmli kitabın, çoxlu tədris-metodiki vəsaitin - dərs vəsaitlərinin proqramların, metodiki göstərişlərin və s. elmi redaktoru olmuşdur. Ümumiyyətlə, İ.Feyzullabəylinin yaradıcılığı çoxşaxəlidir: monoqrafiya, dərslik, proqram, lüğət və izahlı lüğət, elmi tezislər, məqalələr və bunlarla yanaşı bədii əsərlər (oçerk, povest, roman). Onun oncildlik Azərbaycan Sovet Ensiklopediyasında 20-dən çox məqaləsi, Rusiya, Bolqarıstan və Azərbaycan dövri mətbuatında çoxsaylı məqaləsi nəşr olunmuşdu.

Alimin qələmindən çıxan təxminən 250 çap vərəqi həcmində 200-dən çox elmi və publisistik yazıları alimlər, müəllimlər, iqtisadçılar və geniş oxucu kütləsi tərəfindən qarşılanmışdır.

Bu gün respublikanın ən tanınmış iqtisadçılarından olan İ.Feyzullabəyli maraqlıdır ki, yaradıcılığa bədii əsərlə başlamışdı (Bax: "Ədəbiyyat və incəsənət", 1956, 16 sentyabr). O, indi də bu ənənəni davam etdirir. Onun son dövrlərdə nəşr etdirdiyi "Məlahət"

povesti oxucuların marağına səbəb olmuşdur. Digər bədii əsərlərini də nəşr etdirməyi planlaşdırır.

İ.Feyzullabəyli ilə söhbət edərkən onun qəlbində bir İrəvan yanğısı açıq-aşkar hiss olunur. O yerdə ki, onun ata-babası bəylik etmişdi. Öz qələmi, ağlı, zəkası ilə bəylik kökünü layiqincə daşıyan iqtisad elmləri doktoru, professor İ.Feyzullabəyliyə bundan sonra da yaradıcılıq uğurları, gənclik təravəti arzulayırıq...

* * *

XIX əsrin ortalarında azərbaycanlıların əski məskənlərindən İrəvan şəhərində şəxsi mülkləri olan çox varlı Hacı Seyid Həsən Məşədi Mirbaba oğlu adında bir kişi yaşayırdı. Bu o dövr idi ki, görkəmli rəssam Mirzə Qədim İrəvani ölməz əsərlərini yaradaraq Azərbaycan təsviri sənətinə özünün böyük imzasını atırdı. İrəvanda anadan olmuş İsa-Sultan İsveçrənin əkinçilik İnstitutunu bitirib, Kənd Təsərrüfatı və meşəçilik üzrə namizədlik dissertasiyasını müdafiə edirdi. Qardaşı Əbülfət Almaniyanın Heydelberq universitetində təhsil alaraq V.Hötenin “Gənc Verterin iztirabları” romanını ilk dəfə olaraq Azərbaycan dilinə çevirirdi.

Açıq fikirli, maarifpərvər olan Hacı Seyid Həsən Məşhədi Mir Baba oğlu övladlarını savadlı görmək istəyirdi. O, bu arzusuna nail də ola bildi. Hacı Seyid Həsənin oğlanları təhsil alaraq, dövrünün qabaqcıl adamlarından olub, İrəvan quberniyasında müxtəlif vəzifələrdə çalışdılar.

Mir Abbas Hacı Seyid Həsən oğlu 1894-cü ildə 4 illiyə seçilmiş İrəvan şəhər dumasının üzvlərindən biri idi (“Ermənistanın Rusiyaya birləşməsindən sonra İrəvanın inkişafı”, səh.94).

“Kavkazski kalendar”ın 1900-cü il nəşrindən bəlli olur ki, İrəvan şəhər dumasının üzvlərindən 2 nəfəri azərbaycanlı olmuşdu. Mirzə Cabbar Qazıyev və Mir Abbas Mirbabayev.

1905-ci ildə İrəvanda güclü iğtişaş düşür. Şəhərdə sakitliyi yaratmaq üçün Azərbaycanlı və erməni tərəfi müqavilə imzalayır. 1906-cı ildə azərbaycanlılar tərəfdən bu müqaviləni imzalayanlar içərisində Makinski, K.Məmməd Əliyev, Ağa Xan Erivanski, Əkbər İsmayılov, Abbas Qulu bəy Hacıbəylinski ilə yanaşı Mir Abbas Mirbabayev də vardı. Mir Bağır Mirbabayev isə maliyyə işləri üzrə çalışmışdı. “Kavkazski kalendar” məcmuəsinin 1903-cü il məlumatına görə, Mir Bağır Mirbabayev bu dövrdə İrəvan bankının

deputatı idi. Hər iki qardaş İrəvan quberniyasında həmişə vəzifədə tutarlı, sayılan adamlar olmuşlar.

Aparılan axtarışlar bunların bir qardaşının da İrəvan quberniyasında çalışdığını təsdiq edir. 1870-ci ildə İrəvan şəhərində olmuş vəziyyət barədə 1878-ci ildə İrəvan quberniyasının məsləhətçisi Korqanova edilən müraciətdə azərbaycanlı icması tərəfindən Ağa Mir Hacı Seyid Həsən oğlunun da imzası vardı. Şübhə etmirik ki, bu şəxs yuxarıda adları çəkilən Mirbabayevlərin qardaşıdır.



***Kubra və Ruqiyyə bacıları İsveçrədə təhsil alarkən***

1904-cü ildə Mir Abbas və Mir Bağır Mirbabayev qardaşları İrəvan şəhər dumasının üzvü kimi fəaliyyət göstərirdilər. “Kavkazskiy kalendar”ın 1907 və 1908-ci il nəşrlərindən məlum olur ki, qardaşlar həmin müddətdə İrəvan şəhərinin qlasnıları seçilmişdi.

1909-cu ildə Mir Bağır Mirbabayev qızlarının təhsili ilə kifayətlənmədi. O, qızlarını ali təhsil almaq məqsədilə İsveçrəyə göndərdi. Əlbəttə, bu dövrdə əcnəbi ölkəyə oxumağa qız göndərmək böyük problem idi.

Çünki, hər şeydən əvvəl İrəvan tipik müsəlman şəhəri idi, 9 məscid fəaliyyət göstərirdi. Din güclü idi. Özü seyid övladı olan Mir Bağır belə bir çətin şəraitdə qızlarını ali təhsil dalınca göndərmişdi. İsveçrənin Sürix şəhərində Ruqiyyə xanım Tibb, Kubra xanım isə ümumi humanitar fənlər ixtisasına yiyələnərək ali məktəb diplomu ilə vətənə qayıdırlar. Ruqiyyə xanımın diplomu hazırda oğlu Mirəlinin evində saxlanılır. Bacıların Lozanna şəhərindən əmisi qızı Laləyə göndərdikləri rusca məktub onların bu dili yüksək səviyyədə bildiyini təsdiq edir. Ruqiyyə xanım ali məktəbi bitirdikdən sonra İrəvanda kimsəsiz uşaqların tərbiyəsi ilə məşğul olmuş, müxtəlif sahələrdə çalışmışdı. Demək lazımdır ki, bacılar özlərinə layiq şəxslərlə də ailə həyatı qurmuşdular. Ruqiyyə xanım yuxarıda haqqında danışılan iqtisad elmləri namizədi Mir Hüseyn Mirbağırovla, Kübra xanım isə

öz əmisi oğlu, filologiya elmləri namizədi, lüğətşünas Stalin Mükafatı laureati Mir Yusif Mirbabayevlə ailə qurmuşdu.

Ailənin ikinci oğlu Mir Abbas Mirbabayevin 10 övladı olmuşdur - 5 oğlan, 5 qız. Mir İsmayıl Ağa, Mirəli, Seyid Rza, Mir Yusif, Mir Həsən, Xüzrəxanım, Lalə xanım, Xədicə xanım, Səkinə xanım, Asya xanım.

Mir Həsən Tibb İnstitutunu bitirib uzun müddət Dəmir Yol xəstəxanasının baş həkimi olmuşdur. O, xidmətlərinə görə "Respublikanın əməkdar həkimi" adına layiq görülmüşdü.

M.A.Mirbabayevin övladlarının demək olar ki, hamısı az-çox təhsil almışlar. Ancaq ən yüksək zirvə filoloq Miryusif Mirbabayevə nəsib olmuşdur.

Yusif Abbas oğlu (Sovet hökumətinin təzyiqi nəticəsində Seyidlik kökünü bildirən "Mir sözü" götürülmüşdü.) Mirbabayev 1889-cu ildə İrəvan şəhərində anadan olmuşdu. O, rus-Azərbaycan məktəbini bitirərək, İrəvan gimnaziyasında təhsilini davam etdirmişdi. Y.Mirbabayev 1912-ci ildə Moskva Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub və 1916-cı ildə oranı müvəffəqiyyətlə bitirir. Vətənə qayıdan gənc mütəxəssis böyük çətinliklərlə qarşılaşır. Bu dövr İrəvan və onun ətrafında vəziyyət getdikcə gərginləşir. Silahlanmış erməni daşnakları azərbaycanlılara qarşı kütləvi qırğınlara başlayır.

Vətənpərvər, qeyrətli insan Y.Mirbabayev öz qələmi ilə bu vəhşiliklərin qarşısının təcili alınmasını tələb edir. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivinin Əlyazmalar şöbəsində Y.Mirbabayevin "Müttəfiq Dövlətlərin Əlahəzrət Ali Komissarına" məktubu saxlanılır. Məktubda deyilir: "Bu ilin (yəni 1919-cu ilin 7.3.) avqust və sentyabr aylarında Eçmiadzin, Sürməli, İrəvan, Novo-Bayazit qəzalarında müsəlman kəndləri erməni hərbi hissələri tərəfindən darmadağın edilmişdi. Eçmiadzin qəzası xüsusilə böyük zərər çəkmişdi. Burada bütün kəndlər dağıdılmışdı. Sürməli qəzasında cəmi 3 kəndə Dizə, Avat və Kərimbəyli kəndlərinə toxunulmamışdı. Müsəlman kəndlərinin dağıdılmasında qoşun hissələri ilə birlikdə erməni əhalisi də iştirak edirdi. Qarabağ erməniləri xüsusi qəddarlıq nümayiş etdirirdilər. ...Erməni qoşunları ya Ermənistanın Mərkəzi hökumətinin əmri, ya da təşəbbüsü ilə müsəlman kəndlərinə hücum etməyə başlayırdılar. Onlar ilk növbədə Eçmiədzin qəzasının Kolanlı kəndini dağıtdılar. Bundan sonra isə elə həmin qəzanın Qarğabazar kəndini yerlə yeksan edib, İrəvan qəzasının Hacı İlyas kəndinə tərəf

yeridilər. Lakin onlar burada müsəlman əhalinin güclü müqavimətinə rast gəldilər. Müsəlman əhali bir gün yarım qəhrəmancasına vuruşaraq, erməniləri əvvəlki mövqelərinə çəkilməyə məcbur etdi...

Zəngibasar rayonunun əhalisi xahiş edir ki, ermənilərin onlara qarşı hazırladıqları qəddar divanın qarşısının alınması üçün tədbirlər görülsün. Bu cür tədbirlər təxirə salınmadan görülməlidir".

Bu qırğının əsas səbəblərindən biri də o idi ki, azərbaycanlı əhali erməni daşnak hökumətini tanımaq istəmirdi. "İş kişinin başına gələr" - deyirdilər. "Fəal işlərinə" görə Y.Mirbabayev daşnak hökuməti tərəfindən həbs edilir.

1920-ci illərdən sonra Y.Mirbabayevin fəaliyyət dairəsi genişlənir. O, İrəvan pedaqoji texnikumunda dərs deyir, Mədəniyyət İnstitutunda çalışır. Yeni Türk Əlifbası Komitəsinin Rəyasət heyətinin üzvü seçilir. İrəvan Fəhlə fakültəsinin həm azərbaycanlı, həm də erməni şöbəsinin müdiri olur.



*Yusif Mirbabayev*

Nəhəng dəryada böyüyər - deyirlər.

1933-cü ildə Y.Mirbabayev ailəsilə Bakıya köçür və bu elm adamının əsas elmi fəaliyyəti məhz həmin dövrdən başlayır.

O, SSRİ EA-nın Zaqafqaziya filialının Azərbaycan şöbəsində işləyir və respublikanın ali məktəblərində dərs deyir.

1938-1941-ci illərdə Y.Mirbabayev EA Azərbaycan filialının Lüğətçilik İnstitutunun elmi katibi vəzifəsini icra edir və 1942-1944-cü illərdə isə Dil və Ədəbiyyat İnstitutunun lüğətçilik şöbəsinin müdiri olur.

1944-cü ildə o, Nizami adına Ədəbiyyat və Dil İnstitutunun direktor müavini və elmi katibi Yusif Mirbabayev seçilir və həmin ildə dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsini alır.

Y.Mirbabayev 1946-1949-cu illərdə Azərbaycan EA-nın müstəqil Dil İnstitutuna rəhbərlik edir.

Zəhmətkeş alim "Rusca-farsca-Azərbaycanca" lüğət, "Azərbaycanca-rusca" frazeologiya lüğəti və "Farsca-rusca-Azərbaycanca qısa lüğət" (Bakı, 1945) kitablarını yazır.

Keçmiş SSRİ-də rusca-azərbaycanca ilk üç dilli lüğət onun adı ilə bağlıdır.

Y.Mirbabayev "Fransız-Azərbaycan, alman-Azərbaycan, ingilis-Azərbaycan lüğətinin tərtibi" kitabı dövrün tələbi baxımından çox əhəmiyyətli idi.

İxtisasca hüquqşünas olan Y.Mirbabayev öz ana dilindən başqa bir neçə Avropa dillərini, rus və erməni dilini bilirdi.

Lüğətşünas alimə elm aləmində şöhrət qazandıran şübhəsiz ki, onun şərikli yazdığı dörd cilldlik "Rusca-azərbaycanca tam lüğət" idi. Lüğətin birinci cildi 1941-ci ildə əvvəlcə Azərbaycan Yazıçılar İttifaqında, sonra isə SSRİ EA-nın Dil və Ədəbiyyat şöbəsində müzakirə olunarkən üç müəllifdən biri Y.Mirbabayev çıxış etmişdi. Hələ 1943-cü ildə akademik İ.İ.Meşaninov yazırdı: "... Dördüncü, sonuncu cildin nəşri gözlənilir, bu rus-milli lüğətlər arasında rusca-azərbaycanca ən böyük lüğətdir. Lüğətin başa çatması Akademiyanın bütün Azərbaycan filialı və lüğət şöbəsinin möhtəşəm xidməti olacaqdır. Bu lüğət təkcə Azərbaycan üçün deyil, daha geniş miqyasda böyük əhəmiyyət kəsb edəcəkdir".

1948-ci ildə lüğətin yaradıcıları akademik Heydər Hüseynov, Akademiyanın Dil İnstitutunun direktoru Yusif Mirbabayev və həmin İnstitutun lüğət və terminologiya şöbəsinin müdiri Əliheydər Orucov Stalin mükafatına layiq görülürlər.

O zaman bu mükafat respublikanın ictimai həyatında mühüm hadisəyə çevrilir.

Təkcə lüğətşünas deyil, həm də qabiliyyətli terminoloq olan Y.Mirbabayev 1951-ci ildə 62 yaşında vəfat etmişdi. Vaxtı ilə onunla birlikdə işləmiş Nəsimi adına Dilçilik İnstitutunun elmi işçisi Əminə xanım həmkarını belə xatırlayır: "İnsana xas olan bütün gözəl keyfiyyətlər Y.Mirbabayevə verilmişdi: sadəlik, səmimilik, təvazökarlıq. O, əvəzsiz insan idi".

Çox təəssüf ki, görkəmli alim Y.Mirbabayevin adı ASE-yə düşməmişdi. Görəsən respublikanın neçə nəfər Stalin mükafatı almış belə dilçisi var imiş?

Yəqin ki, əlaqədar təşkilatlar Dilçilik İnstitutunun sabiq direktoru Y.Mirbabayevin xatirəsini əbədiləşdirmək qayğısına qalacaqlar.

Yusif Mirbabayevin 4 qızı olmuşdur.

1. 1915-ci ildə İrəvanda anadan olmuş Fəridə Azərbaycan Sənaye İnstitutunu bitirmiş Akademiyanın Kimya İnstitutunda işləmişdi. O, dissertasiya müdafiə edib texnika elmləri namizədi adını almış və Az.NKİ-nin dosenti olmuşdu.

2. Səadət xanım Tibb İnstitutunu bitirib, əvvəlcə Mərkəzi Göz Xəstəlikləri İnstitutunda, sonra Dəmiryol xəstəxanasında işləmişdi.

3. Şəfiqə xanım Konservatoriyada təhsil alıb. A.Zeynallı adına musiqi məktəbində dərs demişdi.

4. Şükufə isə Tibb İnstitutunu bitirmişdi.

Hazırda bu bacıların övladları da nəslin ziyalılıq ənənəsini layiqincə davam etdirirlər.

Məsələn, Fəridə Mirbabayevanın övladlarından Polad iqtisadçıdır, Fuad texnika elmləri namizədi, Sürəyya xanım isə sənətşünaslıq namizədidir. Konservatoriyada Yaxın və Orta Şərq xalqlarının musiqi tarixini tədris edir.

Səadət xanımın övladları Rauf texnika elmləri namizədi, Rüfət kimya elmləri namizədidir. İradə isə Politexnik İnstitutunu bitirmişdir.

Şəfiqə xanımın uşaqları babasının adını daşıyan Mir Yusif və Namiq Mirbabayev kimya elmləri namizədidirlər.

Şükufə xanımın övladları Fərhad memarlıq elmləri namizədi, Tofiq isə Politexnik İnstitutunu bitirmişdi.

Şübhəsiz ki, bu elmlər namizədlərini yaxın vaxtlarda doktor kimi görəcəyik.

Məlum olduğu kimi İrəvanın ziyalı nəsilləri bir-biriləri ilə qohum olmuşlar. Mirbabayevlər nəsli də bu ənənədən xali deyildi.

1.Mirbağır Mirbabayevin qızı Lalə xanım Mirhüseyn Mirbağırovların gəlini idi. Bu ailənin 7 övladından 4-ü Fatma, Məsimə, Səidə, Səfiyyə Tibb İnstitutunu, Mirməhəmməd texnikumu, Mircavad Moskvada Baumun adına Ali Texniki məktəbi, Mirmahmud Tiflisdə Zaqafqaziya Dəmir Yolu İnstitutunu bitirmişdi. Mircavadın qızı Cülyetta bibilərinin yolunu davam etdirir, Tibb elmləri namizədidir.

Mirabbasın qızı Asiya xanım akademik M.Topçubaşovun qardaşı oğlu Rəşid bəyin həyat yoldaşı olmuşdu.

Mirabbasın qızı Səkinə Səid Rüstəmovgilin gəlini idi.

Mirabbasın nəvəsi Fatma (Seyid Rzanın qızı) akademik Heydər Hüseynovun qardaşı Yaqub Hüseynovun həyat yoldaşı idi.

Öz soy kökünə sadiq olan ziyalı seyid övladları, nəslin ziyalılıq ənənəsini ləyaqətlə davam etdirəcəklər.

Yazının hazırlanmasında bizə yaxından köməklik göstərmiş Azərbaycan EA Nəsimi adına Dilçilik İnstitutunun elmi əməkdaşı lüğətşünas alim Bəhruz Abdullayevə, İqtisadiyyat İnstitutunun professoru İsmayıl Feyzullabəyliyə, Mirəli Mirbağırova, Namiq Surayyə Mirbabayevlərə həmin nəslin övladı (Mirabbasın nəticəsi) fizik Emma xanıma öz minnətdarlığımız bildiririk.

## ONLAR NƏSİLLİKCƏ ZİYALI İDİ...



*Mirzə Abbas*

XIX əsrin sonlarında XX əsrin əvvəllərində İrəvanda Abbas Məhəmmədzadə adına bir ziyalı yaşayırdı. Fars dilini gözəl bildiyi və fars dili mütəxəssisi olduğu üçün bütün şəhər əhli onu "Fars Abbas" deyə çağırırdı. O, həm pansionatda, həm də gimnaziyada fars dilindən dərs deyərdi. "Razi" təxəllüsü ilə şerlər yazardı...

Bəs kim idi bu şəxs?

Abbas Məhəmməd oğlu Məhəmmədzadə təxminən 1846-cı ildə İsfahanda anadan olmuşdu. Bəllidir ki, XIX əsrdə İranın, xüsusilə Təbrizin Qafqazda ən çox gediş-gəliş etdiyi, əlaqə saxladığı yer İrəvan idi. Çünki hər şeydən əvvəl bura tipik müsəlman şəhəri idi. Abbasın atası Məhəmməd ticarətlə əlaqədar İsfahana getmiş və orada ailə qurmuşdu. O, nəsil-nəcabətliklə İrəvanlı idi. Abbas çox kiçik, təxminən 10-11 yaşlarında olarkən Məhəmməd öz doğma şəhərinə qayıdır. Abbas burada Mədrəsədə təhsil alır və ciddi mütaliə edir. Güclü istedada malik bu gəncin özü də sonralar dini məktəblərdə fars dilindən dərs deməyə başlayır. XIX əsrin sonlarında yeni tipli məktəblər fəaliyyət göstərməyə başlayır. 1881-ci ildə İrəvanda müəllimlər seminariyası və gimnaziya açılır. Zamanın ahənginə uyğun olaraq Abbas ərəb və fars dilləri ilə yanaşı, rus dilini də mükəmməl öyrənir. Dövrünün görkəmli ziyalısı səviyyəsində yüksələn "Fars Abbas" uzun illər İrəvan gimnaziyası və pansionunda dərs deyir.

Görkəmli ədəbiyyatşünas Əziz Şərif öz müəllimi Abbas Məhəmmədzadə haqqında yazırdı: "İrəvanda pansionda yaşayan zaman atam mənə xüsusi fars müəllimi tapmışdı. Bəxtimdən mənim İrəvandakı müəllimim olduqca bilikli və təcrübəli imiş. Cabbar bəy Məmmədzadənin atası Molla Abbas İrəvanda yaşayırdı. Fars dilinin mütəxəssisi olduğu üçün Fars Abbas adı ilə şöhrət tapmışdı. Haman

Fars Abbas İrəvanda mənim xüsusi müəllimim oldu. O zaman farsca təlim kitabı əvəzinə fars klassik ədəbiyyatından dərs verilirdi. Mənim müəllimim təlim üçün Sədinin “Gülüstan”ını seçmişdi. Ərəb əlifbasını mən artıq öyrənmişdim və sərbəst oxuyub-yaza bilirdim. Buna görə “Gülüstan”ı oxumaqda çətinlik çəkmirdim.




***Abbas Məmmədzadənin “Güldəstə” kitabı***

“Gülüstan”ı səhifədən-səhifəyə oxuya-oxuya tərcümə edib, hər cümləsini, hər sözünü təhlildən keçirə-keçirə, daxili mənasını aydınlaşdıra-aydınlaşdıra, şerlərini isə əzbərləyərək irəliləyirdik. Eyni zamanda mənim unudulmaz qocaman müəllimin fars dilinin sərf nəhvini də mənə öyrədir, fellərə aid çətin qanunları mənə əzbərlədirdi. İrəvanda Molla Abbasın bir il müddətində mənə verdiyi dərslər, əzbərlətdiyi şerlər bu gün də yadımdadır və dərin təşəkkürlə etiraf etməliyəm ki, mənim bu gün farsca az-çox oxuyub yazmağıma bais ilk növbədə haman dərslərdir” (Əziz Şərif, “Keçmiş günlərdən”, Bakı, “Yazıçı” 1983). Eyni zamanda o, dərs dediyi tələbələr üçün dərsliklər hazırlayır. 1912-ci ildə Bakıda Orucov qardaşlarının mətbəəsində Mirzə Abbas Məhəmmədzadənin “Güldəstə” kitabı nəşr olunur. Kitabın üstündə “İrəvanda satış üçün” sözləri yazılmışdı. (Həmin kitabı bizə Mirzə Hüseyn ağanın oğlu Həsən Kamal vermişdi.)

Mirzə Abbas Məhəmmədzadə kitabda Sədinin, Qaaninin, Caminin tərbiyəvi əhəmiyyət kəsb edən nəsihatamimz şerlərindən istifadə etmişdir. Gözəl şair olan “Razi” təxəllüsü ilə şerlər yazan Mirzə Abbas “Güldəstə” kitabında öz şerlərindən də bol-bol istifadə etmişdir. O, şerlərində xalqı maarifə, elmə çağırır, maarifçilik ideyalarını təbliğ edir. Onun “Məktəbin tərifi”, “Məktəbə rəğbət” şerləri belə əsərlərdəndir. Məsələn o, “Məktəbin tərifi” şerində yazır

ki, məktəb şərəflər növünün mənbəyidir, məktəbə biganə olan avara qalar.

O, bir sıra ibrətamiz hekayətləri də nəzmə çəkmişdi ("İki itin dostluğu").

Abbas Məhəmmədzadənin 1913-cü ildə "Bədrağatül-Ətfal" (Balalara hədiyyə) kitabı nəşr olunur. Bu kitab da "Güldəstə" kimi dərslikdir. Maraqlıdır ki, həmin kitab Bakı və Tiflisdə, eyni zamanda 1913-cü ildə İrəvanda "Budaqov" mətbəəsində nəşr olunmuşdu. Xatırladaq ki, Mirzə Abbas hər iki əsərini fars dilində yazmışdır.

1913-cü ildə Mirzə Abbasın tərtib etdiyi "Samouçitelğ farsidskoqo əzıka dlə russkix" adlı kitab Bakıda Orucov qardaşlarının mətbəəsində nəşr edilir. Dərslik kimi uzun müddət istifadə olunmuş bu kitab həm də tərtibçinin rus dilini çox gözəl bildiyini təsdiq edir.

1918-ci ildə İrəvanla vəziyyətin kəskinləşməsi ilə əlaqədar Mirzə Abbas Təbrizə gəlir və 1919-cu ildə orada vəfat edir. O, Təbrizin "Gülüstan" bağında dəfn olunur.

İstər Mirzə Abbas, istərsə də onun övladları İrəvan ziyalılarının maariflənməsində müstəsna rol oynamışdır.

"Fars Abbasın" böyük oğlu Cabbar Məmmədzadə (1882-ci ildə İrəvanda anadan olmuşdur). 1902-ci ildə İrəvan müəllimlər seminariyasını bitirir. Dörd il o, Nehrəmdə, Qəmərlidə, İmanşalı kəndində müəllim işləyir.

1906-cı ilin payızında İrəvanda İbadulla bəy Muğanlinskinin şəxsi məktəbinə riyaziyyat və rus dili müəllimi kimi dəvət olunur. Bir il sonra isə həm də İrəvan müəllimlər seminariyasına türk (Azərbaycan) dili müəllimi təyin olunur. Uzun illər ərzində o, gələcəyin bir sıra görkəmli adamları - ictimai xadimlər Əsəd Şeyxzadə, Maqsud Məmmədov, akademiklər Mustafa bəy Topçubaşov, Heydər Hüseynov, H.T.Şahtaxtlı, professorlar Əziz Əliyev, Əziz Şərif, Mehdi xan İrəvanski və digər şəxslərə dərs deyir. Əziz Şərif öz sevimli müəllimini belə xatırlayır: "Müəllimimiz Cabbar bəy çox mehriban və xoşxasiyyətli adam idi. Ucaboy, qaraşın gənc müəllimimizin olduqca məlahətli təbəssümü var idi. O, güləndə sifətindən sanki nur yağırdı. Mən də onu çox sevər və hörmətini saxlayardım".

Mirzə Cabar həmişə Bakıda yaşayan ziyalılarla – xüsusən Abdulla Şaiqlə əlaqə saxlayıb, məktublaşardı. Çünki onları eyni inam, əqidə, məslək birləşdirirdi. Hazırda Şaiqin arxivində Mirzə Cabbarın dostuna göndərdiyi 40-a qədər məktub saxlanılır. (K.Tarverdiyevanın "Məslək dostları" kitabında bu barədə geniş söhbət açılır)



***Cabbar Məmmədzadə***

1918-ci ildə daşnakların hakimiyyətə gəlməsilə avqust ayının 6-da İrəvan gimnaziyası və müəllimlər seminariyası bağlanır, Mirzə Cabbar yaranmış vəziyyətlə əlaqədar 2 il müddətində Naxçıvan ali ibtidai məktəbində coğrafiya və türk (Azərbaycan dili) dillərindən dərs deyir. Bu illərə qədər onun tərtib etdiyi üç kitab nəşr olunur.

1. Самоучитель тюрского языка для русских.
2. Самоучитель тюрского языка для тюрок.
3. Самоучитель тюрского языка для персов.

20-ci illərdən sonra o, tək və ya şərikli olaraq Azərbaycan və rus dillərində ibtidai və yaxud orta məktəblər üçün 20-yə qədər dərslik tərtib edir.

1920-ci ildə Mirzə Cabbar Bakıya gəlir və Azərbaycan Dövlət Universitetində işləməyə başlayır. Bir il sonra Politexnik İnstitutunda da Azərbaycan dili üzrə mühazirələr deməyə başlayır. O, 1932-ci ildə Kooperativ İnstitutunda türk dilləri üzrə kafedra müdiri, dosent vəzifəsinə seçilir. Ona 1935-ci ildə dil və ədəbiyyat üzrə elmlər namizədi və professor adı verilir. 1937-ci ildə "Azərbaycanda tədris metodikası tarixi" adlı əsərinə görə pedaqoji elmlər doktoru elmi dərəcəsinə layiq görülür. Həmin ilin oktyabrında həbs olunur və güllələnir. Alimin bir çox elmi məqalələri 20-30-cu illərin dövri mətbuatında nəşr olunmuşdu. Hazırda Bakının Yasamal rayonundakı küçələrin biri Cabbar Məmmədzadənin adını daşıyır.

Mirzə Cabbarın kiçik qardaşı Mirzə Qafar da İrəvan müəllimlər seminariyasını bitimrişdi. O, göndərişlə Təbrizə gedərək rus dili müəllimi işləyir. Sonra Naxçıvanda Nərimanov adına təmayül məktəbində və Culfada gömrükxanada fəaliyyətini davam etdirir. 1934-cü ildə Tehrana gedərək ömrünün sonuna, yəni 1948-ci ilə kimi orada yaşayır və səfirlikdə çalışır. O, skripkada kövrək mahnılar çala-çala həmişə vətən həsrətilə uçunmuşdu. Vəfat edərkən həyat yoldaşı Suğranın əlini əlinə alaraq deyir: "Əgər istəyirsən ki, mən səni halal edim, sən uşaqları Vətənə apar". Vəfalı qadın nə qədər çətinliklərlə üzləşsə də, ərinin bu vəsiyyətini yerinə yetirir.

Məhəmmədzadələr nəsli müdhiş 1937-ci ildə iki ağır itkiyə məruz qalmışdı. Cabbar Məhəmmədzadə və Maqsud Məmmədov.



*Maqsud Məmmədov*

Fars Abbasın qardaşı oğlu olan Maqsud Məmmədov İrəvan gimnaziyasında oxumuşdu. 1915-ci ildə müəllim kimi fəaliyyətə başlamışdı. O, Moskvada Sverdlov adına universiteti bitirmişdir.

O, 1920-1923-cü illərdə Azərbaycanın Ərzaq Naziri, sonra isə Naxçıvanda Fövqəladə Xalq Maliyyə Komissarlığında çalışır. Bu illərdə o, həm də Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin üzvü idi. Bacarıqlı təşkilatçı, işgüzar insan Maqsud Məmmədov 1929-cu ildə Azərbaycan Dövlət Universitetinin rektoru seçilir. Bir il sonra respublikanın Xalq təhsili komissarı vəzifəsinə irəli çəkilir. Üç il Azərbaycan Mərkəzi Komitəsinin katibi vəzifəsində çalışır. 1933-34-cü illərdə o zaman dəbdə olan marksizm-leninizm İnstitutunun direktoru olur. Həmişə yüksək vəzifələrdə çalışan Maqsud Məmmədov 1934-cü ildə təhsilini artırmaq üçün Moskvaya göndərilir və 1936-cı ildə orada Qırmızı Professura Akademiyasının dünya siyasəti və İqtisadiyyatı şöbəsini bitirib Bakıya qayıdır və Azərbaycan MK-nın şöbə müdiri işləyir. O, işlədiyi müddətdə Azərbaycan MK-nın və Zaqafqaziya İcraiyyə Komitəsinin üzvü

olmuşdur. Azərbaycan Dövlət Nəşriyyatının direktorluğu M.Məmmədovun son iş yeri olur və 1937-ci ilin sentyabr ayında həbs edilib güllələnir. İstər Cabbara, istərsə də Maqsud Məmmədova ölümündən sonra 1957-ci ildə bəraət verilmişdir.

Su gələn arxdan güman var ki, bir də su gələr, deyiblər. Respublikada kitab nəşriyyatından söhbət düşəndə bu sahənin ən yaxşı biliciləri sırasında Cəlal Cabbar oğlu Məmmədovun adı hörmətlə yad edilir. O öz əməli ilə elə bil ki, Maqsudun işini davam etdirmişdir.



***Cəlal Məmmədov***

Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirən Cəlal hələ tələbəlik illərində hekayə və məqalələr yazır. O, bir müddət vəkillik edir. Ancaq həyatın gedişi təsdiq etdi ki, C.Məmmədov ədəbiyyat üçün yaranmışdı.

Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olur. Dissertasiyanı tamamlamaq ərəfəsində yeni bir çətinliklə üzləşir. Bu arada məşhur filosof akademik Heydər Hüseynovun yeni çapdan çıxmş "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən" adlı kitabına Cəlalın yazdığı müsbət rəy və Cəlalın özünün yazdığı "Həsən bəy Zərdabinin həyat və fəaliyyəti" adlı kitabı (Heydər Hüseynova yazılmış avtoqrafla) M.C.Bağırovun əlinə keçib onun qəzəbinə səbəb olur. Dərhal Cəlalın aspiranturadan və Yazıçılar İttifaqından uzaqlaşdırılması haqqında göstəriş verilir. Göstəriş də təcili yerinə yetirilir.

Cəlal Məmmədov, ömür boyu müxtəlif vəzifələrdə çalışmışdı: Maarif Nazirliyində tarix üzrə metodist, "Azərnəşr"də bədii ədəbiyyat şöbəsinin redaktoru, Azərbaycan Tədris-Pedaqoji Nəşriyyatında baş redaktor, Radio Verilişi və Televiziya Dövlət Komitəsində sədr müavini və "Kommunist" qəzetində redaktor müavini. 1966-cı ildə "Azərbaycan" jurnalının baş redaktoru təyin olunan C.Məmmədov, təxminən 10 il həmin jurnala başçılıq edir və 1975-ci ildən ömrünün

sonunadək Azərbaycan Kitab Ticarəti, Poliqrafiya və Nəşriyyat işləri üzrə Dövlət Komitəsi sədrinin birinci müavini olur.

C.Məmmədovun yaradıcılığı olduqca çoxşaxəli olmuşdu: yazıçı, tənqidçi, ədəbiyyatşünas, jurnalist tərcüməçi, teatrşünas, publisist.

O, "Nuranə", "Gəlirəm, Sagül", "Halə", "Həsən bəy Zərdabi", "Mərziyə Davudova", "Ələskər Ələkbərov", "Rza Təhmasib" əsərlərinin müəllifidir. Eyni zamanda M.S.Ordubadinin, Əbülhəsənin, Qılman İlkinin, İ.Şıxlının, N.Xəzrinin, M.İbrahimovun, M.Cəfərin yaradıcılığı ilə bağlı ədəbi-tənqidi resenziyalar qələmə almışdır.

Əməkdar incəsənət xadimi C.Məmmədovun yaradıcılığı ayrıca tədqiqat tələb edir. Çünki, mədəni həyatımızda elə bir mühüm hadisə olmamışdır ki, C.Məmmədov ona öz münasibətini bildirməsin. O, 1978-ci ildə Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm" mükafatı laureatı olmuşdur.

C.Məmmədovun tərcüməçilik fəaliyyətini xüsusi qeyd etmək lazım gəlir. Çünki o, respublikamızda barmaqla sayılan tərcüməçilərdən idi ki, həm Azərbaycan dilindən rus dilinə, həm də rus dilindən Azərbaycan dilinə tərcümələr edirdi. M.S.Ordubadi, Mehdi Hüseyn, Ə.Məmmədxanlı, S.Rəhimov kimi sənətkarların əsərlərini rus dilində və A.Fadeyevin "Gənc qvardiya", B.Polevoyun "Əsl insan haqqında povest", V.Q.Belinskinin, A.Makarenkonun seçilmiş əsərlərinin Azərbaycan dilində işıq üzü görməsi məhz C.Məmmədovun böyük zəhmətinin məhsuludur.

Adlarını əbədiləşdirmək üçün Maqsud və Cəlal Məmmədovun adına küçə verilməsinin vaxtı çatmışdır. Bizcə, buna onların haqqı vardır.

Professor Kamal Cabbar oğlu Məmmədzadə nəsildə sanki ənənəni pozaraq riyaziyyat üzrə ixtisaslaşmışdı.

Kamal Məmmədov 1921-ci ildə hərbi-hazırlıq məktəbinə daxil olmuş, sonra Bakıda 33 saylı məktəbə dəyişdirilmişdi. 1929-cu ildə Kamal Məmmədov Azərbaycan Sənaye İnstitutuna daxil olur. 1933-cü ildə professor L.İ.Elkinin rəhbərliyi altında "Tərsimi həndəsə" fənni üzrə ixtisaslaşmaq üçün elmi pedaqoji hazırlıq kursu keçir. 1935-ci ildə İnstitutun arxitektura şöbəsini bitirir və həmin kafedrada assisent kimi saxlanılır.



***Kamal Məmmədov***

K.Məmmədov 1942-ci ildə orduya səfərbər olunur. 1943-cü ilin yanvarında ön cəbhədə döyüş vaxtı güclü partlayışdan kontuziya olduqdan sonra ordudan tərxis olunur. 1950-ci ilə qədər Azərbaycan Sənaye İnstitutunda fəaliyyətini davam etdirir. Bu zamandan etibarən ömrünün sonuna kimi isə o Azərbaycan Politexnik İnstitutunda işləyir. Ümumiyyətlə 32 il respublikanın ali məktəblərində fəaliyyət göstərən Kamal Məmmədov bu müddət ərzində namizədlik dissertasiyasını müdafiə edir və 14 il Politexnik İnstitutunun "Tərsimi həndəsə və qrafiklər" kafedrasının müdiri olur. Xatırlatmaq istərdik ki, bu zəhmətkeş alim Tərsimi həndəsə üzrə respublikada yeganə mütəxəssislərdən idi. 1958-1962-ci illərdə İnstitutun elmi katibi olmuş və 1962-1967-ci illərdə ümumtexniki fənlər kafedrasına başçılıq etmişdir. 1968-ci ildə professor adına layiq görülən K.Məmmədov ali məktəblər üçün dərsliklərin və bir çox elmi məqalələrin müəllifidir. Onun doktorluq dissertasiyası hazır idi. Ancaq təəssüflər olsun ki, amansız ölüm onun dissertasiya müdafiə etməsinə imkan vermədi.

Məmmədzadələr sülaləsi nəsillikcə ziyalı olmuşdu. Bu nəslin indiki nümayəndələri də keçmiş ənənəni ləyaqətlə davam etdirirlər. Axtarış zamanı mənə imkanları daxilində köməklik göstərmiş Cəlal Məmmədovun həyat yoldaşı həkim Tahirə xanım (o, məşhur tənqidçi Əli Nazimin bacısıdır), Nizami adına Ədəbiyyat muzeyinin elmi işçisi Dilarə xanıma (Fars Abbasın nəvəsi) və mühəndis Fərizə xanıma (Fars Abbasın nəticəsi) öz dərin minnətdarlığımı bildirirəm.

# ZİYALILIQ KÖKDƏN GƏLİRMİŞ

İrəvan ziyalıları ilə bağlı axtarış apararkən istər yazılı qaynaqlarda, istərsə də yaşlı nəsillə görüşərkən Qazıyevlər soyadına tez-tez təsadüf edirdim. Bu izlə axtarış və tədqiqatdan sonra bəlli oldu ki, İrəvanda iki Qazıyevlər nəsli olmuşdur.

1. İsmayıl bəy Qazıyevin nəsli.

2. Mirzə Cabbar bəy Qazıyevin nəsli. (Şəkildə əyləşənlərdən altıncı).

Bəri başdan deyək ki, bu bəylərin hər ikisi İrəvan quberniyasında - qubernator idarəsində xüsusi mövqeyə malik adamlar olmuşlar. İsmayıl bəy Qazıyev təxminən 1842-1843-cü illərdə İrəvan şəhərində anadan olmuşdur. Zəngin varlı ailədə böyüyən İsmayıl Tiflis gimnaziyasında təhsil alır, ancaq xəstələndiyi üçün təhsilini başa çatdıra bilmir. O, İrəvan quberniyasının dəftərxanasında işə başlayır. Sonra o, müxtəlif vəzifələrdə işləyir: şöbə müdirinin köməkçisi, kollegiyada qeydiyyatçı, quberniyada katib olur.

Xatırladaq ki, kollegiya registratoru 1917-ci ildən əvvəl Rusiyada birinci aşağı mülki rütbə sayılırdı.

1861-ci ildən fəaliyyətə başlayan İsmayıl bəyin demək olar ki, ömrünün sonunadək get-gedə vəzifəsi artmış, həyatında uğurlu dəyişiklik baş vermişdi.

İrəvanın vitse-qubernatoru İsmayıl bəy Qazıyev və həyat yoldaşı Əfruz xanım (şəkil)

1869-cu ildə İsmayıl bəy müşavir rütbəsinə layiq görülür və bir il sonra iş icraçısı kimi idarə müşaviri vəzifəsini aparır. Yaxşı xidmətinə görə ona pul mükafatı (300 manat) verilir.

İsmayıl bəy Qazıyev sonralar İrəvan rəisinin kiçik köməkçisi, o zaman 7-ci dərəcəli mülki rütbə sayılan Saray müşaviri, kollegiya müşaviri və 1886-cı ilin 23 noyabr tarixli qərarı ilə mülki müşavirə rütbəsini alır.

1891-ci ildə Rusiya DİN-in qərarı ilə İsmayıl bəy İrəvan quberniya idarəsinin müşaviri təyin olunur.

1902-ci ildə isə İ.B.Qazıyev İrəvan quberniyasının vitse-qubernatoru vəzifəsinə yüksəlir. Moskva Dövlət arxivindən götürülmüş, əlimizdə olan məlumata görə 1905-ci ilin özü də daxil

olmaqla o, vitse-qubernator vəzifəsində çalışırdı. Ancaq onun bundan sonrakı fəaliyyəti və həyatı haqqında heç nə məlum deyildir.

Bəy rütbəsini daşıyan İ.B.Qazıyev işlədiyi müddətdə bir sıra orden və medallarla təltif olunmuşdu: 4-cü dərəcəli Vladimir ordeni, 2-ci, 3-cü dərəcəli Anna, 2-ci, 3-cü dərəcəli Stanislav ordeni, 40 il nöqsansız xidmətinə görə əlaçılıq nişanı, III Aleksandrın şərəfinə gümüş medal, İranın 3-cü dərəcəli Şir və Günəş ordeni.

İ.B.Qazıyev sonuncu ordeni əvvəldən alsa da çar onu bu ordeni daşımağa 1890-cı il iyun ayının 11-də icazə verdi.

İsmayıl bəy Qazıyev iki dəfə ailə qurmalı olmuşdur. Onun birinci qadını İrəvanlı Məşədi İbrahimin qızı Dürrətil xanım idi. İkinci xanımı isə İrəvanlı Hacı Əli Məmmədin qızı Əfruz xanım idi. İsmayıl bəyin iki qadından on iki uşağı olmuşdu.

İ.B.Qazıyevin böyük oğlu Əli bəy Zəngəzur uyezdinin Elizavetpol (Gəncə) quberniyasında Dövlət idarəsində işləmişdir.

Yusif bəy İrəvan gimnaziyasında təhsil almışdı.

İrəvan gimnaziyasını ilk qızıl medalla bitirən İsmayıl bəyin oğlu Məmməd bəy Qazıyev olmuşdu. O, sonralar MDU-nun hüquq fakültəsinə daxil olmuşdu.

Əlimizdəki sənəd yazılan tarixə qədər İsmayıl bəyin 4 qızı Fatma, Səkinə, Züleyxa, Xurşid ailəli idi. Qalanları atasının himayəsində yaşayırdılar.

Mirzə Cabbar Qazıyevin anadan olma tarixi barədə əlimizdə hələlik heç bir məlumat yoxdur. Ancaq 1900-cu ildə nəşr olunmuş "Kavkazskiy kalendar" kitabını vərəqlədikcə 1898-ci il İrəvan şəhər dumasının üzvləri arasında 2 nəfər azərbaycanlıya təsadüf etdik. Mirzə Cabbar Qazıyev, Mir Abbas Mirbabayev.

"Kavkazski kalendar"ın 1907-ci il, 1908-ci il nəşrində Mirzə Cabbar Qazıyevin adına İrəvan şəhərinin qlasnıları arasında rast gəlinir.

Mirzə Cabbarın oğlu Hüseyn bəy Qazıyev dövrünün ziyalılarından olmuşdu. Onun özü də İrəvan Quberniyasında müxtəlif vəzifələrdə çalışmışdır. 1903-cü ildə nəşr olunmuş "Kavkazski kalendar" aydın olur ki, Hüseyn bəy İrəvanın natoriusçusu idi. 1904-cü ildə o artıq şəhər dumasının üzvü idi.

Hüseyn bəyin beş övladı olmuşdur: Əli bəy, Adil bəy, Əkbər bəy, Kərim bəy, Gülrux xanım.

Hüseyn bəy olduqca açıqfikirli maarifpərvər adam olmuşdu. Buna görə də uşaqlarının oxumasına, savad almasına, maariflən-

məsinə çalışmışdı. Adil bəy, Əkbər bəy və Gülrux xanım İrəvan gimnaziyasını bitirmişdilər. Əkbər bəy Moskva Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdu. Oranı müvəffəqiyyətlə bitirdikdən sonra hüquqşünas-konsul vəzifəsində işləmişdi.



***Adil bəy Qazıyev***

Adil bəy Qazıyev də Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirib, müxtəlif sahələrdə fəaliyyət göstərmişdi.

Sonralar ali təhsil alan Gülrux xanım Qədimbəyova (xatırladaq ki, o, “Pravda” qəzetinin xüsusi müxbiri Zaur Qədimbəyovun anasıdır) Azərbaycanda məktəbəqədər tərbiyə işinin banilərindən biri olmuşdu. Uzun müddət o, APİ-də (indiki N.Tusi adına APU) müəllim və kafedra müdiri olmuş, 1959-cu ildə təqaüdə çıxmışdı. Maarif sahəsində göstərdiyi xidmətlərinə görə “Respublikanın əməkdar müəllimi” fəxri adına layiq görülmüşdü.

Mirzə Cabbarın nəvəsi Adil bəy İsmayıl bəy Qazıyevin qız nəvəsi (ilk övladı Fatmanın qızı) Tacı xanımla ailə qurmuşdu.



***Tacı xanım***

Ayrı-ayrı nəsillər olan Qazıyevlər bu nigahla qohumlaşmışlar. Xatırladaq ki, Tacı xanım İrəvan qadın gimnaziyasını qızıl medalla bitirmişdi. Tacı xanımın atası İrəvanın ən güclü bəy-ziyalı nəsillərindən olan Hacıbəyovlardan idi.

İki Qazıyevlər nəslini birləşdirən Adil bəy və Tacı xanımın övladları ata və babalarının elmdə qazandığı uğurları daha da genişləndirdilər.

Məmməd Əmin Adil oğlu Qazıyev 1914-cü ildə ata-baba yurdu İrəvanda dünyaya göz açmışdı. Orta məktəbi bitirdikdən sonra 1933-cü illərdə M.N.Pokrovski adına Moskva Tarix-Arxiv İnstitutunda

oxumuşdur. 1939-cu ildə Azərbaycan Dövlət Universitetinin tarix kafedrasında müəllim vəzifəsində saxlayırlar. 1940-cı ilə kimi o, bir sıra məqalələr yazsa da, 1941-1945-ci illərdə "Xalq Qəhrəmanı Qatır Məmməd", "Xanlar", "Azərbaycan oğulları Vətən uğrunda döyüşlərdə" kitab və kitabçalarını nəşr etdirir. M.Qazıyev material toplamaq məqsədilə 2 dəfə Azərbaycan diviziyalarının ön cəbhədəki hissələrinə gedir. 1944-cü ildə o, Moskvaya diplomatiya kursuna göndərilir. Kursu bitirdikdən sonra Azərbaycan xarici işlər nazirinin köməkçisi vəzifəsinə təyin olunur. Bir il sonra namizədlik dissertasiyasını müdafiə edir. 1950-ci ildə M.Qazıyev H.B.Zərdabi adına Pedaqoji İnstitutda (indi Universitetdə) kafedra müdiri vəzifəsində işləyir. 3 il sonra o, Azərbaycan SSR EA Tarix və Fəlsəfə İnstitutunun müdiri müavini vəzifəsinə dəvət olunur və eyni zamanda ADU-da (indiki BDU) pedaqoji iş aparır.

1954-cü ildə M.Qazıyev Azərbaycan SSR EA Tarix Muzeyinin müdiri vəzifəsinə təyin olunur. Burada işlədiyi müddətdə onun rəhbərliyi altında Azərbaycan tarixinin qədim, orta əsrlər, yeni və ən yeni dövrləri üzrə yeni ekspozisiya yaranır. Muzeydəki fəaliyyətinə görə o Azərbaycan SSR Ali Sovetinin ikinci fəxri fərmanı ilə təltif edilir. (Birinci dəfə Fəxri fərman 1940-cı ildə verilmişdir) 1958-ci ildə onun "Azərbaycanın tarixi abidələri" kitabı nəşr olunur.



***Məmməd Əmin Qazıyev***

M.Qazıyev 1960-cı ildə M.Qazıyev Tiflis Dövlət Universitetində doktorluq dissertasiyası müdafiə edir.

1961-1962-ci illərdə o, Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsinin müdiri vəzifəsində işləyir. Azərbaycan KP XXV qurultayında o, respublika MK-nın üzvü və Azərbaycan SSR Ali Sovetinin 5-ci çağrışının deputatı seçilir.

M.Qazıyev sonralar yenidən elmi işə qayıdır və ADU-nun Azərbaycan tarixi kafedrasında professor vəzifəsində işləyir. 1970-ci ildə alimin rus dilində "Nərimanov" kitabı nəşr olunur.

1980-cı ildə Məmməd Qazıyev Azərbaycan SSR Dövlət mükafatı laureatı, 1982-ci ildə isə "Əməkdar elm xadimi" fəxri adına layiq görülür.

Adil Qazıyevin qızı Nazxanım Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş, sonra aspiranturaya daxil olmuşdu. 1964-cü ildə o, “Azərbaycan məktəblərində yaxından görən şagirdlər” mövzusunda dissertasiya müdafiə etmişdir. Neçə-neçə elmi məqalələrin müəllifi olan N.Qazıyeva uzun illər göz xəstəlikləri elmi-tədqiqat İnstitutunda işləmişdi. Hazırda təqaüddədir.

Adil Qazıyevin kiçik qızı Lilufər xanım ədəbiyyatşünasdır. O, uzun illər AMEA-nın Nizami adına Ədəbiyyat muzeyində işləmiş. 2012-ci ildə vəfat etmişdir.

Qazıyevlər nəslindən danışarkən iki cəhəti xüsusilə qeyd etmək lazım gəlir.

Birincisi odur ki, “Kavkazskiy kalendar”ın ayrı-ayrı nömrələrini araşdırarkən yüksək vəzifəli bir neçə Qazıyevlərə təsadüf etdik.

1. İrəvan Quberniyasında məhkəmə iclasçısı. *Mallı bəy Qazıyev.*
2. İrəvan Quberniyasında 2-ci müdir. *Mirzə Bağır Qazıyev.*
3. İrəvan Quberniya dini məclisinin üzvü. *Axund Mirzə Abdulla Qazıyev.*
4. Dini işlər üzrə icraçı. *Ağabəy Qazıyev.*
5. Uluxanlı məktəbinin müdiri. *Məmməd bəy Lütfəli bəy Qazıyev.*

İrəvanın yaşlı ziyalılarından soruşduqda, bunların hansı Qazıyevlərin nəslindən olduğunu aydınlaşdıra bilmədik.

1. 1881-ci ildə yaradılmış İrəvan müəllimlər seminariyasının müsəlman şöbəsinin müdiri Axund Məmməd Bağır Qazızadə. O, həm də İrəvan Quberniya dini məclisinin üzvi olmuşdur.
2. İrəvan Quberniya dini Məclisinin üzvi Axund Həsən Qazızadə.
3. Eçmiədzin Dini Məclisinin üzvi, Axund Məmmədəli Qazızadə.

Qazıyevlər və Qazızadələrin eyni və yaxud başqa nəsil olduğu barədə hələlik əlimizdə heç bir məlumat yoxdur.

İkinci cəhət ondan ibarətdir ki, İrəvanın bəy, ziyalı nəslinin demək olar ki, hamısı bir-biri ilə qohum olmuşdur. Məsələn: Qazıyevlər nəsli də (digərləri barədə yeri gəldikcə söhbət açacağıq) bu ənənəni pozmamışlar.

1.Adil bəyin ailə qurduğu Tacı xanımın atası – Bağırbəyovlardandır. Anası - İsmayıl bəy Qazıyevin qızıdır.

2. Adil bəyin qızı Lilufər xanımın həyat yoldaşı İbrahim Topçubaşovdur.

3. Adil bəyin nəvəsi (M.Qazıyevin qızı) Gülarə xanım Abbas Məhəmmədzadəgilin gəlinidir.

Qazıyevlər nəslində bundan sonra da soy köklərinə layiq övladlar boya-başa çatmışlar. Tahirə xanım Qazıyeva Amerika ədəbiyyatı üzrə respublikada yeganə mütəxəssislərdəndir – filologiya elmləri namizədidir.Gülarə xanım Qazıyeva Konservatoriyada dərs deyir. Sevil Qazıyeva Azərbaycan Tarix muzeyində elmi işçi kimi fəaliyyət göstərir. Vilayə xanım sənətşünasdır. Yazının hazırlanmasında bizə köməklik göstərmiş Nazxanıma və Azərbaycan Tarixi Muzeyinin əməkdaşı Nərmin xanım Tahirovaya öz dərin minnətdarlığımızı bildiririk.

Qazıyevlər nəslinin ən tanınmış nümayəndələrindən biri də əməkdar incəsənət xadimi, görkəmli rejissor Arif Qaziyevdir.

# İRƏVANIN XAN NƏSLİ

Qarşımda bir şəkil var... Şəklin üstündə yazılmışdır: "İrəvan quberniyasının zadəganları, 1860". Gələcək nəsillərə aydın olsun deyə zadəganların üstündə sıra nömrələri yazılmış, aşağıda onların adları sıra ilə qeyd olunmuşdur. Əyləşənlər içərisində soldan üçüncü boy-buxunlu, düz qamətli, enlikürək, buxara papaqlı, dövrünə, mühitinə, türk soykökünə məxsus səliqəli bığ qoymuş, üz-gözündən, baxış tərzindən əsilzadəlik, xanlıq görkəmi yağan bir gənc əyləşmişdi. Bu, xanlıq titulunu quberniyanın tərkibində inamla daşıyan Abbasqulu xan Erivanskidir. Təxminən 225 il mövcud olmuş İrəvan xanlığı 1828-ci il rusların zor, güc ilə işğalından sonra indi öz ömrünü bu titulda yaşadırdı. 1865-ci ilin məlumatına görə İrəvanda 25 nəfər xan, 215 nəfər isə bəy mənşəli adam yaşayırdı. "Kavkazskiy kalendar"da bu məlumat bir az da dəqiqləşdirilir: İrəvanda 4 xan, 41 bəy ailəsi vardı. Abbasqulu xan Erivanski bu azlıqdan biri idi.



***İrəvan zadəganları (1860). 1) Abdulla xan Makinski; 2) Şükür xan Makinski; 3) Abbasqulu xan Erivanski; 4) Pənah xan Makinski; 5) Ağaəli xan; 6) Mirzə Cabbar Qazıyev; 7) Qriqori Yelizarov; 8) Bala bəy Ordubadlı; 9) Mirzə İsmayılov; 10) Hacı bəy Bağırbəyov; 11) Əsəd bəy; 12) Balasultan Şadlınski***

Abbasqulu xan Erivanski təxminən 1825-27-ci illərdə anadan olmuşdur. O, dövrünə məxsus təhsil görmüş və getdikcə quberniyada tutarlı nüfuz qazanmışdı. Hələ gənc ikən 1860-cı ildə təxminən 28-30 yaşlarında İrəvan quberniyasının zadəganları arasında onun adına rast gəlmək olur "Kavkazski kalendar"ın 1886-cı il tarixli nömrəsinin 54-cü səhifəsindən bəlli olur ki, İrəvan şəhər idarəsinin iki üzvündən biri Abbasqulu xan Erivanski idi. İrəvanın su idarəsinin rəisinə Cəfərabad və Sarvanlar kəndlərinə su verilməməsi barədə göstəriş verilir. Ancaq həmin kəndlərdəki üç bağ istisna olunur: Abbasqulu xanın, Hacı Məmmədəli Hacı Ələsgər oğlu və Kərbəlayı Mustafanın şübhəsiz ki, bu onun quberniyada tutduğu mövqedən, malik oldu nüfuzdan irəli gəlmişdi. Abbasqulu xan Erivanskinin 2 qadını olmuşdu: Bilqeys xanım və Tərlan xanım.

Bilqeys xanımdan üç övladı dünyaya gəlmişdi: Ağa xan, Böyük xan, Şövkət xanım.

Dövrünün ziyalılarından olan Ağa xan atası ilə yanaşı İrəvan quberniyasında çalışmışdır. 1878-ci ildə quberniyanın kollekiyasında İrəvanın 1870-ci il vəziyyəti məsələsinə baxılarkən azərbaycanlılar tərəfindən bir neçə nəfərlə yanaşı Ağa xan və Abbasqulu xan da iştirak etmişdi.

"Kavkazski kalendar"ın 1904-cü il tarixli nömrəsindən bəlli olur ki, Ağa xan Erivanski şəhər dumasının üzvü idi. 1906-cı ildə İrəvan şəhərində sakitlik yaratmaq üçün azərbaycanlı və erməni icması müqavilə bağlayır. Azərbaycanlı icması tərəfindən müqaviləni imzalayanlardan biri Ağa xan idi. 1907-1908-ci illərdə Ağa xan Erivanski bir neçə azərbaycanlı ilə İrəvan şəhərinin qlasnısı seçilmişdi.

Ağa xanın bir qızı olmuşdu - Bülbül xanım (1897) İrəvan gimnaziyasını bitirən bu qız rusça da yaxşı savada malik idi. O, öz doğma şəhərində və Gədəbəydə müəllimlik etmiş (1917-1920), Dəllərdə (1921), Naxçıvanda (1922), İrəvanda (1923-1944) qadınlar klubunu təşkil etmiş və həmin mədəniyyətin ocaqlarının müdiri olmuşdur.

Abbasqulu xanın 2-ci oğlu Böyük xanla bağlı sonra danışacağıq. İndi isə onun ikinci qadını Tərlan xanımdan olan övladlarına qayıdaq. Abbasqulu xanın bu izdivacdan 6 uşağı olmuşdu.

İlk övladı Həsən xan Türkiyəyə getmişdi. Onun oğlu Hüseyn xan Turqut orada hava donanması üzrə ordu generalı olub.

2-ci övladı Fəxrəntac xanım general Cəmşid Naxçıvanskinin anasıdır. Digər övladları Gövhərtac xanım, Kərimxan, Xanlarxan, Tacı xanımdır. (bu Qazıyevlərin Tacı xanımı deyildir).

Abbasqulu xan Erivanskinin Bilqeys xanımdan 2-ci övladı Böyük xanın yeddi övladı olmuşdur. Onun həyat yoldaşı Tovuz xanım Naxçıvan xanının qızı idi. Onu dayısı isə “Xan qızı” Xurşid Banu Natəvanın qızı ilə ailə qurmuşdu - Qarabağın sonuncu xanı Mehdiqulu xanın nəvəsilə. İlki olan Nazxanım 1912-ci ildə Maku xanına ərə getmişdi.



*Tovuz xanım*

İkinci uşağı Yaməntac xanım Bakıda qız məktəbində təhsil almışdı.

Üçüncü övladı qədim Şərq tarixi üzrə respublikada ən güclü mütəxəssis olmuş Mehdi Erivanskidir.

Dördüncü övladı Əfşan xanım Bakıda Tağıyevin qız məktəbində oxumuşdur. Xatırladaq ki, onun əri İrəvan əsilzadələrindəndir. O, İrəvan gimnaziyasında oxumuş və Peterburq Mühəndislik İnstitutunu bitirib, müxtəlif vəzifələrdə çalışmışdır. Əfşan xanımın qızı İsmət xanım görkəmli yazıçı dramaturq Sabit Rəhmanın həyat yoldaşı, gözəl bəstəkar, respublikanın xalq artisti Emin Sabit oğlunun anasıdır. İsmət xanım BDU-nun kimya fakültəsini bitirib, aspiranturada oxumuş, Akademiyanın kimya İnstitutunda işləmişdir.

Beşinci övladı Allahyar xan həm Bakıda Şərqşünaslığı, həm də Leninqradda Tibb İnstitutunu bitirmişdi.

Altıncı övladı Davud xandır.

Yeddinci övladı Nəcəf xan Moskvada metallurgiya İnstitutunu qurtarıb, sonra Bakıda maşınqayırma zavodunda işləmişdir. O, Dissertasiya müdafiə edərək texnika elmlər namizədi adını almış ANKİ-də dekan vəzifəsində çalışmışdı.

Erivanskilər nəsli içərisində qədim dünya tarixi üzrə görkəmli alim Mehdi xan Erivanskinin xüsusi yeri var.

Alimin şəxsi arxivindən aydın olur ki, Mehdi xan Erivanski 1898-ci ildə İrəvanda anadan olmuşdur. O, 1918-ci ildə İrəvan gimnaziyasını, 1925-ci ildə isə Moskva Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirmişdi. O, universitetdə təhsil alarkən türk, ərəb, fars və fransız dillərini öyrənir. 1934-cü ildə Azərbaycan Dövlət Universitetində pedaqoji fəaliyyətə başlayır, 1938-ci ildə qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri təyin edilir. Elə həmin ildə "Pelopenes müharibəsi dövründə Afinada siyasi partiyalar" mövzusunda namizədlik dissertasiyası müdafiə edir. O, 1939-cu il sentyabrın 1-də qədim və orta əsrlər kafedrasının dosenti seçilir. 1941-1942-ci dərs ilində Mehdi xan Erivanski həmin kafedranın professoru təyin olunur.



***Mehdi xan Erivanski***

O, 1948-ci ildə "Roma respublikasının sonuncu onilliklərində ədəbiyyat və siyasətdə aqrar məsələ" mövzusunda doktorluq dissertasiyasını yenidən işləyərək ikinci dəfə AAK-a göndərir.



***Kubra xanım***

1959-cu il may ayının 14-də ADU-nun Elmi Sovetində M.Erivanskiyə professor rütbəsi verilməsi barədə məsələ qaldırılır. Bu barədə respublikanın ayrı-ayrı ali məktəbləri - ADU, APİ, Axundov adına Rus dili İnstitutu, Gəncə Pedaqoji İnstitutu, İrəvan Pedaqoji İnstitutunun tarix kafedraları, bir sıra görkəmli alimlər akademik V.V.Struve, professor S.L.Utçenko. SSRİ və Azərbaycan SSR EA-nın müxbir və həqiqi üzvü A.O.Makovelski, akademik Ə.K.Əlizadə, Ə.S.Sumbatzadə, akademik İ.A.Hüseynov,

professor Z.İbrahimov, t.e.d. E.A.Tokarjevski, Voronej Universitetinin kafedra müdiri İ.N.Borozdin müsbət rəy verirlər. Rəylərdə alimin zəhmətkeşliyi istedadı çox parlaq şəkildə əks olunur. Akademik Sumbatzadənin çıxışı bu cəhətdən səciyyəvidir. M.Erivanskinin qədim Şərq, Yunanıstan və Roma tarixi üzrə əsərləri 2-3 dəfə nəşr olunmuş və respublikanın ali məktəblərində yeganə dərs vəsaiti kimi işlənir. O, qədim tarix üzrə möhtəşəm lüğət hazırlamış və Herodotun əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. M.Erivanski yüksək dərəcəli mütəxəssis kimi İrəvanın, Maxaçqalanın, Pyatiqorskinin ali məktəblərində mühazirə deməyə dəvət edilmişdi. Xatırladaq ki, Erivanskinin vaxtilə doktorluğunun "qeyri-marksist" mövqedən yazıldığını söyləyənlər də indi onun elmi yaradıcılığı haqqında yüksək fikirlər söyləyir.

Mehdi xan müəllim 102 çap vərəqi həcmində 29 elmi əsərin müəllifidir. Xeyli aspirant və dissertantlar yetişdirmişdir. Şəxsi arxivindən bəlli olur ki, M.Erivanski 1959-cu il noyabrın 12-dən tarix elmlər doktoru elmi dərəcəsinə layiq görülür. Ömrünün sonuna kimi keçmişdə dəbdə olan partiya sıralarına daxil olmayan Mehdi xan 1960-cı il sentyabrın 17-də dünyasını dəyişir.

Ancaq Mehdi xan Erivanskinin qədim dünya tarixinə dair əsərləri nəinki sağlığında, hətta vəfatından sonra da uzun müddət respublikanın ali məktəblərində həmin sahə üzrə yeganə dərs vəsaiti oldu. Bu əsərlər əvvəlcə məcmuədə məqalə şəklində nəşr olunmuşdu: Qədim Şərq tarixi (1939), Qədim Yunan tarixi (1939), Qraxların reforması (1939), İtaliyanın fəthi (1939), Misirin su təsərrüfatı (1939), Perika dövrü (1940), Homer dövrü (1940), Yunanıstanın təbii şəraiti (1940), Antik dünya tarixi müntəxabatı (1940) və s.



***Fatma xanım***
***(Kubra xanımın anası)***

Rus dilində yazdığı həmin məqalələri Mehdi xan Erivanski

sonra təkmilləşdirərək Azərbaycan dilində kitab şəklində nəşr etdirir. “Qədim Yunan tarixi” (1943), “Qədim Şərq tarixi” (1949), “Qədim Hindistan” (1956), “Qədim Assuriya” (1957), “Qədim Misir” (1957), “Qədim İran” (1958), “Qədim Xett tarixi” (1958) kitabları, eləcə də, ölümündən sonra nəşr edilən Qədim Yunan tarixi (1963) ali məktəblərdə əsas dərs vəsaiti olur.

Vaxtilə Erivanskinin dərs dediyi tələbələr öz müəllimlərini belə xatırlayırlar. Professor Yaqub Mahmudov: “O gözəl pedaqoq, alim olmaqla yanaşı, həm də çox milli adam idi”.

Professor C.Mustafayev: “M.Erivanski xan soykökünə məxsus olduqca səliqəli geyinərdi. Qədim Hindistandan danışanda adam özünü Hindistanda, Mesopotimiyadan danışanda Mesopotomiyada, qədim Misirdən danışanda Misirdə, Yunanıstandan danışanda Yunanıstanda hiss edirdi. Bu layiqli alim haqqında yazmaq lazımdır”.

Mərhum lüğətşünas İbrahim Xəlilov da müəllim haqqında maraqlı xatirələr söyləyərdi. Onun dediklərindən: “1957-58-ci illərdə Erivanski bizə İrəvan pedaqoji İnstitutunda dərs deyirdi. Bir gün yay aylarında imtahandan sonra İrəvanın təxminən 25-30 km-də yerləşən Dərəçiçək kəndinə getdik. Xoş bir məclisdən sonra Mehdi xan müəllim oturmuş vəziyyətdə əli ilə ətrafdakı təpələrin üstündəki sarayları göstərib dedi: “Bunlar babamın mülkləridir. Yay aylarını gəlib burada dincəlirdik”.

M.Erivanskinin üç qızı var. Tamella, Kamilə, Nailə. Hər üçü ali təhsillidir. Tanınmış rejissor Şamil Mahmudbəyovun həyat yoldaşı olan Tamella xanım atasının pedaqoji fəaliyyətini davam etdirərək N.Tusi adına universitetdə işləyir.

Görkəmli alim, gözəl pedaqoq və mütəxəssis M.Erivanskinin adını əbədiləşdirmək Bakının küçələrindən birinə onun adını vermək lazımdır.

Qədim dünya tarixi üzrə respublikanın ən görkəmli mütəxəssisi olmuş M.Erivanski soykökünə layiq nəslin övladları ilə ailə həyatı qurmuşdu. Onun həyat yoldaşı İrəvanın məşhur bəy nəsillərindən olan Bağırbəyovların qızı Kübra xanım idi.

Bağırbəyovların adına hələ 1860-cı ilin İrəvan quberniyasının zadəganları arasında təsadüf olunur. Hacı bəy Bağırbəyov Abbasqulu xan Erivanskinin silahdaşı olmuşdur.

1903-cü ilin Kavkazski kalendarından verilən məlumata görə Məmməd bəy Bağırbəyov quberniyada polis işçisi olmuşdu.

Həmin nəslin tutarlı nümayəndələrindən olan Hacı İsmayıl bəy Bağırbəyov şəhərin adlı-sanlı adamlarından biri idi. O, İrəvan quberniyasının vitse-qubernatoru İsmayıl bəy Qazıyevin qızı Fatma xanımla ailə həyatı qurmuşdu. Bu nigahdan onların altı övladı dünyaya gəlmişdi: 4 oğul, 2 qız. İsmayıl bəyin Böyük oğlu Ağa İrəvan gimnaziyasını bitirib, Kiyev Universitetinin hüquq fakültəsində təhsil almışdı. Əbülfət bəy və Şamil bəy, İrəvan gimnaziyasından sonra Xarkov Kənd Təsərrüfatı İnstitutunu bitirmişlər. Tacı xanım – professor M.Qazıyevin anası, İrəvan gimnaziyasını qızıl medalla bitirmişdi. Kübra xanım da həmin gimnaziyanın məzunu idi.



*Ağa bəy Bağırbəyov*

1918-20-ci illərdə erməni daşnaklarının törətdiyi qırğınlardan sonra bu ailə doğma İrəvanı tərk etməli olublar.

Kübra xanım bundan sonra Tiflis Universitetinin tibb fakültəsini bitirir. O, 1926-cı ildə Mehdi xan Erivanski ilə ailə qurur. Ancaq elmə güclü həvəs onu bir an da olsa tərk etmir. Sanki qazanılmış uğurlar azdır. O, aspiranturaya daxil olur, dissertasiya müdafiə edərək tibb elmlər namizədi alimlik dərəcəsi alır. Respublikanın ən tanınmış ginekoloqlarından olan Kübra xanım Bağırbəyova Erivanskaya doktorluq dissertasiyası hazır olsa da onu müdafiə edə bilmir.

Mehdi xan (qızı atasının əsl adının Mehdiqulu xan olduğunu söyləyir). Erivanski və onun ömür-gün yoldaşı olmuş Kübra xanımın həyatı indi onların övladlarının ömründə, bir də xalqın qiymətli xəzinəsinə çevrilmiş əsərlərindən yaşayır.

Yazının hazırlanmasında bizə köməklik göstərmiş Azərbaycan tarixi muzeyinin əməkdaşı Nərmin xanıma, M.Erivanskinin qızı Ta-

mella xanıma və alimin bacısı qızı İsmət xanıma təşəkkürümüzü bildiririk.

# MİRZƏ HÜSEYN AĞA



*Mirzə Hüseyn ağa*

Qədim İrəvan şəhəri... 1938-ci il martın 4-dən 5-nə keçən gecə təxminən gecə saat 2-3 radələri. İki polis (biri erməni, digəri rus) Gedərçay üstündəki Şəhər məhəlləsinə tərəf dönüb evlərdən birinin qapısını döyür. Bir anlıq tərəddüddən və "Kimdir?" sualından sonra qapı açılır. Evdə axtarış başlayır və heç nə tapılmır.

Evin kişisini aparmağa gəlmişdilər. Gecənin zil qaranlığında İrəvan əhlindən xəbərsiz ata və oğul polislərin qabağına düşüb sakitcə gedirdilər. 15 yaşlı oğul ataya icazə verilmiş yükü-yorğan və

döşəkcəni götürmüşdü. Bir azdan sonra onlar lazımi yerə gəlib çatdılar. Elə həmin andaca "ayrıla bilərsiniz" - deyə polislərdən biri dilləndi. Ata əyilib oğlu Ziyanın üzündən öpdü və sakitcə dedi: "Oğlum, get, mən tezliklə qayıdacağam".

Ziya bərk kövrəlmişdi. Göz yaşları içərisində atasını qucaqladı... Ata oğlunun başını köksünə sıxdı.

Lakin ağıllarına da gəlməzdi ki, bu onların sonuncu görüşüdü. Gedər-gəlməzə yollanan bu böyük insan İrəvan şəhərinin ən parlaq şəxsiyyətlərindən biri, görkəmli şərqşünas alim, istedadlı şair Mirzə Hüseyn Ağa idi.

Mirzə Hüseyn Ağa təxminən 1868-ci ildə İrəvan şəhərində həkim ailəsində anadan olmuşdur. XIX əsrin axırlarında ətrafda vəba xəstəliyi yayılarkən Sərdarın baş həkimi olan atası Mirzə Həsən Ağa bir müddət şəhərə girişi bağlamağı təklif edir. Sərdar həmin təklifi qəbul edir və beləliklə, İrəvan şəhəri vəba xəstəliyindən xilas olur.

Mirzə Hüseyn Ağa ilk təhsilini İrəvanda almış, bir müddət Bağdad, Nəcəf şəhərlərində təhsilini davam etdirmiş, Tehran, Təbriz, İstanbul, Ədirnə şəhərlərində işləmişdi. O, Ədirnədə işləyərkən əslən sultan nəslindən olan ziyalı türk qızı Ənisə xanımla ailə qurmuşdu. Ənisə xanım fars və fransız dillərini mükəmməl bilirdi.

Sonra Mirzə Hüseyn Ağa İrəvana gəlir və ömrünün sonuna kimi burada yaşayır. O, adətən İrəvanda məşhur Göy məsciddə əyləşərdi və dövrün bütün ziyalıları onun başına yığışardı. Türkiyədən, İrandan və digər Şərq ölkələrindən gələn alimlər onunla görüşərdi.

Mirzə Hüseyn Ağa İrəvanda Milli Şuranın və "Xeyriyyə" cəmiyyətinin sədri olmuşdur. Onun göndərişi ilə bir sıra ziyalılar Rusiyada və xarici ölkələrdə təhsil almışdılar.

Mirzə Hüseyn Ağa əvəzsiz şərqşünas idi. Şərq tarixini, ədəbiyyatını, fəlsəfəsini və adət-ənənələrini çox gözəl bilirdi. Onu Peterburq və Kazan universitetlərinin şərqşünaslıq fakültələrinə, sonralar isə Bakıya dəvət etsələr də razılaşmamışdır. Bir dəfə SSRİ EA-nın Ermənistan filialı tərəfindən Mirzə Hüseyn Ağaya bir əlyazma göndərilir. Heç bir erməni aliminin oxuya bilmədiyi, ərəb dilində olan əlyazma ilə tanış olan Mirzə Hüseyn Ağa onun əksinə yazıldığını söyləmiş, güzgü vasitəsilə əlyazmanı oxuyub üzünü köçürmüşdür.

Kinorejissor H.Beknazaryan "Aktyorun, kinorejissorun xatirələri" kitabında yazır ki, biz Şərq haqqında film çəkmək istəyirdik (söhbət "Xaspuş" filmindən gedir). Ancaq Şərq adət-ənənələrini

bilmirdik. Böyük alim, İrəvan şəhərinin vaizi Mirzə Hüseyn Ağa bu işdə bizə kömək etdi. Mirzə Hüseyn Ağa Bakıda yaşayan Azərbaycan ziyalıları ilə məktublaşırdı. Böyük dramaturq Hüseyn Cavidlə sıx əlaqə saxlayırdı. Hüseyn Cavid öz əsərlərini Mirzə Hüseyn Ağaya göndərər və ondan öz fikrini yazmasını xahiş edərdi.

Görkəmli dilçi alim, professor Bəkir Çobanzadə də Mirzə Hüseyn Ağanı tanıyırdı.

Mirzə Hüseyn Ağanın oğlu İsmayılın xatirəsindən: "30-cu illərin əvvəllərində qardaşlarım və mən tez-tez atama Bakıya köçməyi təklif edirdik. Ancaq atam doğma İrəvandan ayrıla bilmirdi. Nəhayət, 1936-cı ildə o, Bakıya köçməyə razılıq verdi. O vaxt mən Azərbaycan Sənaye İnstitutunun üçüncü kursunda oxuyurdum. Yay tətilindən qayıdayanda o, mənə bir məktub yazıb verdi və tapşırdı ki, aparıb B.Çobanzadəyə verim. Mən Bakıya gəlib Çobanzadəni universitetdə tapdım, məktubu ona verdim. Çobanzadə məktubu oxudu və dedi: "Qoy gəlsin, iş taparıq, o bizə lazımlı adamdır". Ancaq hadisələrin sonrakı gedişinə görə o, Bakıya gedə bilmədi. 1934-cü ildə dahi fars şairi Firdovsinin min illik yubileyi bayram edilirdi. İran şahından Mirzə Hüseyn Ağanın adına xüsusi dəvətnamə gəlmişdi. Ancaq repressiyanı qabaqcadan hiss edən dostları onun İrana getməsini məsləhət görmədi. O, Firdovsi haqqında məqalə yazıb göndərdi və həmin məqalə Tehranda nəşr olundu. Ümumiyyətlə, İran mətbuatında müxtəlif vaxtlarda onun bir sıra şer və məqalələri nəşr edilmişdir.

Hazırda Mirzə Hüseyn Ağanın Firdovsiyə ithafla fars dilində yazdığı bir neçə şeri qalır.

Ərəb, fars, rus, fransız və erməni dillərini bilən bu böyük alimin təəssüflər olsun ki, əlimizdə bir dənə də olsun elmi məqaləsi qalmamışdı.

Mirzə Hüseyn Ağa istedadlı şair idi. O, "Hadi", "Səfa" təxəllüsü ilə ərəb, fars və Azərbaycan dilində şerlər yazmış, fars ədəbiyyatından tərcümələr etmişdir. Əfsus ki, onun külliyyatından təsadüf nəticəsində bir neçə şer qalmışdı. Bu şerlərin əksəriyyəti fars, az bir qismi isə Azərbaycan dilində yazılmışdır. "İrəvan", "Mütəfəkkirə", "Keçmiş xatirələrindən", "Həyatın əski bir fəlsəfəsi", "Həyatın son səhifəsi", "Qış mövsümü münasibətilə" və s. şerləri bu qəbildəndir. Onun şerlərində ərəb, fars, tərkibli sözlərə, osmanlı ləhcəsinə sıx-sıx təsadüf olunur. Bu da onun təhsili, işlədiyi yer və mühiti ilə əlaqədardır. Mirzə Hüseyn Ağanın qələmə aldığı şerlərin hərəsi bir xatirə ilə bağlı olmuşdur. Həsən Kamal atası barədə xatirəsində yazır: "Atam bir dəfə

Türkiyədə çox ağıllı, savadlı gəncə rast gəlmişdir. O, ömür boyu həmin gənci xatırlayırdı və bu münasibətlə də yazdığı qəzəlində onun ləyaqətindən, ağıl və kamalından bəhs edirdi".

Yaxud bir mütəfəkkirə heykəl qoyulması münasibətilə

*"Ey heykəli camid kimi təsvir*
*ediyorsan mütəfəkkirimi?*
*Yox, yox, edəməzsən, edəməzsən,*
*edəməzsən"*

rədifli müxəmməsini qələmə alır, şerin sonunda "bir şey deyəməzsin, sözümün işdə sübutu ki, sən o deyilsən" - deyən şair göstərir ki, heykəl nə qədər əzəmətli olsa da, dahinin cizgilərini özündə əks etdirsə də, o mütəfəkkirin özü deyildir. Çünki nə səsi var, nə də nəfəsi.

Mirzə Hüseyn Ağa əsl el ağsaqqalı idi. Hamı onun yanına məsləhətə gələrdi. İrəvanın yaşlı ziyalı nəsli bu gün də onu iftixar hissi ilə xatırlayır.

Əməkdar elm xadimi, professor Mirəli Seyidov deyərdi: "Mən onu dəfələrlə görmüşəm. Çox nəcib kişi idi. Üzündən nur tökülürdü. O, cavana, qocaya baxmayaraq, ağlı kəsən adamla ciddi söhbətlər edərdi. Həmişə onlara gedəndə yanında iki-üç kitab olduğunu görərdim. Mən onu ruhani və dünyəvi alim sayıram. Hüseyn Cavid "Xəyyam" əsərinin əlyazmasını (bəlkə də başqası köçürmüşdü - Ə.Z.) ona göndərmişdi. Məşhur dilçi, akademik H.Acaryan ərəb dilinin incəliklərini öyrənmək üçün tez-tez onun yanına gələrdi".

Filologiya elmləri doktoru F.Fərhadov deyir: "Mirzə Hüseyn Ağa sinədəftər idi. Tez-tez onu teatra dəvət edərdilər. O, arvadı Sona xanım ilə tamaşaya gəlib, qabaq cərgədə əyləşərdi. Onun qadını ilə teatra gəlməsi böyük hadisə olardı".

*Haşiyə:* Cavidin "Xəyyam" əsərinin uzun müddət səsi sorağı olmamışdı. Bu da həqiqətdir ki, əsərin yeganə surəti məhz İrəvandan tapılmışdır. Şairin 1971-ci ildə nəşr edilmiş "Seçilmiş əsərləri"nin üçüncü cildində oxuyuruq. "Hüseyn Cavid vaxtilə "Xəyyam" əsərini İrəvanda yaşayan dostlarından birinə göndərmişdir. Aradan uzun müddət keçdikdən sonra, 1957-ci ildə bu sətirlərin müəllifinə (Turan Cavidə - Ə.Z.) əsəri İrəvan şəhərindən tapıb gətirmək nəsib oldu".

Yazıçı, ədəbiyyatşünas Rəfael Hüseynov isə bu fikri bir az da dəqiqləşdirir. "Sazaqlı, boranlı bir qış günü... 1957-ci il... Turan xanım İrəvana gəlir... "Xəyyam" sorağı ilə gəlib bura. Rejissor, Ermənistanın əməkdar artisti Əli Şahsabahlı ilə görüşüb, 2 min manat

verir, əlyazmanı alır. Bu, Cavidin xətti deyil, kimsə üzünü köçürüb pyesin...”

Turan Cavidin xatirəsində: “Bəli, mən “Xəyyam” pyesini Şahsabahlıdan pulla almışam. Hər halda əsərin tapılması üçün ona minnətdaram. Ancaq, bir dəfə Həsən Ağa Mirzəyev (əməkdar artist Ətayə Əliyevanın həyat yoldaşı. O, uzun müddət C.Cabbarlı adına İrəvan teatrında işləmişdi - Ə.Z.) əsərin əlyazmasını görərkən söylədi ki, əsərin üzünü mən köçürmüşəm. Yazdı, xətt oxşar idi. Ancaq, dəftərdənmi, makina yazısındanmı köçürdüyünü xatırlaya bilmədi”.

Ehtimal ki, “Xəyyam” faciəsi məhz Cavidin Mirzə Hüseyn Ağaya göndərdiyi əlyazma vasitəsilə salamat qalıb üzə çıxmışdı.

Turan Çavid: “Mirzə Hüseyn Ağaya gəlincə, İrəvan ziyalılarından onun haqqında çox eşitmişəm. Həm güclü alim kimi, həm də gözəl insan kimi. Özüm də təəssüflənirdim ki, tarixin “ağ ləkələrindən” çox yazıldığı bir vaxtda nə üçün bu adam haqqında yazılmır, nə üçün yada düşmür?”

İrəvanın yaşlı nəsli Mirzə Hüseyn Ağanı minnətdarlıq hissi və hörmətlə xatırlayır.

Səksən yaşlı İrəvanlı Əhməd Məmmədov deyirdi: “Mirzə Hüseyn Ağa həm alim, həm də şair idi. Bütün şəhər əhalisi onun hörmətini saxlayardı. O, İrəvanda küçə ilə gedərkən hamı ayaq saxlayar, heç kəs ondan qabağa getməz və ona tənzim edərdilər”.

Bir dəfə səksən dörd yaşlı Rəhim müəllimdən (R.Rəhimov o zaman Qasım İsmayılov rayonunun Azad kəndində yaşayır) soruşdum ki, siz Mirzə Hüseyn Ağanı tanıyırsınızmı? O, əllərini stola söykəyib, ayağa qalxıb (sanki əyləşdiyi yerdə söz demək Ağanın ruhuna toxuna bilərdi) dedi: “Mirzə Hüseyn Ağa böyük alim idi. Tayı-bərabəri yox idi. Buna görə də erməni millətçiləri onu aradan götürməklə İrəvan azərbaycanlılarına ən ağır zərbə vurdular”.

Bəli, İrəvanda belə böyük bir alimin çoxdan aradan götürülməsini arzulayan erməni millətçiləri 1938-ci il mart ayının 5-də gecə onu evdən aparırlar. Kaluqa şəhərinə sürgün edilən görkəmli alim, şair Mirzə Hüseyn Ağa təxminən 68-70 yaşlarında sürgündə vəfat edir.

Ancaq məsələ sürgünlə bitməmişdir. Erməni millətçiləri onun zəngin kitabxanasını talan etmişlər. Bu böyük şəxsiyyətin əlyazmaları, elmi məqalələri, şerləri də məhz bu vaxt itib batır, oğurlanıb yoxa çıxır. Oğlu Həsən Kamalın dediklərindən: “Atamın ərəb, fars, türk və fransız, eyni zamanda Azərbaycan dillərində nadir kitablardan

ibarət çox zəngin kitabxanası vardır. Şərqin nəhəng klassikləri ilə yanaşı Viktor Hüqonun Balzakın, Dümanın orijinal əsərləri, Defonun fransız dilinə çevrilmiş “Robinzon Kruzo” əsəri kitabxananın bəzəyi idi. Millətçilər kitabxana ilə yanaşı atamın əl yazmalarını da qarət etdilər. Gördüyünüz bu əlyazma isə təsadüfən məndə qalmışdı”.



***Mirzə Hüseyn ağa övladları ilə***

Mirzə Hüseyn Ağanın 7 övladı olmuşdur. Bunların hamısı dünyasını dəyişmişdi. Böyük oğlu Həsən Kamal (1908-ci ildə anadan olmuşdur). 1936-cı ildə Moskvada Yer Quruluşu Mühəndisliyi İnstitutunu bitirmiş, hazırla Azərbaycan Dövlət Yer Quruluşu İnstitutunda işləmişdir. İkinci oğlu İsmayıl (1910) 1938-ci ildə Sənaye İnstitutunu bitirmiş, bir müddət atasının təhsil aldığı Bağdad şəhərində işləmişdir. Mirzə Hüseyn Ağanın oğlanları Qivam və Ziya İncəsənət İnstitutunu, qızı Mərziyə xanım isə İrəvan Pedaqoji Texnikumunu bitirmişdilər.

Mərziyə xanımın oğlu Çüdüz Cəlilov uzun illər Bakı şəhər Xətai rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışmışdır. Xüsusi vurğulamaq lazımdır ki, “İrəvan ziyalıları” kitabının ilk nəşri məhz bu vətənpərvər insanın qardımçılığı ilə işıq üzü görmüşdür.

İrəvan ədəbi mühitini, maddi mədəniyyətini tədqiq etməyin vaxtı çoxdan çatmışdır. Əgər indiki gənc nəsl bu barədə düşünüb çalışmasa, gələcək nəsillər üçün bu çətin olacaqdır. Buna görə də hələ nə qədər ki, imkan var. Mirzə Hüseyn Ağaları, Fars Abbasları, Əli Məhzunları, ümumiyyətlə, İrəvaniləri, Qəmərlinskləri axtarıb, tapıb, üzə çıxarmaq onları layiq olduqları səviyyədə xalqımıza tanıtdırmaq vacibdir.